Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 43 (8066) CÜMƏ, 22 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# 92 yaşlı Saray nənənin PREZİDENTƏ ismarıcı var:

## «İlham, oğlum, Sən mənə ancaq yeni ev vermirsən, arxa-dayaq olmaqla ömrümə ömür qatırsan...»






**Zəlzələ bölgəsindən reportaj**

**Şamaxıdayıq. Havanın qarlı-şaxtalı olmasına baxmayaraq, burada həyat öz axarı ilə davam edir. 17 gün öncə baş verən təbii fəlakət yerli əhalini təşvişə salsa da, bu gün tamam başqa ab-hava hökm sürür. Zəlzələ nəticəsində qəzalı vəziyyətə düşən evlərin əksəriyyəti sökülərək yerində daha möhtəşəmi tikilir.**

Fevralın 7-də Şamaxıya səfər edib yerli sakinlərə dəstək olan, dar gündə hər zaman xalqının yanında olduğunu isbatlayan Prezident İlham Əliyevin zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı verdiyi tapşırıqlar uğurla icra olunmaqdadır.

### 200 qəzalı ev

Şamaxıda zəlzələnin yaratdığı fəsadlarla yerində tanış olan dövlət başçısı evləri qəzalı duruma düşmüş sakinlərə mənəvi cəhətdən böyük dəstək olmaqla yanaşı, onlar üçün yeni mənzillərin tikiləcəyini də söylədi.

Bakıya qayıdan kimi isə sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan Fövqəladə Hallar Nazirliyinə ilkin olaraq 2 milyon manat vəsait ayırdı. Fevralın 8-9-da ilkin mərhələdə müəyyən edilən qəzalı evlərdə söküntü işlərinə başlanıldı.

Bu gün sökülən evlərin yerində tikinti-quruculuq işlərinə başlanılıb. FHN tərəfindən yaradılan xüsusi komissiyanın rəhbəri Kamran Əliyev deyir ki, Şamaxı üzrə 12, Ağsu və İsmayıllı üzrə isə hərəsində iki olmaqla 4 komissiya fəaliyyətini davam etdirir. Artıq Şamaxı rayonu üzrə 200 qəzalı ev müəyyənləşdirilib. Rayonun mərkəzi küçələrində isə 20-dən çox ev tamamilə sökülüb yenidən tikilir.

### 9 bal gücündə zəlzələyə davamlı

Sakinlər üçün tikilən yeni mənzillər əvvəlkinin sahəsinə uyğun inşa edilir. Əgər köhnə evin otaqlarının ümumi sahəsi 90 kvadratmetrə qədər olubsa, yerində 2 otaqlı, 90-dan 130 kv.metrə qədər sahə üçün 3 otaqlı, 150 kv.metrdən çox olubsa, 4 otaqlı yeni mənzillər tikiləcək. Hamam kompleksi isə vətəndaşların istəyinə uyğun inşa olunur. Yəni ya mənzilin daxilində, ya da həyətdə tikilir. Yeni mənzillər 9 bal gücündə zəlzələyə davamlı olacaq.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov mütəmadi olaraq zəlzələ bölgəsinə gələrək rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədovla birgə qəzalı evlərə baxış keçirirlər. Sakinləri narahat edən bütün məsələlərə aydınlıq gətirilir. Yaradılan xüsusi komissiya fəaliyyətini davam etdirir və bütün müraciətlər araşdırılır.





### FHN qarlı-şaxtalı havada da iş başındadır

Qarlı hava şəraiti müəyyət çətinliklər yaratsa da, FHN-in əməkdaşları iş başındadırlar. Rayon mərkəzindəki Salman Mümtaz, Səttar Bəhlulzadə, Vidadi küçələrində sökülən evlərin yerində tikiləcək mənzillərin artıq kürsüsü hazırdır.

Ardı 5-ci səh.

# Prezident həmsədrləri qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədr İqor Popovu, ABŞ-dan olan həmsədr Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Azərbaycanın liderliyi ilə reallaşan növbəti layihə

**Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı bir daha təsdiqlədi ki, Avropa İttifaqı Azərbaycanın təşəbbüsləri ilə ərsəyə gələn bu enerji layihəsinə son dərəcə böyük maraq göstərir. ABŞ və Böyük Britaniyadan olan yüksək çinli rəsmilərin, bir sıra ölkələrin energetika nazirlərinin, müxtəlif qurumların təmsilçilərinin, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottingerin toplantıda iştirak etmək üçün Bakıya gəlmələri bunu təsdiqləyir.**

### Avropa İttifaqı və ABŞ-dan Azərbaycana dəstək

Son onilliklərdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünyada ən aktual müzakirə mövzusuna çevrilib. Təsdadüfi deyil ki, nəinki iqtisadi, hətta siyasi məzmunlu konfransların da gündəliyində yer alan başlıca müzakirə predmetlərindən biri enerji təhlükəsizliyi ilə bağlı olur. Xüsusən Qərb dünyası öz enerji təhlükəsizliyinin daha yüksək səviyyədə təmin olunmasına, bu məqsədlə yeni mənbələrdən Avropaya kəmərlərin çəkilməsinə ehtiyac duyur. Düzdür, son dövrlərdə bu məqsədlə müxtəlif təşəbbüslər ortaya atılsa da, onların hamısı siyasi və iqtisadi iradənin olmaması səbəbindən elə ideya olaraq qalıb.

Ardı 5-ci səh.

# BAĞIŞLA MƏNİ, ANA!

## Qarabağ uğrunda müharibənin başlanmasından 31 il keçir



Məgər övlad 26 ildə bir kərə anasının qəbrinə baş çəkməzmi?!

Məgər övlad 26 ildə bir kərə ana qəbrinin üstünü silib, ətrafının ot-alafını təmizləməzmi?!

Məgər övlad ona həyat verən, ömür boyu arxasınca sürünən, hər əzab-əziyyətinə qatlaşan, hər günahından keçən anasını düşmən əhatəsində yalqız buraxarmı?

Təkliyini özünə dərd eləmə, ana!

Axı şəhid balalarımız daim yaxınlıqdadırlar!

Gözünüzə görünməsələr də, daim qayğınıza qalırlar!

Bəlkə də bir-birinizi yaxşı tanımırsınız!

Amma qəriblikdə hamı bir-birinə hayan olur!

Xüsusən də vətəndə qərib qalanlar!

Vətəndə doğmalarının həsrətini çəkənlər!

Vətəndə övlad yolu gözləyənlər!

Bax: səh. 3

## *Ruslan AUŞEV:*

# "Heydər Əliyevin xatirəsini daim yad edirəm"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunuldu.

Ruslan Auşev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərindən məmnunluqla danışdı və ulu öndərin xatirəsini daim yad etdiyini bildirdi.

Prezident İlham Əliyev Ruslan Auşevin Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və onun ulu öndərin xatirəsi ilə bağlı dediyi xoş sözlərə görə təşəkkürünü bildirdi.

Ruslan Auşev Bakıda gördüyü inkişaf proseslərinin tədbir iştirakçılarında xoş təəssürat yaratdığını vurğuladı, onların bu tədbirdə iştirak etmək üçün böyük məmnuniyyətlə Bakıya gəldiklərini dedi.

## Ağdam rayonunun Kolqışlaq-Mirəşelli-Əhmədağalı-Çıraxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Kolqışlaq-Mirəşelli-Əhmədağalı-Çıraxlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 2,3 milyon (iki milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2019-cu il*

## Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əfqanıstanda müharibənin başa çatmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Əfqanıstan veteranlarına dövlət qayğısının artırılması, Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin maddi-texniki bazasının gücləndirilməsi, habelə Birliyin fəaliyyətinin təkmilləşdirilməsi üçün cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2019-cu il*

## Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği artırılaraq 2019-cu il martın 1-dən 300 manat müəyyən edilsin.

2. "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 244 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 962; 2018, №4, maddə 670) 1-ci hissəsində "220 (iki yüz iyirmi)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2019-cu il*

# Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov fevralın 21-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Baş nazir Novruz Məmmədov Dünya Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu bildirib. Əlaqələrin inkişafında yüksək səviyyəli görüşlərin mühüm rolu olduğunu vurğulayan Baş nazir bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşünü xatırladıb. Baş nazir bildirib ki, Dünya Bankı ilə Azərbaycan arasında kənd təsərrüfatı, təhsil, səhiyyə sahələrinin, məhkəmə sisteminin və digər sahələrin avtomatlaşdırılması, özünüməşğulluğun daha da inkişaf etdirilməsi üzrə layihələrə, əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparılır. Bu layihələrin həyata keçirilməsinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib: "Bu günə qədər Azərbaycan ilə Dünya Bankı arasında 50-yə yaxın layihə reallaşıb, 10-a yaxın layihə isə həyata keçirilməkdədir. Hesab edirəm ki, Sizin ölkəmizə səfərinizin, keçirilən səmərəli görüşlərin bu əməkdaşlığın genişləndirilməsi baxımından mühüm əhəmiyyəti var".



Novruz Məmmədovu Azərbaycan Respublikasının Baş naziri təyin olunması münasibətilə təbrik edən Mersi Tembon ölkəmizdə çox qısa müddət ərzində nail olunan inkişafdan məmnunluğunu bildirib. O, bu uğurların əldə olunmasında Azərbaycan dövlətinin və xalqının qətiyyətini xüsusi vurğulayıb və bunu təqdir etdiklərini deyib.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində infrastruktur layihələrinin icrasının dəstəklənməsinə, Azərbaycanda icbari tibbi sığorta sisteminin formalaşdırılmasına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan UNESCO-nun ən fəal üzvlərindən birinə çevrilib

Fevralın 21-də UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 25 ili tamam olur. Komissiyanın sədri, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov bununla əlaqədar AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Cənab nazir, məlum olduğu kimi, siz UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədrisiniz. Bu il Milli Komissiyanın yaradılmasının 25 ili tamam olur. Milli Komissiyanın yaranmasının tarixçəsi, əsas fəaliyyət istiqamətləri, UNESCO ilə uğurlu əməkdaşlıq və gələcək planlar barədə məlumat verməyinizi xahiş edirik.*

- UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası 1994-cü il fevralın 21-də ümummilli lider Heydər Əliyevin müvafiq sərəncamı ilə yaradılıb. Həmin sərəncamla Milli Komissiya Xarici İşlər Nazirliyi yanında fəaliyyətə başlayıb. 2005-ci il sentyabrın 15-dən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, Milli Komissiya Azərbaycan Respublikasının Prezidenti yanında statusu ilə fəaliyyətini davam etdirir.

Dövlət başçısının 2018-ci il 29 avqust tarixli sərəncamı ilə Milli Komissiyanın yeni tərkibi təsdiq olundu. Hazırda komissiyanın 17 üzvü var. Milli Komissiyanın iclaslarında komissiyanın cari fəaliyyəti və gələcək planları ətrafında fikir mübadiləsi aparılır. Milli Komissiyanın gündəlik fəaliyyəti komissiyanın daimi katibliyi tərəfindən həyata keçirilir.

Milli Komissiya aidiyyəti nazirliklərin, dövlət və ictimai təşkilatların UNESCO ilə elm, təhsil, mədəniyyət, informasiya və kommunikasiya sahələrində əməkdaşlığın həyata keçirilməsində əlaqələndirici rol oynayır, UNESCO-nun proqram və tədbirlərinin hazırlanmasında və reallaşdırılmasında Azərbaycan Respublikasının fəal iştirakını təmin edir, bu təşkilata üzv ölkələrin milli komissiyaları ilə əlaqələri inkişaf etdirir və ölkəmizin mənafeyinə xidmət edən müştərək proqramlarda və tədqiqat işlərində iştirak edir. Milli Komissiya yerli qurumların müvafiq layihələrinin həyata keçirilməsinə dəstək verir, bundan əlavə, xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizlə birgə tədbirlər həyata keçirir.

Bu il Milli Komissiyanın yaradılmasının 25 ilinin tamam olmasını nəzərə alaraq, ölkə daxilində və xaricində, o cümlədən UNESCO-nun baş qərargahında bir sıra tədbirlərin keçirilməsini planlaşdırırıq.

Vurğulamaq istərdim ki, Azərbaycan Respublikası UNESCO dəyərləri və prinsiplərinə sadiqdir və bu, UNESCO ilə səmərəli əməkdaşlıq münasibətlərimizlə təsdiqlənir.

Azərbaycan-UNESCO əlaqələrinin təməlinin qoyulmasında ümummilli lider Heydər Əliyevin böyük rolu olub. Hələ sovet dövründə ulu öndər UNESCO-nun Azərbaycan ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak edib.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra - 1992-ci il iyunun 3-də UNESCO-ya üzv oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-cü ilin dekabrında UNESCO-nun baş direktoru Federiko Mayorla keçirdiyi görüş UNESCO ilə uğurlu əməkdaşlıq münasibətlərinin inkişafına təkan verib.

Hazırda Azərbaycan ilə UNESCO arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.




Ölkəmizlə UNESCO arasında əlaqələrin inkişafında və genişlənməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın müstəsna xidmətləri olub. Xanım Mehriban Əliyevanın himayəsi ilə UNESCO çərçivəsində mədəni irsin qorunması, mədəniyyətlərarası dialoqun təşviqi, gender bərabərliyi, təhsilin inkişafı və digər sahələrdə əhəmiyyətli layihələr həyata keçirilib. Məhz xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycanın 2 maddi və 13 qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarında yer alıb.

*- Ölkəmiz UNESCO ilə əməkdaşlıq münasibətləri çərçivəsində bir sıra layihələri maliyyələşdirir. Bununla əlaqədar nə deyə bilərsiniz?*

- Bu əlaqələrə misal olaraq, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2013-cü ildə imzalanmış, UNESCO-Azərbaycan əməkdaşlığının genişlənməsində xüsusi rol oynayan "Azərbaycan hökuməti ilə UNESCO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi"ni göstərmək olar. Sazişə uyğun olaraq, Azərbaycan hökuməti tərəfindən ayrılmış maliyyə vəsaiti hesabına UNESCO-nun xətti ilə bir sıra Afrika ölkələrində (Uqanda, Keniya, Tanzaniya və Liberiyada) qızların təhsili, maarifləndirilməsi, gender bərabərliyi, Banqladeş və Qvatemalada davamlı inkişaf üzrə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı layihələr həyata keçirilib. Bu, heç şübhəsiz ki, beynəlxalq səviyyədə ölkəmizin nüfuzunun artmasına xidmət edir və Azərbaycanın yeni keyfiyyətdə - donor dövləti qismində UNESCO çərçivəsində müsbət imicinin daha da möhkəmlənməsinə imkan yaradır.

*- Təşkilatla əməkdaşlıq çərçivəsində son uğurlar barədə qısa məlumat verə bilərsinizmi?*

- 2018-ci il UNESCO çərçivəsində ölkəmizin bir sıra nəzərəçarpan uğurları ilə yadda qaldı. Ötən il iyunun 24-dən iyulun 4-dək Bəhreyn Krallığının paytaxtı Manama şəhərində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 42-ci sessiyası çərçivəsində komitənin növbəti sessiyasının 2019-cu ildə Bakıda keçirilməsinə dair qərar qəbul edildi və ölkəmiz komitənin sədri seçildi. Qeyd etmək istərdim ki, Ümumdünya İrs Komitəsinin sessiyası dünya mədəni irsinə töhfə verən ən nüfuzlu tədbirlərdən biri hesab olunur. Ümumdünya İrs Komitəsi tərəfindən dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və təbii irs nümunələrinə, ən dəyərli abidələrə dair qərarlar qəbul edilir.

Ölkəmizin əldə etdiyi digər bir uğur 2018-ci ilin iyununda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinə üzv seçilməyimiz oldu. Kəskin rəqabət şəraitində ölkəmizin apardığı geniş təbliğat-təşviqat kampaniyası nəticəsində Azərbaycan 90 səslə 7 namizəd arasında ən çox səs yığaraq komitədə iki vakant yerdən birinə üzv seçildi. Bu, heç şübhəsiz ki, ölkəmizin böyük nailiyyətidir və Azərbaycanın beynəlxalq arenada, o cümlədən UNESCO-dakı nüfuzunun göstəricisidir.

Bu komitə dünya xalqlarının qeyri-maddi mədəni irsinin mühafizəsi, irs nümunələrinin UNESCO-nun qeyri-maddi mədəni irs üzrə siyahılarına daxil edilməsi ilə bağlı qərarların qəbul olunduğu qurumdur.

Bundan əlavə, bildirmək istərdim ki, 2018-ci il noyabrın 26-dan dekabrın 1-dək Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında Azərbaycan tərəfinin təqdim etdiyi "Çövkən - ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı milli hesabat qəbul olundu. Eyni zamanda, "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyası Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına və Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adlı çoxmillətli nominasiyası UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi.

*- Ötən il "Bakı Prosesi"nin 10 ili tamam oldu. Bu proses çərçivəsində Azərbaycan ilə UNESCO arasında həyata keçirilən əməkdaşlıqla əlaqədar fikirlərinizi bilmək istərdik.*

- 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü olan "Bakı Prosesi"nin 10 ili tamam oldu. Bu əlamətdar hadisə il ərzində milli və beynəlxalq səviyyədə qeyd edildi.

"Bakı Prosesi" çərçivəsində keçirilən Mədəniyyətlərarası Dialoq Forumunun əsas tərəfdaşlarından biri də məhz UNESCO-dur. Forum qısa müddət ərzində mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platformaya çevrilib. Bu forum çərçivəsində UNESCO-nun müxtəlif tədbirləri təşkil olunur. Vurğulanmalıdır ki, UNESCO-nun baş direktoru BMT-yə təqdim etdiyi illik hesabatda "Bakı Prosesi"nin əhəmiyyətini və mədəniyyətlərarası dialoqun inkişafında Azərbaycanın rolunu xüsusi qeyd edir. Ötən il oktyabrın 25-26-da təşkil olunan VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Bakı Prosesi"nin 10 illiyinə həsr edilən plenar sessiya uğurla keçirildi. Qeyd olunanlar Azərbaycanın UNESCO üçün mədəniyyətlərarası dialoqun təşviqində çox dəyərli tərəfdaş olduğunu sübut edir.

*- Məlumdur ki, Ermənistanın yeritdiyi işğal siyasəti nəticəsində zəbt olunmuş ərazilərimizdə mədəni sərvətlərimiz dağıdılıb. Ermənistan tərəfi Azərbaycanın mədəni irs nümunələrinin mənimsənilməsi istiqamətində cəhdlərini davam etdirir. Bu məsələ ilə bağlı UNESCO çərçivəsində həyata keçirilən fəaliyyət barədə nə deyə bilərsiniz?*

- Qeyd etdiyiniz məsələlər Milli Komissiyanın fəaliyyətində əsas prioritet kimi daim diqqət mərkəzindədir. Azərbaycanın işğal olunmuş ərazilərində mədəni sərvətlərin dağıdılması məsələsi UNESCO rəsmiləri ilə müxtəlif səviyyələrdə keçirilən ikitərəfli görüşlərdə mütəmadi olaraq qaldırılır. Ermənistan tərəfindən Azərbaycan mədəni irs nümunələrinin mənimsənilməsi cəhdlərinin qarşısı qətiyyətlə alınır.

Milli sərvətlərimizin dağıdılması məsələsi, həmçinin UNESCO-nun aidiyyəti komitə iclaslarında və digər beynəlxalq tədbirlərdə gündəmə gətirilir. Çıxışlar zamanı ölkəmizin təbii, tarixi və mədəni sərvətlərinin vəhşicəsinə dağıdılması vurğulanır və bunun qarşısının alınması üçün müvafiq tədbirlərin görülməsinə çağırış edilir.

Bir az əvvəl qeyd etdiyim kimi, ötən il noyabrın 26-dan dekabrın 1-dək Mavriki Respublikasının paytaxtı Port-Luis şəhərində UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyası keçirildi. Sessiya zamanı 2013-cü ildə UNESCO-nun siyahısına daxil edilmiş "Çövkən - ənənəvi Qarabağ atüstü oyunu" faylı ilə bağlı Azərbaycan tərəfinin təqdim etdiyi milli hesabat qəbul olunub. Hesabatda Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və 7 ətraf rayonunun işğalı faktı və işğalın Azərbaycanın irsi üçün yaratdığı fəsadlar əks olunub.

Bundan əlavə, sessiya çərçivəsində "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" adlı nominasiyasının müzakirələri zamanı Ermənistan tərəfi komitədəki üzvlüyündən sui-istifadə edərək ölkəmizə qarşı çirkin kampaniya aparır, xalqımızın mədəni irsinin mənimsənilməsi iddiaları ilə çıxış edir, komitənin işini siyasiləşdirir və aqressiv davranışı ilə konvensiyanın məqsəd və prinsiplərinə ciddi xələl gətirirdi. Buna baxmayaraq, Azərbaycan tərəfindən aparılmış iş nəticəsində erməni tərəfinin təhrikçi cəhdləri iflasa uğradı, adıçəkilən nominasiyamız UNESCO-nun siyahısına daxil edildi.

Vurğulamaq istərdim ki, Azərbaycan artıq dörd çoxmillətli nominasiyanın ("Novruz bayramı", "Lavaş", "Kamança", "Dədə Qorqud") UNESCO siyahısına daxil edilməsinə nail olub. Regional əməkdaşlıqdan bəhs edən Ermənistanın heç bir çoxmillətli nominasiyası yoxdur. Bu, bir tərəfdən, Ermənistanın mədəni sahədə də regionda təcrid olunduğunun, digər tərəfdən isə, ölkəmizin UNESCO çərçivəsində regional əməkdaşlıqda əldə etdiyi uğurların göstəricisidir.

Ölkəmizin UNESCO çərçivəsində həyata keçirdiyi bu fəaliyyət, heç şübhəsiz ki, xalqımızın zəngin və çoxəsrlik milli irsinin mühafizəsinə və beynəlxalq səviyyədə təbliğinə xidmət edir. Erməni yalanlarının ifşa olunması, ermənilərin iddialarına son qoyulması istiqamətində səylər davam etdiriləcək.

## Qarabağ uğrunda müharibənin başlanmasından 31 il keçir

**Bağışla məni, ana, bağışla!**
**Gör nə zamandır səni tək qoymuşam!**
**Tək, tənha!**
**Nə qara bayramında qəbrini ziyarətə gəlirəm...**
**Nə anım günündə baş çəkirəm...**
**Nə də qəbrinin üstündə yasin oxutdururam...**





# BAĞIŞLA MƏNİ, ANA!

### Tənha qəbirlərə elegiya



Axı, sən öz balalarını heç zaman tək-tənha qoymazdın, ana, heç zaman!

Sən heç zaman bizim kimi olmamısan:

- *özün gecə sübhədək yatmayaraq körpələrini ağlamağa qoymazdın;*
- *əyin-başımızı təmiz saxlamaq üçün istirahətindən kəsib, az yuxu yatardın;*
- *bir dəfə səsimiz kal çıxanda işgücünü atıb dalımızca Bakıya gələrdin.*

Biz isə... nəinki övlad borcumuzu qaytarmırıq, heç sən elədiyinin mindəbirini sənə eləmirik.

*Görünür pis övladıq!*

*Görünür laqeydik!*

*Görünür cəsarətsiz və qorxağıq!*

Məgər övlad 26 ildə bir kərə anasının qəbrinə baş çəkməzmi?!

Məgər övlad 26 ildə bir kərə ana qəbrinin üstünü silib, ətrafının ot-alafını təmizləməzmi?!

Məgər övlad ona həyat verən, ömür boyu arxasınca sürünən, hər əzab-əziyyətinə qatlaşan, hər günahından keçən anasını düşmən əhatəsində yalqız buraxarmı?

**Bizi ürəyində nə qədər qınasan, haqqın var, ana!**

**Bizi laqeyd, biganə saysan, haqqın var, ana!**

**Bizi qorxaqlıqda ittiham eləsən, haqqın var, ana!**

❖ ❖ ❖

Əlimizdən nə gəlir...

Gözləyirik ki, görək düşmən nə vaxt yumşalıb sülhə gələcək!

Gözləyirik ki, görək nə zaman beynəlxalq təşkilatlar ikili standartlardan əl çəkəcək!

Gözləyirik ki, görən nə zaman BMT qeyrətə gələrək dörd qətnaməsini yerinə yetirəcək!

**Gözləyirik ki...**

**Sən isə bizim yolumuzu gözləyirsən, ana!**

**Səbirlə gözləyirsən!**

**Dözərək gözləyirsən!**

**Ümidini üzmədən gözləyirsən!**

*Birdən bizim də ömrümüz başa çatdı, səninlə görüşə bilmədən getdik...*

*Qəbrimiz qəbrinin yanında qazılmadı?!*

*Bəs, onda necə olsun, ana?!*

Onda üşüyəndə üstümüzü kim basdırar?!

Onda səksənəndə "qorxma, bala, yanındayam!" sözünü kim deyər bizə, ana!?

❖ ❖ ❖

**Bilirsən isti qucağın üçün necə darıxmışıq?!**

**Bilirsən mehriban pıçıltıların üçün necə qəribsəmişik!**

**Axı, heç zaman bu qədər müddətdə ayrı qalmamışdıq səndən, ana!**

Sən yerindən tərpənə bilmirsən, bəs, bizə nə olub, ana!

Səmimiyyətimizi gözəmi gətirdilər?

Mehribanlığımızı əlimizdənmi aldılar?

Kim ananı balaya həsrət qoyub?

Əvvəl bu dünyada, sonra...

*Görəsən, biz də ruha çevriləndə təmas xəttini, minalanmış sahələri keçə biləcəyikmi?!*

*Görəsən, ruh kimi qəbrini ziyarətə gəlsək, bizi yenə əlisilahlı düşmən qorxudacaq?*

Apreldə az qala gəlmişdik...

Yenə qoymadılar!

❖ ❖ ❖

Zaman yaman sürətlə dəyişir, ana!

Havanın müharibə qoxusu get-gedə artır!

Daha heç kimdən qorxmuruq, artıq hər şeyimiz var: gücümüz də, siyasətimiz də, silahımız da, hələ desən güclü iqtisadiyyatımız da!

**Onu da bil ki, bu həsrətin qisasını düşməndə heç zaman qoymayacağıq!**

**Xaraba qalmış yurd yerlərimizin, dağıdılmış qəbiristanlıqların əvəzini yüz qat artıqlaması ilə çıxacağıq!**

**Düşməni işğal etdiyi torpağa qarışdırıb palçığa çevirəcəyik!**

Bunu qarşında yalandan lovğalanmaq üçün demirik, ana!

*Zaman gözləyirik!*

*Məqam gözləyirik!*

*Həm də görüş gününə dayanmadan hazırlaşırıq!*

❖ ❖ ❖

Təkliyini özünə dərd eləmə, ana!

Axı, şəhid balalarımız daim yaxınlıqdadırlar!

Gözünüzə görünməsələr də, daim qayğınıza qalırlar!

Bəlkə də bir-birinizi yaxşı tanımırsınız!

Amma qəriblikdə hamı bir-birinə hayan olur!

Xüsusən də vətəndə qərib qalanlar!

Vətəndə doğmalarının həsrətini çəkənlər!

Vətəndə övlad yolu gözləyənlər!

❖ ❖ ❖

**Vallah gələcəyik, ana!**

**Özü də mütləq gələcəyik!**

Sən Allah, bizi qorxaq hesab eləmə!

Sən Allah, bizi laqeydlikdə qınama!

Sən Allah, çox darıxıb, özünü üzmə, ana!

Axı, biz də sizi istəyirik!

Axı, biz də həsrət çəkirik!

❖ ❖ ❖

*And olsun Allaha, bizim üçün də çox çətindir, ana!*

*Çox!*

*Lap çox!*

*Bu da bir tale sınağıdır!*

*Bu da Allahın bizə verdiyi bir cəzadır!*

Şəhid balalarımızla başınızı birtəhər qarışdırın, ana!

Müvəqqəti ayrılığı özünüzə dərd etməyin, ana!

Gözləyin, gələcəyik!

Səbir edin, gələcəyik!

Həm də səbirlə dözüm, görünür, Tanrının analara bir qismətidir!

**Bəxtiyar SADIQOV**

---

## Milli Məclisdə "Könüllülər Parlamenti - Azərbaycan, 2019" layihəsinin bağlanış mərasimi olub

Milli Məclis və "ASAN Könüllüləri" Təşkilatının birgə əməkdaşlığı ilə "Könüllülər Parlamenti-Azərbaycan, 2019" layihəsinin bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, toplantının əvvəlində Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirin moderatoru "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabbarova bildirib ki, könüllülər hərəkatı ölkəmizdə 17 mindən çox gənci birləşdirir. Təşkilat 500-dən çox layihə həyata keçirib və 50 minədək gənci əhatə edib. Bu layihə də təşkilat üçün mühüm əhəmiyyətə malikdir.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev deyib ki, bu layihənin həyata keçirilməsi birgə səylərin nəticəsidir. Milli Məclisin Sədri Oqtay Əsədovun göstərişinə əsasən tədbir ən yüksək səviyyədə təşkil olunub və keçirilib. Gənclər Milli Məclisdə olduqları müddətdə komitə sədrləri və komitə sədrlərinin müavinləri ilə bir sıra görüşlər keçirib, maraqlı müzakirələr aparıblar. Gənclər bizim gələcəyimizdir. İnanırıq ki, gənclərimizin Vətənə xidmət istəyi bundan sonra daha da güclənəcək. Azərbaycanın belə gəncliyi varsa, ölkəmiz daim irəli gedəcək, daha böyük zirvələri fəth edəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev layihənin əhəmiyyətini yüksək qiymətləndirib və onun yüksək səviyyədə keçirilməsinə görə Milli Məclisin rəhbərliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, bu layihə gənclərimizə müəyyən təcrübə əldə etmək üçün böyük dəstəkdir. Bu, onlara deputat olmağın məsuliyyətini dərk edərək həyatda öz yollarını seçməyə kömək edəcək.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev diqqətə çatdırıb ki, layihə çərçivəsində gənclər qanunvericilik prosesi ilə yaxından tanış olublar. Belə layihələr gənclərin liderlik qabiliyyətinin önə çəkilməsinə və onların şəxsiyyət kimi formalaşmasına dəyərli töhfədir. Ülvi Quliyev gənclərimizi sosial şəbəkələrdə fəal olmağa, Dağlıq Qarabağ və Xocalı həqiqətlərini dünyaya çatdırmağa səsləyib.

Tədbirdə gənclər və idman nazirinin müavini İntiqam Babayev, Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov ölkəmizdə həyata keçirilən gənclər siyasəti, gənclərin ölkə həyatında iştirakçılığının artırılması, könüllülük fəaliyyətinin əhəmiyyəti barədə fikirlərini bildiriblər.

Sonra fəal gənclər və Milli Məclis Aparatının bu layihənin həyata keçirilməsində iştirak etmiş əməkdaşları təltif ediliblər.

## "Könüllülər Parlamenti"nin plenar iclası keçirilib

Fevralın 21-də Milli Məclisdə "Könüllülər Parlamenti"nin plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, parlamentin sədri Kamran Əliyev iclası açaraq Milli Məclisin və "ASAN Könüllüləri" Təşkilatının birgə əməkdaşlığı ilə 4 gün davam edən layihə çərçivəsində "Könüllülər Parlamenti"nin komitə iclaslarının keçirildiyini deyib.

Bu iclaslarda müxtəlifyönümlü məsələləri əhatə edən bir sıra qanun layihələri hazırlanıb, onların müzakirəsi aparılıb, təkliflər irəli sürülüb.

Plenar iclasda gündəliyə daxil edilmiş qanun layihələrini komitə sədrləri Nicat Şükürlü, Könül Xələfzadə, Namiq Ağayev, Elvin Əhmədzadə, Vüsal İsgəndərov, Könül Sərkərnamazova, Müşfiq Bağırzadə təqdim ediblər.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən "Nağdsız hesablaşmalar haqqında" qanuna bir sıra dəyişikliklər təklif edilib. Müzakirələr zamanı dəyişikliklərə müsbət münasibət bildirilib və qanun layihəsi qəbul olunub.

Gənclər və idman komitəsinin hazırladığı "Xüsusi qayğıya ehtiyacı olan gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi haqqında" qanun layihəsi ətrafında geniş fikir mübadiləsi aparılıb və qanun qəbul edilib.

Aqrar siyasət komitəsində hazırlanan "Aqrar islahatın əsasları haqqında" qanuna edilən dəyişikliklər də məqbul sayılıb və qəbul olunub.

Mədəniyyət komitəsinin hazırladığı "Muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunda da bir sıra aktual məsələlər öz əksini tapıb. Könüllü deputatlar sənədi təsdiq ediblər.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin hazırladığı "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" qanuna dəyişikliklərin edilməsi barədə, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin təqdim etdiyi "Təbii ehtiyatlar və enerji resurslarından istifadəsi haqqında", müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində hazırlanan "Kibertəhlükəsizlik haqqında" qanun layihələrinin isə daha da təkmilləşdirilməsi tövsiyə olunub.

"Könüllülər Parlamenti"nin sədri iclasa yekun vuraraq gənclərin təşəbbüsü ilə həyata keçirilən bu layihənin əhəmiyyəti barədə danışıb, tədbirin müvəffəqiyyətlə başa çatması münasibətilə iştirakçıları təbrik edib.

## Azərbaycan Respublikası Gənclər Fondunun Müşahidə Şurasının iclası keçirilib



Bakı Gənclər Mərkəzində Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının 2019-cu ildə ilk iclası keçirilib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, iclasda Müşahidə Şurasının gündəliyi müzakirə edilib və 2018-ci ildə görülən işlər barədə hesabat təqdim olunub.

Sonra Gənclər Fondunun 2019-cu il üçün fəaliyyət planı müzakirə olunaraq təsdiqlənib. Həmçinin Gənclər Fondunun maddi-texniki bazası əsasında yeni fəaliyyətə başlayan Gənclərin Karyera və İnkişaf Mərkəzinin iş planı və strukturu müzakirə olunub.

İclasda Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Müşahidə Şurasının üzvləri - gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, mədəniyyət nazirinin müavini Rafiq Bayramov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli, "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin İdarə Heyətinin sədri Seymur Orucov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin icraçı direktorunun müavini Murad Ağabəyli və "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri Seymur Vəliyev iştirak ediblər.

## Estoniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Xocalı soyqırımının ildönümünə dair bəyanat qəbul edib

Estoniya parlamentinin - Riyqikoqunun Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupu Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı bəyanat qəbul edib.

AZƏRTAC xəbər verir ki, qrupun üzvləri Azərbaycan xalqına Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı dərin hüznlə başsağlığı veriblər. Bəyanatda bildirilir ki, Azərbaycan xalqı Xocalı soyqırımında 600-dən çox günahsız vətəndaşını itirib. Onların arasında çoxsaylı uşaq, qadın və yaşlı insan olub və biz bu acını bölüşürük. Biz dinc Azərbaycan xalqına qarşı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş insanlığa zidd bu vəhşiliyin günahkarlarını qətiyyətlə pisləyirik. Bu vəhşilik aktının günahkarları mütləq cəzalarını amalıdırlar.

Biz ərazi bütövlüyünü bərpa etməsi üçün Azərbaycan Respublikasının səylərinə dəstək ifadə edirik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli bütün regionun inkişafı üçün vacib amildir.

## Qış məktəbinin iştirakçıları Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində olublar

Fevralın 21-də (BBMM) "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olublar.



AZƏRTAC xəbər verir ki, dünyanın 16 ölkəsinin aparıcı universitetlərində təhsil alan tələbələrin cəlb olunduğu layihənin iştirakçıları BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovla görüşüblər.

Ölkəmizdə multikultural ənənələrin qorunub saxlanması, təbliği ilə bağlı mühüm layihələrin həyata keçirildiyini deyən K.Abdullayev Azərbaycan dövlətinin multikulturalizm siyasətindən və bu sahədə əldə olunan nailiyyətlərdən söz açıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Beynəlxalq multikulturalizm qış və yay məktəblərinin keçirildiyini deyən K.Abdullayev bildirib ki, multikultural ənənələrin qorunması və inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindəndir. Dövlətimizin qarşıya qoyduğu hədəf kimi bu istiqamətdə mühüm layihələr həyata keçirilir, azərbaycanlı tələbə gənclərlə xarici həmkarları arasında sıx əlaqələrin və səmimi dostluq münasibətlərinin qurulmasında mühüm addımlar atılır.

Qeyd olunub ki, ildə iki dəfə təşkil edilən beynəlxalq multikulturalizm qış və yay məktəblərinin məqsədi Azərbaycan multikulturalizmini öyrənən tələbələrin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunduğu ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Almaniya, İtaliya, Portuqaliya, İndoneziya, Rusiya, Gürcüstan və digər xarici ölkələrdəki universitetlərdə BBMM tərəfindən Azərbaycan multikulturalizmi fənninin tədris olunduğunu söyləyən K.Abdullayev bildirib ki, Azərbaycan dilinin, mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, ictimai-siyasi vəziyyətinin, ölkəmizlə bağlı bütün həqiqətlərin öyrənilməsində bu fənnin əhəmiyyəti olduqca böyükdür. Daha sonra bu universitetlərin tələbələri Azərbaycandakı multikultural mühitlə tanış olmaq məqsədilə ölkəmizə dəvət edilir və səkkizinci dəfədir keçirilən multikulturalizm məktəbinin təşkil olunması bunun əyani sübutudur.

K.Abdullayev deyib: "Bizim məqsədimiz odur ki, azərbaycanlı və xarici gənclər arasında sıx əlaqələr qış və yay məktəbləri başa çatdıqdan sonra da davam etsin. Ümidvaram ki, bu münasibətlər və səmimi dostluq əlaqələri bundan sonra da davam edəcək. Arzu edərdim ki, siz gənclər mənim Vətənim Azərbaycanı da öz ölkəniz kimi sevəsiniz. Qış və yay məktəblərinin iştirakçıları gələcəkdə Azərbaycanla bağlı əlaqələrini bizim mərkəz vasitəsilə qura bilərlər".

Yay və qış məktəblərində iştirak edən tələbələrin mərkəzin nəzdində "Azərbaycanın gənc dostları klubu"nu yaratdıqlarını deyən BBMM-in Himayəçilər Şurasının sədri gənclərə həmin kluba üzv olmağı arzulayıb.

Tədbirdə çıxış edən Etibar Nəcəfov bildirib ki, Azərbaycanda keçirilən çoxlu beynəlxalq tədbirlər multikulturalizmdən, tolerantlıq ənənələrinin inkişafından xəbər verir və ölkəmizdə bu sahəyə böyük diqqət ayrılır. O, VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin proqramı, bağlanış mərasimi barədə məlumat verib, səfər müddətində iştirakçılarla keçirilən görüşlərdən söz açıb.

Yunanıstan, Braziliya, Bosniya və Herseqovina, İspaniya, Nepal, Gürcüstan, Afrika, Serbiya, Yaponiya və digər ölkələrdən olan iştirakçılar Qış məktəbinin proqramından və onlar üçün yaradılan şəraitdən razı qaldıqlarını söyləyib, Azərbaycan hökumətinə, BBMM-ə minnətdarlıqlarını bildiriblər. Səfər çərçivəsində olduqları məkanlardan xoş təəssüratlarla ayrılan qonaqlar xalqımızın qonaqpərvərliyini xüsusi qeyd ediblər.

Sonra Qış məktəbinin iştirakçılarının sualları cavablandırılıb.

Qeyd edək ki, Qış məktəbində Azərbaycan, Gürcüstan, Çexiya, Almaniya, Serbiya, Hindistan, Bosniya və Herseqovina, Avstriya, Yaponiya, İspaniya, Tacikistan, Yunanıstan, Portuqaliya, Rusiya, Bolqarıstan, San Tome və Prinsipi Demokratik Respublikası, Braziliya kimi ölkələrin tələbələri iştirak edirlər. Qış məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhval-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr oxunub.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi Qafqaz Müsəlmanları İdarəsində yad edilib






Fevralın 21-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı tədbir təşkil edilib.

AZƏRTAC xəbər verir ki, müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlanan tədbirdə QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı və onun başvermə səbəbləri, şəhərin işğalı zamanı dinc əhaliyə qarşı törədilmiş genişmiqyaslı qanlı hərbi cinayət barədə ətraflı məlumat verib. Bildirilib ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı birləşmələri Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini yerlə-yeksan edib, dinc sakinləri məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktını törədiblər. Erməni vandalları işğal etdikləri ərazilərimizdə bütün maddi-mənəvi abidələrimizi yerlə-yeksan ediblər. Erməni işğalçıları bu gün də atəşkəsi mütəmadi olaraq pozur, dinc əhalini atəşə tuturlar.

QMİ sədri qeyd edib ki, bütün dünyanın gözü qarşısında baş verməsinə baxmayaraq, bu tarixi faciəyə dünya birliyi hələ də lazımi siyasi qiymət verməyib.

A.Paşazadə qeyd edib ki, dövlətimiz tərəfindən qaçqın və məcburi köçkün ailələrinə, o cümlədən Xocalı faciəsi qurbanlarının ailələrinə hər zaman diqqət və qayğı göstərilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib ki, xalqımız Xocalı faciəsini heç zaman unutmamalıdır. Çünki Xocalıda törədilmiş faciə insanlıq əleyhinə cinayətdir. Bu faciəni törədənlər yaşından, harada olmasından asılı olmayaraq cinayət məsuliyyətinə cəlb edilməlidir.

Komitə sədri qeyd edib ki, Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında çoxsaylı işlər görülüb və hazırda da bu işlər davam etdirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bildirib ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etmək siyasətini yeridir. Lakin bu yol tükənəndə Azərbaycan dövlətinin məsələni hərbi yolla həll etmək ixtiyarı var. Buna ölkəmizin istər siyasi, istərsə də hərbi gücü çatır.

Xocalı faciəsinin dünya ictimaiyyətinə tanıdılması istiqamətində görülən işlərlə bağlı danışan R.Rzayev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasını xatırladıb. Qeyd edib ki, bu kampaniya çərçivəsində görülən işlərin nəticəsində artıq bir çox ölkələr Xocalı soyqırımını tanıyır.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, deputatlar Flora Qasımova, Bəxtiyar Əliyev, Elman Məmmədov, Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev və digər çıxış edənlər bildiriblər ki, insanlıq əleyhinə cinayət olan Xocalı soyqırımını törədənlər ədalət qarşısında cavab verməlidirlər. Bildirib ki, ümummilli lider Heydər Əliyev ilk dəfə Xocalı soyqırımının əsl mahiyyətini açıqlayıb, hələ 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib. Dövlət başçısı İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasının, Azərbaycanın işğal edilmiş torpaqlarından erməni silahlı qüvvələrinin çıxarılmasının zəruriliyini daim qətiyyətlə vurğulayır, soyqırımı cinayətini törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının vacibliyini bəyan edir.

Tədbirdə Xocalı faciəsi ilə bağlı dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara müraciət qəbul edilib.

# Azərbaycanın din xadimləri Xocalı soyqırımının ildönümü ilə əlaqədar dünya dini liderlərinə, beynəlxalq təşkilatlara müraciət ediblər

Fevralın 21-də Azərbaycanın dini liderləri Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar dünya dini liderlərinə və parlamentlərinə, BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ediblər.

AZƏRTAC xəbər verir ki, müraciəti Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Azərbaycan arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri Melih Yevdayev imzalayıblar.

Müraciətdə deyilir:

*O Bir Olan Yaradanın adı ilə! Biz, milyonlarla azərbaycanlının iradəsini ifadə edərək, Azərbaycanın Qarabağ bölgəsində yerləşən Xocalıda törədilmiş soyqırımının 27-ci ildönümü ərəfəsində dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün dünya ictimaiyyətinə bir daha müraciət edirik.*

*Azərbaycan xalqının qan yaddaşında həkk olunmuş tarixi fakt ondan ibarətdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları öz havadarlarının köməyi ilə Xocalı şəhərinə qəfil silahlı basqın edib və oranın dinc, silahsız əhalisinə qarşı amansız kütləvi qırğın törədib. Azərbaycanın Xocalı şəhərində həmin gecə erməni silahlı quldurları tərəfindən qocalar, uşaqlar, hamilə qadınlar da daxil olmaqla 613 nəfər mülki əhali xüsusi qəddarlıqla qətlə yetirilib. Xocalı şəhəri yerlə-yeksan edilib, əhalinin 150 nəfəri itkin düşüb, 1275 nəfər əsir götürülərək ağır işgəncələrə məruz qalıb, vəhşicəsinə qətlə yetirilmiş dinc sakinlərin meyitlərinin üzərində ağlasığmaz təhqiramiz hərəkətlər edilib.*

*Beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn ən ağır cinayətlərdəndir. Mahiyyəti etibarilə, Xocalı faciəsi Holokost, Hernika, Xatın soyqırımları kimi insanlığa qarşı törədilmiş cinayətlərlə eyni qəbildəndir. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan xalqı öz doğma torpaqlarında etnik təmizləməyə, fiziki və mənəvi terrora məruz qalıb, erməni ekstremistləri ərazimizin 20 faizini işğal edib, bir milyondan artıq azərbaycanlını doğma yurdlarından didərgin salıb, zəbt etdikləri Qarabağ torpaqlarında vandalizm aktları həyata keçirərək tarixi, dini və mədəniyyət abidələrimizi məhv ediblər. Xocalıda məqsədyönlü soyqırımı aktı isə erməni vəhşiliklərinin kulminasiya nöqtəsidir.*

*İyirmi yeddi il müddət keçməsinə baxmayaraq, erməni terrorçuları törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsinin tələbləri bu günədək yerinə yetirilməyib. Azərbaycanın beynəlxalq ictimaiyyətə mütəmadi müraciətlərinə obyektiv yanaşan dünyanın bir sıra dövlətləri və beynəlxalq təşkilatlar Xocalı soyqırımını tanısa da, təəssüf ki, bu dəhşətli cinayətə etinasız yanaşanlar da mövcuddur.*

*Bu gün dünyada baş verən zorakılıq halları, terrorizm və ekstremizm kimi cinayətlərin təməlində bəzi dövlətlərin, təşkilatların və dini liderlərin problemlərə münasibətindəki ikili standartlar, rasizm, antisemitizm, ksenofobiya, islamofobiya kimi təhlükəli meyillər dayanır. Bu yanaşma səbəbindən törədilən qətliamlar, o cümlədən Xocalı faciəsi layiqli qiymətini almadıqca, yeni-yeni bəşəri cinayətlərə yol açılır, dünyanın müxtəlif bölgələrində soyqırımlarının təkrarlanmasına, terror, ekstremizm, separatçılıq üçün zəmin yaranır. Çox böyük təəssüf doğuran məqamdır ki, bəzi dövlətlər real tarixi soyqırımlarının deyil, saxta soyqırımı iddialarının tanınması yönündə səylərini əsirgəmirlər. Beynəlxalq müstəvidə tarixi faktlara əsaslanmayan hadisələrin qərəzli şəkildə siyasiləşdirilərək haqsız iddialara yol açması yönündə meyillər bizi narahat edir. Belə təəssübkeşlik heç bir vəchlə qəbul oluna bilməz!*

*Azərbaycanın üzləşdiyi bu təcavüz və onun nəticəsində bir milyonluq qaçqın və məcburi köçkün probleminə biganə münasibət bəslənməsinin, soydaşlarımızın erməni ekstremistləri tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmasının hesabının sorulmaması nəticəsində erməni tərəfi təxribatlarından nəinki əl çəkmir, öz dədə-baba yurdlarında uyuyan qohumlarının qəbirini ziyarət edən vətəndaşlarımızı əsir, girov götürərək onlara qarşı işgəncələr tətbiq edir, meyitlərin qaytarılması məsələsində belə beynəlxalq konvensiyalara əməl etməkdən boyun qaçırır. Xocalı qətliamında əli olanların tarixin mühakiməsindən boyun qaçıra bilməyəcəkləri məlumdur və bunun əlamətləri artıq göz qabağındadır. Xocalı canilərinin soyqırımı cinayətinə görə beynəlxalq tribunala çıxarılacağı gün uzaqda deyil, inşallah!*

*Biz, Azərbaycanda yaşayan müxtəlif konfessiyalardan olan din xadimləri Azərbaycanın dövlət rəhbərinin ölkəmizin ərazi bütövlüyünün bərpası yönündə səylərinin uğurla nəticələnməsinə inanır, bunun üçün dualar edirik. Biz Vətənimizin ayrılmaz hissəsi olan Qarabağda torpaqlarımızın azad olması uğrunda həlak olmuş bütün şəhidlərin, o cümlədən Xocalı şəhidlərinin əziz xatirəsini daim uca tutur, onların ruhlarına Allahdan rəhmət diləyirik. Biz, din xadimləri bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyir, Dağlıq Qarabağda beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə ədalətin bərqərarı, qaçqın və məcburi köçkün soydaşlarımızın öz doğma torpaqlarına qayıtması üçün dualar edir, səylərimizi əsirgəmirik. Bu məramla dünyanın dini liderlərinə, parlamentlərə, beynəlxalq təşkilatlara və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə bir daha müraciət edərək, onları Azərbaycan xalqına qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial siyasi, hüquqi qiymət verməyə, Xocalıda törədilən cinayəti soyqırımı aktı kimi tanımağa çağırırıq.*

*Qoy Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqda yardımçı olsun! Amin!".*

# Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə təntənəli mərasim keçirilib











Fevralın 21-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Silahlı Qüvvələrin nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, veteranlar və əcnəbi qonaqlar iştirak ediblər.

Tədbirdə ümummilli lider Heydər Əliyevin, Əfqanıstan müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov çıxış edərək bildirib ki, digər müharibələrdə olduğu kimi, Əfqanıstan müharibəsində döyüşmüş azərbaycanlılar da çoxsaylı qəhrəmanlıq nümunələri göstəriblər. Sovet qoşunlarının tərkibində 9 mindən artıq azərbaycanlı bu müharibədə iştirak edib. Onlardan 208 nəfər həlak olub, 420 nəfər əlil olub, 7 nəfər isə itkin düşüb. Təsadüfi deyil ki, "Qırmızı Döyüş Bayrağı" ordeni ilə iki dəfə təltif olunan dörd döyüşçüdən biri azərbaycanlıdır. Həmçinin bir həmyerlimiz "Lenin" və "Qırmızı ulduz" ordeni, dörd nəfər iki dəfə "Qırmızı ulduz" ordeni ilə təltif olunub.

Xidmət rəisi deyib ki, bu müharibədə zəngin döyüş təcrübəsi toplamış azərbaycanlılar 1988-ci ildən 1994-cü ilədək Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda fəal iştirak ediblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdikləri fədakarlığa və şücaətə görə 17 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 36 nəfər "Azərbaycan bayrağı" ordeninə, müxtəlif dövlət təltiflərinə və medallara, həmçinin bir neçə hərbi qulluqçu general ali rütbəsinə layiq görülüb. Onların bir qismi döyüşlərdə həlak olub, itkin düşüb və ya sonradan vəfat ediblər.

Bu gün ölkəmizdə yeddi minə yaxın Əfqanıstan müharibəsi veteranının olduğunu vurğulayan Xidmət rəisi onların cəmiyyət həyatında fəal iştirak etdiklərini, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işinə və hərbi hazırlığına mühüm töhfələr verdiklərini deyib. Xüsusi qeyd olunub ki, xalqımızın ümummilli lideri Heydər Əliyev də Əfqanıstan müharibəsi iştirakçılarına daim diqqət və qayğı göstərib. Ulu öndərin Əfqanıstan müharibəsinin iştirakçıları ilə görüşləri, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncamlar dahi rəhbərin bu qəbildən olan şəxslərə diqqət və qayğısının təzahürüdür. Əfqanıstan müharibəsinin veteranları və əlilləri Azərbaycanda müharibə iştirakçıları üçün nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə hüququna malikdirlər. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də veteranlara, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarına yüksək diqqət və qayğı göstərir.

MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin işləri üzrə komitənin və "Döyüş Qardaşlığı" Beynəlxalq veteranlar təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant **Ruslan Auşev** bildirib ki, başa çatmasından 30 il keçməsinə baxmayaraq, Əfqanıstan müharibəsi həyatımızın unudulmaz mərhələsi kimi yadda qalıb. Bu müharibə bizim üçün böyük həyat dərsi, fədakarlıq dövrü idi.

Azərbaycanda Əfqanıstan müharibəsi veteranlarına göstərilən hərtərəfli diqqət və qayğıdan məmnunluqla söz açan R.Auşev sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı ölkəmizdə keçirilən bu tədbirin əhəmiyyətini yüksək qiymətləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini **Ərəstun Mehdiyev** Əfqanıstan müharibəsinin başa çatmasının 30-cu ildönümü münasibətilə veteranları təbrik edərək bildirib ki, həmin müharibənin iştirakçıları qanlı döyüşlərdə əsl fədakarlıq göstərərək, üzərlərinə düşən məsul vəzifəni layiqincə yerinə yetiriblər. Həmin müharibədən qayıdan azərbaycanlı döyüşçülər dinc həyata başlamaq istəsələr də, təəssüf ki, yeni cəbhədə döyüşməli oldular. Əfqanıstan müharibəsinin azərbaycanlı veteranları doğma Vətənimizin ərazi bütövlüyü uğrunda Ermənistan silahlı qüvvələrinə qarşı vuruşmaq məcburiyyətində qaldılar. Torpaqlarımız uğrunda döyüşlərə ön sıralarda gedən igid döyüşçülər məhz Əfqanıstan cəbhəsinin odlu-alovlu yolunu keçmiş veteranlar idi.

Əfqanıstan müharibəsinin veteranlarının bu gün ləyaqətli vətəndaşlar kimi Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etdiklərini vurğulayan Prezident Administrasiyasının şöbə müdirinin müavini deyib ki, bu müharibənin iştirakçıları istər Azərbaycanda, istərsə də postsovet məkanında baş verən münaqişələrlə bağlı da obyektiv və qəti mövqe nümayiş etdirməlidirlər. Bu münaqişələrin aradan qaldırılması istiqamətində bütün veteranların, o cümlədən beynəlxalq təşkilatların rolu, mövqeyi qəti və aydın olmalıdır, onlar bu işə fəal töhfə verməlidirlər. Əgər bu gün Azərbaycan təcavüzə məruz qalıbsa, Ermənistan Azərbaycanın ərazilərini işğal edərək, bir milyondan çox vətəndaşımızı qaçqın və məcburi köçkün vəziyyətinə salıbsa bu təcavüzə obyektiv qiymət verilməli, işğalçı ölkə qınanmalı, beynəlxalq səviyyədə layiqli cəzasını almalıdır. Biz bu məsələyə qiymət verilməsində tanınmış ictimai xadimlər kimi müharibə veteranlarının, o cümlədən vaxtilə Əfqanıstan müharibəsində iştirak etmiş şəxslərin fəallıq göstərəcəklərini gözləyirik.

Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə, veteranlara daim qayğı göstərdiyini, onların sosial-məişət problemlərinin həllini diqqətdə saxladığını vurğulayan Ə.Mehdiyev bildirib: "Bu tədbirin keçirildiyi vaxt Prezident İlham Əliyev bir fərman və bir sərəncam imzalayıb. Fərman Əfqanıstan müharibəsində həlak olan və itkin düşən hərbi qulluqçuların ailə üzvlərinə verilən Prezident təqaüdünün məbləğinin artırılması ilə bağlıdır. Sərəncam isə Azərbaycan Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin fəaliyyətinin gücləndirilməsi məqsədilə bu quruma Prezidentin Ehtiyat Fondundan bir milyon manat vəsaitin ayrılması haqqındadır. Bu sərəncamlar Azərbaycan Prezidentinin Əfqanıstan müharibəsi veteranlarına ali diqqət və qayğısının daha bir təzahürüdür. Bu həmçinin bir daha təsdiq etdi ki, Vətəni, xalqı üçün xidmət göstərən insanlara diqqət bundan sonra da davam etdiriləcək".

Veteranlarımızın, o cümlədən Əfqanıstan müharibəsi iştirakçılarının bu gün də Azərbaycanda mühüm vəzifələr yerinə yetirdiklərini diqqətə çatdıran Prezident Administrasiyasının rəsmisi bildirib ki, onlar gənc nəslin hərbi-vətənpərvərlik ruhunda yetişməsində, dövlətimizin sosial-iqtisadi inkişafında, Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun artırılmasında daim fəallıqları ilə seçilirlər.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, general-leytenant **Kərim Vəliyev** müdafiə naziri, general-polkovnik Zakir Həsənovun tədbir iştirakçılarına və Əfqanıstan müharibəsi veteranlarına ünvanlanan təbrik məktubunu oxuyub.

Əfqanıstan müharibəsinin iştirakçısı, iki dəfə "Qırmızı Döyüş Bayrağı" ordeni ilə təltif olunmuş **Şakir Əhmədov** xatirələrini bölüşüb, ölkəmizdə onlara göstərilən yüksək diqqət və qayğıdan danışıb. O, Azərbaycanda gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi işində veteranların daim fəal iştirak etdiklərini vurğulayıb. Ş.Əhmədov Əfqanıstan müharibəsi veteranlarının torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə daim hazır olduqlarını bildirib.

Çıxışlardan sonra Əfqanıstan müharibəsi, eləcə də ölkəmizdə bu müharibənin iştirakçısı olan veteranlara göstərilən dövlət qayğısından bəhs edən film nümayiş olunub.

Tədbir konsert proqramı ilə başa çatıb.

# Komitə sədri Goranboyda vətəndaşları qəbul edib

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova fevralın 21-də Goranboy rayonunda vətəndaşların qəbulunu keçirib.

AZƏRTAC xəbər verir ki, qəbulda Göygöl, Naftalan, Mingəçevir, Yevlax, Xocalı, Gəncə, Samux, Kəlbəcər, Goranboy şəhər və rayonlarından olan sakinlər iştirak edib.

Qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və sair kimi məsələlərə baxılıb.

Komitə sədri Hicran Hüseynova ailə, qadın və uşaq siyasəti sahəsində görülən mühüm işlər və layihələr haqqında rayon nümayəndələrinə məlumat verib. Eyni zamanda, Goranboy rayonunda baş verən erkən nikah halları, sakinlərin məşğulluq məsələləri, qadın sahibkarlara dəstək, uşaqların təhsildən yayınması məsələləri və digər mühüm mövzular ətrafında müzakirələr aparılıb və hər bir vətəndaşın sualları fərdi qaydada cavablandırılıb, eyni zamanda, müraciətləri qeydə alınıb. Qəbulda vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid məsələlərə dair müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb və aidiyyəti üzrə tədbirlər görülüb.

Sonra komitə sədri Hicran Hüseynova rayonun bir qrup fəal qadını ilə görüşüb. Onların müraciəti dinlənilib və təklifləri nəzərə alınıb.

◆ Zəlzələ bölgəsindən reportaj

## 92 yaşlı Saray nənənin PREZİDENTƏ ismarıcı var:

# “İlham, oğlum, Sən mənə ancaq yeni ev vermirsən, arxa-dayaq olmaqla ömrümə ömür qatırsan...”

Əvvəli 1-ci səh.

Qış fəsli olduğu üçün betonun daha möhkəm olması naminə xüsusi qatqılardan istifadə edilir. Evlər tikilən ərazidə elektrik və qaz xətləri də kəsilib ki, görülən işlərə maneçilik yaranmasın.

Bəzi küçələrdə isə sökülən evlərin yerində yenisinin fundamenti qoyulur. Şahidlik etdiyimiz mənzərə onu deməyə əsas verir ki, burada yeni tikilən evlər qısa zamanda tam hazır olacaq. Kamran Əliyev də deyir ki, dövlət başçısının tapşırığına uyğun olaraq yeni evlər ən qısa zaman ərzində tikilib sakinlərə təhvil veriləcək.

Əlavə edək ki, evləri sökülən sakinlər müvəqqəti olaraq icra hakimiyyəti tərəfindən başqa mənzillərdə, ya da qohum evlərində yerləşdiriliblər.



> Qəzeti əlinə alıb diqqətlə baxıb deyir: “Qadan alım, ay İlham! Allah səni qorusun, ay bala”.
> Şəkli öpüb qəzeti köksünə sıxır. Sonra yenə baxır. Birdən şəkildə özünü də görür: “Bıy, mən də burdayam ki... məndən yazmısınız?” Qəzetin səhifələrini vərəqləyib qəzalı evlərdən, söküntü prosesindən çəkilən şəkillərə diqqətlə baxır. Bir qədər keçəndən sonra üzünü bizə tutub danışmağa başlayır:
> “Heç kim evinin dağılmasını istəməz. Axı, o yurdu əllərinlə özün qurursan. 1964-cü ildə tikilən o evdə 5 övlad böyütdüm, nəvə toyu edib, nəticə də gördüm. İndi neynəmək olar, zəlzələdir... İlham oğlum hər kəsin dayağıdır. Bizim də dadımıza çatdı. Dağılan evimizin yerində indi daha möhtəşəm ev tikdirir. Allah Prezidenti bu xalqa çox görməsin. Baxıram, televizorda hər gün, demək olar, insanlarla görüşür, söhbət edir, dərdlərini, problemlərini soruşur. Ürəyim açılır, elə sevinirəm ki...”



> “İlham Əliyev bizim də dayağımız oldu, Allah ona kömək olsun. Mehriban xanım Əliyevanı da xalq çox sevir. Çünki bu insan ona müraciət edənlərin hamısına kömək edir.
> Mənim yaş yarımlıq nəticəmin böyrəyində ciddi problem vardı. Bir böyrəyi tamamilə sıradan çıxmışdı. Mehriban xanıma müraciət etdik. Birinci vitse-prezidentimiz bizə yardımçı oldu və nəticəm ölümdən qurtuldu. İndi də bizə yeni ev verəcəklər. Tanrı Prezidentimizi, onun təmiz qəlbli xanımını qorusun”.



> “Prezidentimizin dərhal Şamaxıya gəlişi məni həqiqətən qürurlandırdı. İnsanlarla səmimi söhbəti, onları təmkinlə dinləməsi hər bir azərbaycanlıda fəxarət hissi yaradır. Çünki vətəndaşlar da rahatdır və bilirlər ki, ölkə rəhbəri həmişə onların yanındadır. Ona görə də xalq İlham Əliyevin ətrafında birləşib. Bu birliyin çox gözəl nümunəsini biz Şamaxıda bir daha gördük. Bu, heç zaman unudulmayan görüş oldu. Səhəri gün dövlət başçısına teleqram vuraraq öz minnətdarlığımı da bildirdim”.

### Belə qayğıkeş Prezidenti hər kəs sevər

Tikinti-quruculuq işləri ilə tanışlıqdan sonra xüsusi komissiyanın qəzalı ev kimi qeydə aldığı bəzi mənzillərə baş çəkirik. Salman Mümtaz küçəsində Vahid Şıxıyevə məxsus 31 nömrəli 112 kvadratmetrlik evin yük divarları deformasiyaya uğrayıb, hörgülər tamamilə bir-birindən ayrılıb. Evin qəzalı olduğu barədə rəy verilib.

Ev sahibi Vahid Şıxıyev bizimlə söhbətində bildirdi ki, Prezident İlham Əliyevin rayona səfəri, insanlara mənəvi dəstək olması onları çox qürurlandırıb: “7 fevral 2019-cu il, heç vaxt unutmayacağım tarixi bir gündür. Prezident Şamaxıya gəlib öncə qəzalı evlərə baxdı, sonra sakinlərlə görüşdü. Dedi ki, mən də sizinlə qürur duyuram. Belə ağır günlərdə nikbinliklə yaşayıb dövlətin, Prezidentin həmişə xalqın arxasında olduğuna inanırsınız. Bərpa işləri tezliklə başlamalıdır.

Dövlət başçısı belə olar, hər zaman xalqının yanında. Belə qayğıkeş Prezidenti hər kəs sevər və hər zaman dəstəkləyər”.

### İlham Əliyev maddi və mənəvi dayağımız oldu, Mehriban xanım nəticəmi ölümdən qurtardı

Bu küçədəki Humayın Qəhrəmanovaya məxsus 30 nömrəli ev də qəzalı vəziyyətdədir. Ev sahibəsi, 87 yaşlı Humayın nənə deyir ki, 9 nəfər ailə üzvünün yaşadığı mənzillərdə yaranan fəsadlarla bağlı komissiyaya müraciət ediblər. Evə baxış keçirilib və qəzalı olduğu bildirilib:

“Zəlzələ bizi çox qorxutdu. Bəlkə də bu, son illərdə Şamaxıda baş verən ən güclü zəlzələ idi. İşıqların sönməsi əhalini vahiməyə saldı. Amma Prezident İlham Əliyevin Şamaxıya, məhz bizim küçəyə gəlib insanlarla görüşü hər kəsə təskinlik vermiş oldu. Biz yaxşı bilirik ki, dövlət başçısının işləri çoxdur. Amma dar gündə dövlət başçısının, Mehriban Əliyevanın insanların harayına yetişməsi, səbirlə dinləməsi onların qəlblərində sevgi hissi yaradıb. İlham Əliyev bizim də dayağımız oldu, Allah ona kömək olsun. Mehriban xanım Əliyevanı da xalq çox sevir. Çünki bu insan ona müraciət edənlərin hamısına kömək edir. Mənim yaş yarımlıq nəticəmin böyrəyində ciddi problem vardı. Bir böyrəyi tamamilə sıradan çıxmışdı. Mehriban xanıma müraciət etdik. Birinci vitse-prezidentimiz bizə yardımçı oldu və nəticəm ölümdən qurtuldu. İndi də bizə yeni ev verəcəklər. Tanrı Prezidentimizi, onun təmiz qəlbli xanımını qorusun”.

### Prezidentə teleqram vurub minnətdarlığımı bildirdim

Rayonun Şəhriyar küçəsindəki 25 nömrəli ev də qəzalı vəziyyətdədir. 79 yaşlı Sədəf Vəliyevaya məxsus evin bütün divarları deformasiyaya uğrayıb. Uzun müddətdir şəkər xəstəliyindən əziyyət çəkən Sədəf xanım burada qızı Sevinc Vəliyeva ilə birgə yaşayır.



Şamaxı rayon İncəsənət Mərkəzində müəllim işləyən Sevinc xanım deyir ki, mövcud durumla bağlı həm FHN-nin, həm də icra hakimiyyətinin fövqəladə hallar komissiyasına müraciət edib. Baxış keçirildikdən sonra evin tamamilə qəzalı olduğu bildirilib və onlar müvəqqəti olaraq başqa mənzildə yerləşdiriliblər:

“Zəlzələ bizi çox qorxutdu. Allah hamımızı qorudu. Əgər bir neçə saniyə də davam etsəydi, insan təlafatı ola bilərdi. Evdə bütün əşyalarımız sındı. Ancaq sağ qaldıq, bu günə şükür...

Prezidentimizin dərhal Şamaxıya gəlişi məni həqiqətən qürurlandırdı. İnsanlarla səmimi söhbəti, onları təmkinlə dinləməsi hər bir azərbaycanlıda fəxarət hissi yaradır. Çünki vətəndaşlar da rahatdır və bilirlər ki, ölkə rəhbəri həmişə onların yanındadır. Ona görə də xalq İlham Əliyevin ətrafında birləşib. Bu birliyin çox gözəl nümunəsini biz Şamaxıda bir daha gördük. Bu, heç zaman unudulmayan görüş oldu. Səhəri gün dövlət başçısına teleqram vuraraq öz minnətdarlığımı da bildirdim”.

Sevinc xanım deyir ki, təbii fəlakətlər başqa ölkələrdə də baş verir. Ancaq televiziya kanallarından izlənilən kadrlarda bir dəfə də görünmür ki, həmin ölkənin rəhbəri insanların harayına çatsın. Heç bir ölkədə belə hadisələrə Azərbaycan Prezidenti qədər həssaslıqla yanaşmırlar. Ona görə də xalq hər zaman dövlət başçısının həyata keçirdiyi siyasəti dəstəkləyir.

Bir qədər söhbətləşdikdən sonra 79 yaşlı Sədəf xanıma Allahdan şəfa diləyib ayrılırıq.

### 92 yaşlı Saray nənənin şəkil sevinci

Prezident İlham Əliyev Şamaxıya səfəri zamanı 92 yaşlı ağbirçək Saray nənə ilə görüşüb xeyli söhbətləşmişdi. Fevralın 9-da isə həm zəlzələ bölgəsində görülən işlər, həm də evləri qəzalı vəziyyətə düşərək müvəqqəti sığınacaqlarda yerləşdirilən sakinlərin durumu ilə maraqlanmaq üçün Şamaxıya səfərimiz çərçivəsində Saray nənə ilə söhbətləşib dövlət başçısı ilə görüşünün təəssüratlarını soruşmuşduq.

Yenidən nənəyə baş çəkib hal-əhvalını sormağı özümüzə borc bilib Həsənovlar ailəsinin müvəqqəti yaşadığı mənzilə yollandıq.

Salamlaşıb içəri daxil oluruq. Saray nənə döşəklərin üstündə bardaş qurub hələ bir yaşı tamam olmayan nəticəsi Emini oynadırdı. Bizi görüb tanıyır. Ötən səfərki görüşümüzdən hazırladığımız reportajın dərc olunduğu nömrəni Saray nənəyə veririk. Qəzeti əlinə alıb diqqətlə baxıb deyir: “Qadan alım, ay İlham! Allah səni qorusun, ay bala”.

Şəkli öpüb qəzeti köksünə sıxır. Sonra yenə baxır. Birdən şəkildə özünü də görür: “Bıy, mən də burdayam ki... məndən yazmısınız?” Qəzetin səhifələrini vərəqləyib qəzalı evlərdən, söküntü prosesindən çəkilən şəkillərə diqqətlə baxır. Bir qədər keçəndən sonra üzünü bizə tutub danışmağa başlayır:

“Heç kim evinin dağılmasını istəməz. Axı, o yurdu əllərinlə özün qurursan. 1964-cü ildə tikilən o evdə 5 övlad böyütdüm, nəvə toyu edib nəticə də gördüm. İndi neynəmək olar, zəlzələdir... İlham oğlum hər kəsin dayağıdır. Bizim də dadımıza çatdı. Dağılan evimizin yerində indi daha möhtəşəm ev tikdirir. Allah Prezidenti bu xalqa çox görməsin. Baxıram, televizorda hər gün, demək olar, insanlarla görüşür, söhbət edir, dərdlərini, problemlərini soruşur. Ürəyim açılır, elə sevinirəm ki... Bax, ona görə də xalq onu sevir. Ay jurnalist bala, get qəzetində mənim bu sözlərimi yaz: “İlham, oğlum, Sən mənə ancaq yeni ev vermirsən, arxa-dayaq olmaqla ömrümə ömür qatırsan...”

### İlham Əliyev 55 yaşlı qəzalı evin yerində bizə daha möhtəşəm ev tikdirir

Saray nənənin oğlu Rasim Həsənov deyir ki, artıq köhnə evləri tamamilə sökülüb və yerində 4 otaqlı yeni ev tikilir. FHN-nin komissiyası ailə ilə məsləhətləşdikdən sonra evin daxili də müəyyənləşib. Hamam kompleksi də mənzilin içərisində insa olunacaq:

“Həsənovlar ailəsi adından cənab Prezidentə təşəkkürümü bildirirəm. Həmişə xalqının ağır günündə onun yanında olan İlham Əliyevin bu təbii fəlakət zamanı şamaxılıların da yanında olacağına çox-çox inanırdıq. Nə yaxşı ki bizim belə xeyirxah, insansevər Prezidentimiz var. Xalqa göstərdiyi dəstəyə, köməyə görə həmişə minnətdarıq”.

Həsənovlar ailəsi tezliklə yeni mənzilə köçəcək. Bu gün onların 55 il öncə tikilən köhnə evlərinin yerində 9 bal gücündə zəlzələyə davamlı, daha möhkəm və əzəmətli ev tikilir. Yeni mənzillərində görüşmək ümidi ilə ailə üzvləri ilə sağollaşıb ayrılırıq.

92 yaşlı Sayar nənənin və digər Şamaxı sakinlərinin səmimi fikirləri isə əsl reallıqdır. Çünki fəaliyyətini xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində quran İlham Əliyev hər zaman atdığı addımlarda xalqın maraqlarını üstün tutub. Ölkəmizdəki uğurların əsasında da məhz xalq-Prezident birliyi dayanır.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin ÇƏFƏROV,***
***“Azərbaycan”***











---



# Azərbaycanın liderliyi ilə reallaşan növbəti layihə

## “Cənub qaz dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı bir daha göstərdi ki, Avropa enerji təhlükəsizliyində ölkəmizə güvənir

Əvvəli 1-ci səh.

“Cənub qaz dəhlizi” isə məhz Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində reallığa çevrilən olduqca mühüm və böyük enerji infrastrukturudur.

Azərbaycanın qaz ehtiyatları ilə bağlı proqnozlar təsdiqləndikdən sonra Aİ və ABŞ Azərbaycanın təşəbbüslərini dəstəklədi, Xəzərdən hasil olunan təbii qazın Avropaya çatdırılması üçün ölkəmizlə əməkdaşlığa həvəslə qoşuldu. Çünki bundan əvvəl Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilişi zamanı Azərbaycanın etibarlı tərəfdaş kimi qarşıya qoyulan vəzifələri vaxtında yerinə yetirdiyi Avropanın diqqətini çəkmişdi.

2006-cı ilin noyabr ayında Brüsseldə imzalanmış “Azərbaycan Respublikası və Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu”, 2008-ci ilin noyabr ayında imzalanmış Bakı Bəyannaməsinin müddəaları və 2009-cu ilin may ayında keçirilmiş Praqa Zirvə Görüşünün müvafiq Enerji Bəyannaməsində təsbit olunmuş Azərbaycan-Avropa İttifaqı enerji münasibətlərinin vacibliyi də göstərirdi ki, Aİ təbii qazın Avropaya çatdırılmasında Azərbaycanla əməkdaşlığa böyük həvəslə can atır. Nəhayət 2011-ci il yanvarın 13-də Bakı şəhərində “Cənub qaz dəhlizi” haqqında Birgə Bəyannamə imzalandı.

“Cənub qaz dəhlizi”nin mürəkkəb infrastruktur olacağı ilk gündən məlum idi. Çünki bunun üçün “Şahdəniz” qaz yatağının ikinci mərhələdə işlənilməsinə başlanılmalı, mövcud qaz kəmərlərinin imkanları genişləndirilməli, Türkiyə və Avropa ölkələrinin ərazisində yeni qaz kəmərləri çəkilməli idi. Elə buna görə də həmin vaxt bəzilərinə bu layihənin reallaşması qeyri-mümkün görünürdü. Üstəlik layihənin həyata keçirilməsi üçün maliyyə mənbələri də tapılmalı idi. Lakin Azərbaycanın liderliyi və beynəlxalq tərəfdaşları ilə birgə səyləri nəticəsində qısa müddətdə “Cənub qaz dəhlizi”nin bütün komponenlərinin reallaşdırılması üzrə beynəlxalq razılaşmalar əldə olundu.

Artıq ötən illərdə dəhlizin üç komponenti üzrə işlər tam başa çatdırılıb. “Şahdəniz” qaz yatağının ikinci mərhələdə işlənilməsi, mövcud qaz kəmərlərinin imkanlarının genişləndirilməsi, TANAP-ın çəkilişi artıq icra olunub. TAP layihəsi isə 87 faiz icra olunub.

### “Cənub qaz dəhlizi”nə maraq göstərən dövlətlərin sayı artır

Artıq beşinci dəfədir toplantısı keçirilən “Cənub qaz dəhlizi” Məşvərət Şurasının yaradılmasının da təşəbbüskarı Azərbaycandır. Çünki “Cənub qaz dəhlizi” üzrə iştirakçı dövlətlərin, maraqlı tərəflərin, maliyyə institutlarının sayı artdığından görülən işlərin əlaqələndirilməsi zərurəti yaranmışdı. Buna görə Azərbaycan hələ 2015-ci ildə belə bir şuranın yaradılması ideyasını irəli sürmüş və Avropa Komissiyası bu təşəbbüsü dəstəkləmişdi. Təsadüfi deyil ki, artıq beşinci dəfədir ki, keçirilən Məşvərət Şurasının iclaslarında layihəyə qoşulan ölkələrlə yanaşı, Avropa Komissiyasının da məsul rəhbər şəxsləri iştirak edirlər.

Beşinci toplantıda ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Sandra Oudkirk, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson, İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi, Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın iştirakı qeyd etdiyimiz kimi “Cənub qaz dəhlizi”nə olan böyük marağın təsdiqidir. Xüsusilə qeyd etmək yerinə düşər ki, Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələri, o cümlədən “Cənub qaz dəhlizi” ABŞ tərəfindən davamlı olaraq dəstəklənib. Beşinci toplantıda ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin iştirakı bu dəstəyin növbəti göstəricisidir. Toplantıdakı çıxışında bu məsələyə toxunan Prezident İlham Əliyev ABŞ hökumətinə minnətdarlığını bildirdi.

Diqqəti çəkən başqa bir məqam isə hər il toplantıda iştirak edən dövlətlərin sayının artmasıdır. Belə ki, son toplantıda Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan da nümayəndələr iştirak etdilər. Bu, layihəyə maraq göstərən dövlətlərin sayının artmasından xəbər verir.

“Cənub qaz dəhlizi”nin uğurla reallaşmasında layihədə iştirak edən dövlətlərin və təşkilatların birgə ahəngdar əməkdaşlığı böyük rol oynayır. Məşvərət Şurasının beşinci toplantısı da uğurlu əməkdaşlıq formatının yaradıldığını göstərir. Toplantıda buna toxunan Prezident İlham Əliyev deyib: “Bu gün toplantının formatı onu nümayiş etdirir ki, biz çox geniş beynəlxalq əməkdaşlıq formatını yarada bilmişik. Maliyyə qurumları, şirkətlər və ölkələrin bir amalı var. Biz bu layihənin reallaşdırılmasına inanırıq və hesab edirik ki, hər birimiz üçün bu, uzunmüddətli uğur hekayəsi olacaqdır”.

Bütövlükdə “Cənub qaz dəhlizi” Məşvərət Şurasının son toplantısı məlum həqiqətlərə bir daha aydınlıq gətirdi. Bütün dünya gördü ki, Azərbaycan enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradır və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmiz yeni mənbə olaraq qitənin enerji xəritəsini dəyişdirir. Ən əsası bütün bunlar beynəlxalq səviyyədə böyük dəstək qazanır. İkincisi, Azərbaycan karbohidrogen ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir. Üçüncüsü, Azərbaycan etibarlı tərəfdaşdır.

Məşvərət Şurasının beşinci toplantısı həm də onu göstərdi ki, Avropa enerji təhlükəsizliyində Azərbaycana güvənir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatları isə 2,6 trilyon kubmetrdir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Bakıda Olimpiya mədəniyyəti və təhsil proqramının təqdimatı keçirilib

Fevralın 21-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının başlanmasına 150 gün qalması münasibətilə "Hilton" hotelində Olimpiya mədəniyyəti və təhsil proqramının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri











Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibi Ağacan Abiyev, baş katibin müavini Azər Əliyev, dövlət və hökumət rəsmiləri, həmçinin Avropa ölkələrinin Azərbaycandakı diplomatik nümayəndəliklərinin təmsilçiləri iştirak ediblər.

Tədbirdə əvvəlcə Avropa Gənclərinin XV Yay Olimpiya Festivalına, Olimpiya mədəniyyəti və təhsil proqramına həsr olunmuş film nümayiş etdirilib.

Mərasimdə çıxış edən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə tədbirin Avropa Gənclərinin Yay Olimpiya Festivalına 150 gün qalmasına həsr olunduğunu bildirib. O qeyd edib ki, Avropada yeni layihə olan Olimpiya mədəniyyəti və təhsil proqramı Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri ilə birgə hazırlanıb. Avropa Olimpiya Komitəsinin dəstəyi ilə həyata keçirilən layihənin böyük əhəmiyyət kəsb etdiyini bildirən vitse-prezident artıq qitənin 25 ölkəsinin bu layihəyə qoşulduğunu qeyd edərək deyib: "Bu qəbildən tədbirlər Olimpiya Oyunlarında, Yeniyetmələrin Yay Olimpiya Oyunlarında məktəblilərin iştirakı əvvəllər də təşkil edilib. Ancaq Avropa festivalları tarixində belə bir layihə ilk dəfə həyata keçirilir. Bununla əlaqədar ekspert qrupu yaradılıb. Yaxşı olar ki, xarici ölkələrin diplomatik nümayəndələri öz ölkələrində bu proqramın yayılmasına, gənclərin bu layihəyə cəlb edilməsinə dəstək versinlər".

Gənclər və idman naziri Azad Rəhimov Azərbaycanın mötəbər idman tədbirlərinə, o cümlədən I Avropa, IV İslam Həmrəyliyi oyunlarına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına, "Formula-1" yarışlarına, Avropa, dünya çempionatlarına yüksək səviyyədə evsahibliyi etdiyini deyib. O əmin olduğunu bildirib ki, Avropa Gənclərinin Yay Olimpiya Festivalı da ölkəmizdə yüksək səviyyədə təşkil ediləcək. "Bu gün önəmli bir gündür. Festivalın başlanmasına 150 gün qalır. Bu qısa müddətdə görüləcək çox iş var. Əminik ki, bu mötəbər idman tədbiri də ölkəmizdə yüksək səviyyədə keçiriləcək. Bu gün Avropa Gənclərinin Yay Olimpiya Festivalının başlanmasına 150 gün qalması münasibətilə bu mötəbər idman yarışının talismanları olan Cırtdan və Bəbir ictimaiyyətə təqdim edilib. Maskotlar cəmiyyətdə böyük maraqla qarşılanıb" - deyə nazir vurğulayıb.

Nazir əminliklə bildirib ki, talismanlar 25 illik ənənəsi olan çoxnövlü mötəbər idman yarışında - Avropa Gənclərinin Yay Olimpiya Festivalında idmançıları qələbələrə ilhamlandıracaq, azarkeşlərə xoş anlar bəxş edəcəklər. Azad Rəhimov xüsusi vurğulayıb ki, Avropa Olimpiya Komitəsinə üzv olan 50 ölkədən 49-u festivalda iştirakını artıq təsdiq edib.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan dövlətinin ölkəmizdə digər sahələrlə yanaşı, idmana da yüksək diqqət və qayğı göstərdiyini qeyd edib. O, Olimpiya mədəniyyəti və təhsil proqramının Azərbaycanda idmanın və təhsilin təbliğində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Nazir bu proqramın əsas məqsədinin Avropa ölkələrində yeniyetmə və gənclər arasında əməkdaşlığın inkişaf etdirilməsi, idmanın, təhsilin, mədəniyyətin, eləcə də Olimpiya hərəkatının təbliği olduğunu bildirib.

"Layihə çərçivəsində seçilən 49 məktəbin hər biri Avropanın bir ölkəsinə təhkim olunub. Bakı məktəbləri təhkim olunduqları Avropa ölkəsinin mədəniyyəti, tarixi, milli və müasir idman növlərini öyrənəcək, həmçinin qardaşlaşmış məktəblərə Azərbaycan mədəniyyəti, incəsənəti, idmanı haqqında məlumat vermək imkanı əldə edəcəklər" - deyə təhsil naziri əlavə edib. Festivalda üç minə yaxın könüllünün iştirak edəcəyini bildirən C.Bayramov bu mötəbər idman yarışının ölkəmizdə könüllülük hərəkatının inkişafına da müsbət təsirini vurğulayıb.

Təqdimat mərasimi konsert proqramı ilə davam edib.

Olimpiya mədəniyyəti və təhsil proqramı Bakıda təşkil olunacaq Avropa Gənclərinin Yay Olimpiya Festivalı irsi çərçivəsində keçirilir. Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı, "Bakı 2019" Avropa Gənclər Olimpiya Festivalı Əməliyyat Komitəsinin, Təhsil, Gənclər və İdman nazirliklərinin köməyi ilə həyata keçirilir. Proqramın əsas məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında təhsili, mədəniyyəti, idmanı və Olimpiya dəyərlərini təşviq etməkdir.

# ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun Avstriyada keçirdiyi toplantıda mühüm qərarlar qəbul edilib

Avstriyanın ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupundakı nümayəndə heyətinin təşkilatçılığı ilə fevralın 20-də Vyana şəhərində qrupun tədbiri və 5-ci iclası keçirilib.

Tədbirə evsahibliyi edən Avstriya nümayəndə heyətinin üzvü, İpək Yoluna Dəstək Qrupunun sədr müavini Roman Hayder bildirib ki, Avstriya tərəfi İpək Yolunun bərpası istiqamətində atılan addımlara xüsusi önəm verir və bu baxımdan ATƏT PA-da yaradılan Qrupda fəal iştirak edir. Bugünkü tədbirə Avstriya İnfrastruktur Nazirliyinin və Federal Dəmir Yolları konserninin evsahibliyi ölkənin bu cür layihələrə verdiyi önəmi bir daha təsdiqləyir.



ATƏT PA-nın vitse-prezidenti və İpək yolu qrupunun sədri Azay Quliyev Avstriya tərəfinə və şəxsən Roman Hayderə bu tədbirin təşkili, göstərilən qonaqpərvərlik və sıx əməkdaşlığa görə minnətdarlığını bildirib: "Qeyd etmək istərdim ki, qrupumuz tərəfindən Azərbaycanda keçən il Bakı Beynəlxalq Konfransı keçirilib. Hazırda biz Avstriyada bir araya gəlmişik, aprel və sentyabr aylarında Belarus və İsveçrədə beynəlxalq konfranslarımız keçiriləcək. Bu gün İtaliyanı üzvlüyə qəbul etməklə qrupa üzv ölkələrin sayını 24-ə çatdıracağıq. Qısa müddət ərzində bu qədər tədbirlərin təşkili, üzvlərin sayının 17-dən 24-ə çatması, Berlində keçən il bununla bağlı ayrıca qətnamənin qəbulu bir daha onu göstərir ki, belə bir qrupun ATƏT PA-da yaradılması nə qədər vaxtında atılmış addımdır. Qrupa artan maraq onun çox uğurlu layihə olduğunu göstərir. Mən üzv ölkələrin parlamentlərinə, ATƏT PA-nın prezidentinə və baş katibinə bu təşəbbüsə verdikləri dəstəyə və göstərdikləri yüksək marağa görə təşəkkür edirəm".

Qrupun qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi töhfəni vurğulayan ATƏT PA-nın prezidenti Georgi Tsereteli İpək Yoluna Dəstək Qrupunun iştirakçı ölkələr arasında siyasi, iqtisadi və mədəni əlaqələrin gücləndirilməsində mühüm rol oynadığını bildirib: "ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupu həqiqətən də qısa zaman ərzində çox böyük işlər görüb və assambleyada ən böyük qrupa çevrilib. Şadam ki, həmkarım Azay Quliyev bu təşəbbüsü irəli sürməklə ATƏT PA-da fərqli və eyni zamanda, səmərəli dialoq platformasının ətrafına bizi toplaya bilib".

ATƏT PA-nın baş katibi Roberto Montella İpək Yoluna Dəstək Qrupunun genişlənən fəaliyyətini vurğulayıb, Qrupun gördüyü işi yüksək qiymətləndirib və belə tədbirlərin Parlament Assambleyasının ümumi işinə mühüm töhfə verdiyini qeyd edib: "Beynəlxalq katiblik olaraq belə bir qrupun yaradılması və fəaliyyətinin təşkilinə imkanlarımız və qaydalar çərçivəsində dəstək verməkdən məmnunuq. Parlament üzvlərinin ümumi maraqlar əsasında bir araya gəlməsi, əməkdaşlığı, dialoqu və mədəniyyətləri təbliğ etməsi və bununla da mənsub olduqları xalqların maraqlarını təmsil etməsi çox vacibdir".

Milli Məclis Sədrinin müavini, ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova avstriyalı həmkarlarına bu tədbirin gözəl təşkilinə və maraqlı təqdimatlara görə təşəkkürünü bildirib. Keçən il qrupun Bakıda keçirilmiş beynəlxalq tədbirini xatırladaraq, Avropada ən genişmiqyaslı tarixi layihələrdən biri olan "Cənub qaz dəhlizi", TANAP, Bakı-Tbilisi-Qars dəmir yolunun, Bakı yaxınlığında yerləşən yeni Ələt limanının təkcə Azərbaycanın deyil, bütün regionun tranzit potensialının möhkəmləndirilməsinə, Avropa ilə Asiya arasında ticarət dövriyyəsinin artmasına imkan yaradacağını qeyd edib.

Daha sonra Avstriya tərəfi İpək yolunun əhatə etdiyi ərazilərdə dəmir yolu nəqliyyatı ilə əlaqə qurulmasına yönəlmiş təşəbbüsləri təqdim edib. "Breitspur Planungsgesellschaft" şirkətinin icraçı direktoru Aleksandr Şirnhuber və Avstriya Federal Dəmir Yolları (ÖBB) SC-nin əlaqələndiricisi Hayns Şnitser İpək yolu regionunda qarşılıqlı əlaqənin və nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş "Twin-Continent-1520 expansion from Kosice to Vienna" adlı innovativ layihənin iclas çərçivəsində təqdimatını keçiriblər.

Sözügedən layihə təqdim edildikdən sonra iştirakçılar Avstriyanın infrastruktur naziri Norbert Hoferlə görüşüblər. Norbert Hofer nəqliyyat sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinin əhəmiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Həmin gün həmçinin ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun 5-ci iclası keçirilib. Qrupun sədri Azay Quliyev iclasın gündəliyini diqqətə çatdıraraq, İtaliyanın qrupa üzvlüyünə dair müraciətini səsə qoyub, İtaliya yekdilliklə üzvlüyə qəbul edilib.

Bu il üçün planlaşdırılan tədbirlər haqqında çıxış edən Belarus nümayəndə heyətinin rəhbəri Boleslav Pirştuk aprelin 29-30-da Minsk şəhərində keçiriləcək İpək Yoluna Dəstək Qrupunun Beynəlxalq Konfransına hazırlıq barədə ətraflı məlumat verib. O, Belarus tərəfinin bu konfransın təşkilinə böyük maraq göstərdiyini qeyd edib və tədbirin yüksək səviyyədə keçiriləcəyinə əminliyini vurğulayıb.

İsveçrənin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Marqareta Kiner Nellen isə qrupun sentyabr ayında İsveçrənin Andermatt şəhərində təşkil ediləcək beynəlxalq konfransı haqqında ətraflı məlumat verib. İpək Yoluna Dəstək Qrupunun sədr müavini Filippo Lombardi İsveçrədə baş tutacaq beynəlxalq konfrans çərçivəsində iş adamları ilə birgə panellərin keçirilməsinin nəzərdə tutulduğunu söyləyib və ölkəsinin bu tədbirə böyük əhəmiyyət verdiyini bildirib.

Daha sonra cari məsələlər və İpək Yoluna Dəstək Qrupunun gələcək fəaliyyəti barədə müzakirələrlə iclasa yekun vurulub.

*AZƏRTAC*

# Avropa Gənclərinin Yay Olimpiya Festivalının talismanları - Cırtdan və Bəbirin təqdimatı olub

Bu il iyulun 21-dən 27-dək Bakıda keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalının başlanmasına 150 gün qalması münasibətilə bu mötəbər idman yarışının talismanları olan Cırtdan və Bəbir ictimaiyyətə təqdim edilib.




Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, "Kiçicik" mənasını daşıyan balaca oğlan Cırtdan ölkəmizdə uşaqların ən populyar nağıl personajıdır. Həmyaşıdlarından boyda balaca olmasına baxmayaraq, Cırtdan milli özünəməxsusluğu, dərrakəsi, hazırcavablığı, mübarizliyi, cəsarəti və mərdliyi ilə seçilir. Cırtdanla bağlı ən məşhur nağılların birində o, cəsarəti və zəkası ilə Divi aldadaraq özünü və dostlarını xilas edir. Bununla da gənc və balaca olmasına baxmayaraq, qorxmaz qəhrəman olduğunu sübut edir.

Qafqaz bəbiri isə Azərbaycanın füsunkar təbiətinin zənginliyini təşviq və təbliğ edir. Qafqaz bəbiri Azərbaycan faunasında ən yaxşı tanınan və haqqında geniş məlumat olan heyvan növlərindən biridir. Azərbaycan mifologiyasında bəbirin şəklinə tez-tez rast gəlmək mümkündür. Bu heyvan təbii gözəllik, güc, qorxmazlıq və sürəti təcəssüm etdirir. Əvvəllər Qafqazda geniş yayılmış bəbir nəsli hazırda tükənmək üzrədir. Buna görə də nəinki Azərbaycanda, eləcə də regionda qorunan əsas cinslərdən biridir. Dünya Vəhşi Təbiət Fondunun məlumatına görə, Azərbaycanda Qafqaz bəbirinin sayı 15-dən də aşağıdır. 2014-cü ildə IDEA İctimai Birliyi və bəbirlərin qorunması ilə məşğul olan beynəlxalq "Pantera" təşkilatı arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən, Azərbaycanda bəbirlərin yaşayış şəraitinin qiymətləndirilməsi və bu heyvanların qorunması məqsədilə xüsusi monitorinq proqramı hazırlanıb.

Azərbaycan təbiətinin və mədəni irsinin rəmzləri kimi, Avropa Gənclərinin Yay Olimpiya Festivalının rəsmi talismanları olan Cırtdan və Bəbir ölkəmizin şanlı tarixini və zəngin ənənələrini əks etdirir. Talismanlar 25 illik ənənəsi olan çoxnövlü mötəbər idman yarışında - Avropa Gənclərinin Yay Olimpiya Festivalında idmançıları qələbələrə ilhamlandıracaq, azarkeşlərə xoş anlar bəxş edəcəklər.

"Zirvələrə hazırıq" devizi altında keçiriləcək Avropa Gənclərinin Yay Olimpiya Festivalı Bakıda ilk addımlarını atacaq idmançıların gələcək karyeralarında həlledici mərhələ olacaq, gənc idman ulduzlarını bütün dünyaya tanıdacaq.

# Azərbaycan Gimnastika Federasiyası "Mükafatlandırılan federasiyalar" siyahısında birinci olub

Azərbaycan Gimnastika Federasiyası (AGF) 2018-ci ilin yekunlarına əsasən, Beynəlxalq Gimnastika Federasiyası (FIG) tərəfindən "Mükafatlandırılan federasiyalar"ın siyahısına daxil olub.

AGF-dən AZƏRTAC-a bildiriblər ki, federasiya siyahıda yenidən birincidir. AGF ötən il olduğu kimi, bu il də öz nümunəvi fəaliyyəti ilə bütün diqqətləri üzərinə toplamağı bacarıb. Yüksək səviyyədə təşkil olunmuş gimnastikanın 3 növü üzrə Dünya Kuboku, FIG Akademiyasının bədii, idman və aerobika gimnastikası üzrə məşqçilik kursları, FIG-nin ali orqanı olan konqresi, beynəlxalq yarışlar və digər iclasların yüksək səviyyədə təşkili, həmçinin FIG-nin tanıdığı gimnastikanın altı növü üzrə yarışlarda intizamlı şəkildə qeydiyyatdan keçərək aktiv iştirakı Beynəlxalq Gimnastika Federasiyası tərəfindən bu dəfə də dəyərləndirilib və federasiya birinciliklə mükafatlandırılıb.

Qeyd edək ki, özündə 148 federasiyanı birləşdirən FIG-nin reytinq siyahısında Azərbaycan Gimnastika Federasiyası stabil olaraq 2014-cü, 2015-ci və 2016-cı illərdə 10 ən güclü federasiyanın sırasında, 2017-ci ildə isə ilk pillədə qərarlaşıb.

# Növbəti avantüraya imkan verilməyəcək

Regionun lider dövləti kimi qazandığı yeni nailiyyətlərlə bu statusunu davamlı şəkildə möhkəmləndirən Azərbaycan artıq beynəlxalq hüququn güclü, nüfuzlu müstəqil subyekti kimi çıxış edir. Lakin ölkəmizin əldə etdiyi nailiyyətləri, qazandığı uğurları, həzm edə bilməyənlərin sayı da az deyil. Antiazərbaycançı şəbəkə və bu qüvvələrə dəstək verən ölkəmizdəki "beşinci kolon"un üzvləri illərdir ölkəmizdə qazanılan uğurlara qara yaxmaqla məşğuldurlar.

"Milli Şura" adlı qondarma qurumda təmsil olunan AXCP sədri Əli Kərimli kimi buyruq qulları əməlləri ilə istənilən an Azərbaycana, xalqa xəyanət etməyə hazır olduqlarını dəfələrlə göstəriblər. Onlar öz mənafeləri, maddi maraqları naminə lazım gəldikdə bir an belə, tərəddüd etmədən xəyanətlərə yol veriblər. Bu mənada, Əli Kərimli kimi marginallaşmış, milli maraqları tapdaq altına atan xəyanətkarların siyasətçi obrazına girib özlərini müxalifətin "lideri" adlandırması bütövlükdə cəmiyyətimiz üçün qəbuledilməz və digər müxalif partiyaların rəhbərləri üçün aşağılayıcı faktordur.

Niyyəti və əməli daha çox Azərbaycanda daxili sabitliyi pozmağa yönələn, fəaliyyəti ilə hər zaman ölkəmizin nüfuzunu zədələməyə çalışan ifrat dağıdıcı müxalifət, əslində, antiazərbaycançı şəbəkənin bir təmsilçisi kimi çıxış etdiyini istər-istəməz nümayiş etdirməkdədir. Çünki cəmiyyətdən özünü təcrid halına salmış ifrat radikallar ölkəmizin inkişafını, xalqın rifahını istəməyərək Azərbaycanda xaotik bir durumun formalaşmasını arzulayır, bu yöndə addımlar atmağa cəhd göstərirlər. Buna nail olmasalar da, iyrənc əməlləri ilə, əslində, Azərbaycanın ən qatı əleyhdarları ilə bir sırada yer aldıqlarını göstərmiş olurlar.

Bu səbəbdən də daxildəki "beşinci kolon" vasitəsilə mitinqlər təşkil edib ara qarışdırmaqla məkirli planlarını həyata keçirməyə səy göstərirlər. Azərbaycanın dağıdıcı müxalifəti isə bir himə bənddir. Axı onlar mitinq keçirməklə qrantlara sahib çıxırlar. Düzdür, bu vəsaitin böyük hissəsi mitinq iştirakçılarına deyil, partiya sədrlərinin xaricdə təhsil alan və ya yaşayan övladlarının hesablarına köçürülür. Yanvarın 19-da keçirdikləri mitinqdə isə səsləndirdikləri köhnəlmiş fikirlər, bir gün sonra isə ümumxalq hüzn günündə AXCP sədri və bir qrup tərəfdarının Şəhidlər xiyabanındakı biabırçı hərəkəti utancverici vəziyyət idi.

Heç bir ciddi sosial bazaya malik olmayan radikal düşərgənin xalq tərəfindən dəstəklənmədiyi sonuncu mitinq zamanı bir daha özünü qabarıq şəkildə göstərdi. Belə ki, bir neçə radikal müxalifət təşkilatının birgə təşkil etdiyi aksiyada iştirakçıların sayı heç 3 minə belə çatmadı.

İlk növbədə anarxist bir əhvali-ruhiyyənin hökm sürdüyü bu mitinq zamanı radikal düşərgə təmsilçilərinin çıxışları onların hələ də dağıdıcılıq, revanşizm əhvali-ruhiyyəsində olduqlarını aydın surətdə nümayiş etdirdi. Əslində, sosial baza qıtlığı yaşayan, intellektuallığı çox aşağı səviyyədə olan radikal müxalifətin liderlərindən, onların tərəfdarlarından hansısa müsbət yenilik də gözləmək mümkün deyil. Ən azından o baxımdan ki, ölkəmizi vətəndaş qarşıdurması gedən ölkələrin vəziyyətinə salmaq niyyəti güdənlərin Azərbaycana təəssübkeşlik etməsini gözləmək də əbəsdir. Əksinə, onların ölkədə vətəndaş qarşıdurması yaratmaq niyyətləri hər cəhdlərində müşahidə olunur. Bu isə xalqın nifrətinə səbəb olur.

Yanvarın 20-də Şəhidlər xiyabanında aqressiv müxalifətin növbəti dağıdıcı fəaliyyəti, simasız davranışları da göstərdi ki, bu insanlar marginallaşmış, milli maraqları ayaq altına atan, xəyanətkar mövqelərindən qətiyyən əl çəkmək niyyətində olmayan yararsızlardır.

Onlar yenə mitinq həvəsinə düşüblər. Fevralın 23-də səbəbsiz-filansız ən müxtəlif hoqqalarla küçələrə çıxmaq istəyən, meydan eyforiyası ilə yaşayan dağıdıcı müxalifət növbəti dəfə öz mövcudluğunu göstərməyə çalışır. Amma bu dəfə deyəsən, həm də antiazərbaycançı şəbəkədən yeni "tapşırıqlar" alıb. Son keçirdikləri mitinqdə ictimai asayişin pozulması, mitinq iştirakçılarının nəqliyyatın hərəkətinə maneçilik törətməsi, asayiş keşikçilərinə qarşı sərt davranış və onların qanuni tələblərinə müqavimət göstərilməsi faktlarının araşdırılması hələ başa çatmamış yenidən aksiya keçirmək həvəsinə düşüblər. Mitinqin təşkilatçıları belə halların təkrarlanmayacağı barədə üzərlərinə heç bir məsuliyyət götürmürlər və bunda maraqlı da deyillər. Eyni zamanda hər hansı qanun pozuntusuna yol verilməyəcəyi və aksiyanın idarə olunacağı barədə üzərlərinə öhdəlik götürmürlər. Belə olan halda Bakı Şəhər İcra Hakimiyyəti hər hansı kütləvi tədbirin keçirilməsini məqsədəuyğun hesab etmir və hüquq mühafizə orqanlarının araşdırmasının başa çatmasını gözləməyi vacib bilir.

Dövrün tələbləri ilə hələ də ayaqlaşa bilməyən radikallar 1990-cı illərin əvvəlində olan eyforiya düşüncəsindədirlər. Həmin vaxt Azərbaycanda ilk hakimiyyət dəyişikliyinin, xaosun tüğyan etdiyi dövrdə, davamlı mitinqlər yolu ilə gerçəkləşdirildiyini unutmayan radikal düşərgə yenə həmin şəraitin olması arzusundadır. Amma bunun üzərindən illər keçib və Azərbaycan inkişafı ilə möcüzələr yaratdığını dünyaya sübut edib. Müxalifət isə hələ də 1990-cı illərin əvvəllərində ilişib qalıb.

Yuxarıda qeyd olunanlar onu deməyə əsas verir ki, müxalifətin radikal qanadının əməllərində, təfəkküründə hələ də dəyişiklik baş verməyib. Əli Kərimli və onlar kimi digər radikal müxalifət liderləri yenə də ötən əsrin 90-cı illərinin əvvəllərindəki fəaliyyətlərini davam etdirməkdədirlər. Nəticə isə onu göstərir ki, xalqın birmənalı şəkildə rədd etdiyi bu şəxslər, bütövlükdə radikal müxalifət hakimiyyət və mənsəb naminə hər yola baş vurmağa, hətta Azərbaycanın ən qatı əleyhdarları ilə işbirliyinə getməyə hazırdırlar. Onlar bilməlidirlər ki, istər Azərbaycan cəmiyyəti, istərsə də onun sabahı olan gənclik sərsəm fikirlərlə çıxış edən radikal avantüristlərə uyan deyildir. Əksinə, xalq indi Azərbaycanı sürətlə inkişaf yoluna çıxaran ümummilli lider Heydər Əliyev ideyaları, bu ideyaları yaşadan və həyata keçirən Prezident İlham Əliyevin ətrafında daha sıx səfərbər olub.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Cəlil Məmmədquluzadə -150



## Sizi deyib gəlmişəm...

**Çoxəsrlik Azərbaycan ədəbiyyatı qədim dövr və orta əsrlərdə romantik istiqamətdə inkişaf etmiş, dünya ədəbiyyatına görkəmli ədəbi simalar və ölməz şedevrlər bəxş etmişdir. XVIII əsrdən etibarən Azərbaycan ədəbiyyatında realist meyillər qüvvətlənməyə başlamış, XIX əsrdə daha da inkişaf etmişdir. Xüsusən Mirzə Fətəli Axundzadənin çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycanda maarifçilik ideyadan hərəkat səviyyəsinə qaldırılmış, maarifçi realizm ədəbi cərəyanı formalaşdırılmışdır.**

# Milli istiqlal carçısı

XX əsrin əvvəllərində isə Azərbaycan ədəbiyyatında tamamilə fərqli bir mərhələ başlanmışdır. Tənqidi realizm və mollanəsrəddinçilik adlanan bu yeni ədəbi tarixi mərhələnin qüdrətli yaradıcısı görkəmli Azərbaycan yazıçısı Mirzə Cəlil Məmmədquluzadədir.

Azərbaycan ədəbiyyatında böyük demokrat yazıçı və ictimai xadim kimi şöhrət qazanmış Cəlil Məmmədquluzadə (1869-1932) XIX əsrin ikinci yarısından sonra canlanmağa başlayan maarifçilik ənənələri və dövrün mühüm elm və maarif mərkəzlərindən olan məşhur Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası zəminində yetişib formalaşmışdır. Onun formalaşmasında və mənəvi təkamülündə Naxçıvan məktəblərində keçdiyi çətin və şərəfli yol, eyni zamanda, əsas yaradıcılarından biri olduğu Naxçıvan teatrı da xüsusi rol oynamışdır.

Beləliklə, Cəlil Məmmədquluzadə hələ cavan yaşlarından etibarən mənsub olduğu ölkə və Şərq, Rusiya və Qərb mədəniyyətləri və ədəbiyyatları, dövrün maarifçi ideyaları və ictimai fikri ilə dərindən tanış olmuş yazıçı və vətəndaş kimi öz yolunu müəyyənləşdirmişdir. Böyük demokrat ədibin uğrunda ardıcıl olaraq mübarizə apardığı tənqidi-realist ədəbiyyat, satira mətbuatı və milli istiqlal mübarizəsi onu Azərbaycan ədəbi-ictimai fikrinin ön cəbhəsinə gətirib çıxarmışdır. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanının banisi, "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcısı və milli istiqlal hərəkatının əsas simalarından biri kimi tanınıb şöhrət qazanmışdır. O, Azərbaycanda yeni tipli realist-satirik ədəbiyyatın və demokratik mətbuatın əsasını qoymuşdur.

İlk növbədə onu qeyd etmək lazımdır ki, Cəlil Məmmədquluzadə Azərbaycanda tənqidi-realist satirik ədəbiyyatın görkəmli yaradıcısıdır. O, özündən əvvəl ədəbiyyatda mövcud olmuş maarifçi realist ənənələri tənqidi realizm səviyyəsinə qaldırmışdır. Ədəbiyyatda həyatın və cəmiyyətin daha dərin qatlarına, insanın mənəvi aləminin incəliklərinə nüfuz etmək və fərqli bədii vasitələrlə canlandırmaq baxımından Cəlil Məmmədquluzadə ilə müqayisə ediləcək başqa bir yazıçı göstərmək çətindir. O, hələ ilk qələm təcrübəsi olan "Çay dəstgahı" dramında (1889) alleqorik vasitələrlə olsa da, cəmiyyət üçün aktual olan "Nə etməli" sualına cavab axtarmaqla mənsub olduğu xalqın milli oyanışına xidmət edəcək yazıçı olacağını bəyan etmişdir.

Ədibin "Danabaş kəndinin əhvalatları" povesti (1894) Azərbaycanda milli-mənəvi oyanışın zəruriliyini bütün reallığı ilə diqqət mərkəzinə çəkən ədəbiyyatın böyük müqəddiməsidir. Bu, bütövlükdə Azərbaycan kəndinin faciəvi həyatının ürəkağrıdan nağılvarı hekayətləri, əsərin əsas qəhrəmanı Məhəmmədhəsən əminin timsalında iztirablarla üz-üzə qalan, haqqı tapdanmış, lakin ləyaqətini qoruyub saxlamış kiçik adamların böyük əhvalatlarıdır. Əsərdə təsvir edilən sadə və zavallı insanların sayəsində Azərbaycan ədəbiyyatında "kiçik adam" ilk dəfə böyük ədəbiyyatın əsas obrazı kimi ədəbiyyata gətirilmişdir. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında "kiçik adam"ın taleyini böyük ədəbiyyatın baş mövzusuna çevirmiş ilk Azərbaycan yazıçısıdır. Yazıçı "kiçik adam"ı geniş mənada xalq anlayışı səviyyəsində təsvir etmişdir. Cəlil Məmmədquluzadənin ürək yanğısı ilə ədəbiyyata gətirdiyi Məhəmmədhəsən əmi, Novruzəli, Usta Zeynal, Kərbəlayi Məmmədəli, Pirverdi, Sadıq kişi kimi obrazlar taleyi, güzəranı, düşüncəsi və ümidləri etibarilə Azərbaycan xalqının XIX əsrin sonları və XX əsrin əvvəllərindəki həyatını bütün reallıqları ilə əks etdirib ümumiləşdirir. Onlar heç də keçmiş sovet ədəbiyyatşünaslığının təqdim etdiyi kimi cahil və nadan insanlar deyildilər. Cəlil Məmmədquluzadənin "kiçik adam"ları özlərinin sədaqəti, mənəvi təmizliyi, halallığı, toxluğu, əsl insani keyfiyyətləri ilə mənsub olduğu xalqın xarakterik xüsusiyyətlərini əks etdirir. Savadsız olmaları, poçt qutusunu tanımamaqları, "hürriyyət"dən baş çıxarmamaları özlərinin deyil, onları daim əsarətdə saxlamaq istəyən mövcud rejimin yaratdığı müstəmləkə zülmünün təzahürləridir. Cəlil Məmmədquluzadənin də niyyəti Novruzəlini yox, onu geridə saxlayan siyasi rejimi tənqid etməkdən ibarət idi. Cəlil Məmmədquluzadə nəinki ölkədəki siyasi istibdadı və ruhani despotizmini kəskin tənqid etmiş, eyni zamanda müstəmləkəçi rejimə onun əsaslarını sarsıdan öldürücü zərbələr vurmuşdur.

Cəlil Məmmədquluzadənin "Rişədən başlamalı" çağırışı Azərbaycan ədəbiyyatında müstəmləkəçi siyasi sistemin tam aradan qaldırılması və onun bütün təzahürlərinin məhv edilməsi vəzifələrini irəli sürür: "Əsas mətləb rişədədir. Çünki qalan kiçik məsələlər həmin rişəyə bağlıdır: əlifba, çadra, papaq, əmmamə, əba neyləsin, yaşıl qurşaq, qüsl, imamət, ziyarət və müxtəsər, yenə minlərcə bu qəbil mövhumat və axmaqlıqhat!.. Sən gərək məsələni rişədən başlayasan. Əgər rişə bərk və möhkəm olsa, ağac möhkəm duracaq və qanad-budağın darasan da, yenə axırda onlar dübarə pöhrələnib təzələnəcəklər".

Deməli, Cəlil Məmmədquluzadənin realizmi maarifçi, islahedici, tərbiyələndirici yox, mövcud rejimin əsaslarının dağıdılması yolu ilə xalqın azadlığının təmin edilməsinə ünvanlanmış yeni tipli realist ədəbiyyat modelidir. Cəlil Məmmədquluzadənin nəsr əsərləri, xüsusən dərin məzmuna malik kiçik hekayələri Azərbaycan ədəbiyyatının bu janrda yazılmış ilk tənqidi-realist örnəkləridir. "Molla Nəsrəddin" jurnalının "Sizi deyib gəlmişəm" müraciəti yalnız millətin oyanışına deyil, həm də yeni ədəbiyyatın prinsiplərinin müəyyən edilməsinə çağırışın ifadəsi idi. Eyni zamanda, "Molla Nəsrəddin" jurnalının hələ 1906-cı ildə başladığı "həqiqi "Molla Nəsrəddin" şairi axtarışları" tənqidi-realist satirik ədəbiyyatın Mirzə Ələkbər Sabir və Əli Nəzmi, Əliqulu Qəmküsar və başqaları kimi böyük yaradıcılarının kəşfi ilə nəticələnmişdir.

Beləliklə, Azərbaycanda ciddi ictimai mövzularda kəskin bədii söz deməklə xalqı ayıltmaq və cəmiyyəti dəyişmək vəzifələrini özündə əks etdirən yeni tipli ədəbiyyat yaranmışdır. Cəlil Məmmədquluzadə XX əsrin əvvəllərində genişlənməkdə olan tənqidi realist ədəbiyyatın əsas yaradıcısıdır. Onun banisi olduğu tənqidi realizm bütövlükdə Azərbaycan ədəbiyyatında yeni hadisə olan realizmin fərqli bir mərhələsini müəyyən etmişdir. Ətrafına cəlb etdiyi eyni tipli yaradıcılıq prinsiplərini əsas kimi qəbul etmiş qələm dostlarının vahid ideya-sənətkarlıq mövqeyindən çıxış etmələri ilə tənqidi realizm ədəbi cərəyan kimi formalaşmışdır.

XX əsrin əvvəllərində Azərbaycanda digər ədəbi cərəyanların - maarifçi realizm, romantizm və sentimentalizmin də yanaşı fəaliyyət göstərməsinə baxmayaraq, Cəlil Məmmədquluzadənin yaradıcısı olduğu tənqidi realizm dövrün ən aparıcı ədəbi cərəyanı funksiyasını həyata keçirmişdir. Təsadüfi deyildir ki, XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı əsasən romantizm epoxası kimi səciyyələnir. Müasiri olmuş görkəmli Azərbaycan yazıçısı Yusif Vəzif Çəmənzəminlinin Cəlil Məmmədquluzadəni "ədəbi dövrün başçısı" adlandırması böyük demokrat yazıçının milli ədəbi-ictimai fikrin inkişafındakı xüsusi rolunu və mövqeyini aydın surətdə əks etdirir. Cəlil Məmmədquluzadə "ədəbi dövrün başçısı" kimi təkcə tənqidi-realizm ədəbiyyatını və mollanəsrəddinçilik hərəkatını deyil, bütövlükdə yaşayıb-yaratdığı tarixi mərhələnin bütün istiqamətlər üzrə ədəbi-ictimai fikrini istiqamətləndirmiş və idarə etmişdir.

Tənqidi-realist ədəbiyyatın ədəbi cərəyan səviyyəsinə yüksəldilməsində məşhur "Molla Nəsrəddin" jurnalının rolu və xidmətləri xüsusi qeyd edilməlidir. Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 1906-1917-ci illərdə Tiflisdə, 1922-1931-ci illərdə Bakıda nəşr edilən "Molla Nəsrəddin" jurnalı tənqidi realizm cərəyanının əsas ədəbi cəbbəxanasıdır. Öz ətrafında mollanəsrəddinçi şairləri və yazıçıları birləşdirən "Molla Nəsrəddin" jurnalı nəinki ölkədə, Qafqazda, Türkiyədə, İranda, Orta Asiyada, Volqaboyunda... tənqidi realist və satirik ədəbiyyatın bayrağını ucaltmış, həm bu tipli ədəbiyyatın konsepsiyasını irəli sürmüş, həm də konkret ədəbi nümunələrini xalqa çatdırmışdır. Tənqidçi realistlər üçün "Molla Nəsrəddin" jurnalı ədəbi məktəb funksiyasını həyata keçirmişdir. Azərbaycan ədəbiyyatında tənqidi-realist yazıçı və şairlər ordusu "Molla Nəsrəddin" jurnalı ətrafında yetişib formalaşmışdır. Bu mənada tənqidi realizm ədəbi cərəyanı ilə "Molla Nəsrəddin" ədəbi məktəbi ifadələri eyni məna daşıyan sinonim sözlərdir. "Molla Nəsrəddin" ədəbi məktəbi geniş anlayış olub, özündə mollanəsrəddinçi şairləri və yazıçıları, satirik publisistikanın mahir yaradıcılarını, karikaturaçı rəssamları birləşdirmişdir. Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində "Molla Nəsrəddin" jurnalı qədər geniş universal yaradıcılıq istiqamətlərini və böyük yaradıcı qüvvələri öz ətrafında cəmləşdirən ikinci bir uzunömürlü mətbuat orqanı olmamışdır. "Molla Nəsrəddin" Azərbaycanın, geniş mənada türk-müsəlman dünyasının ilk satirik və karikaturalı jurnalı kimi bədii yaradıcılığın və təsviri sənətin inkişafına xidmət edən yeni nəsil sənətkarlar ordusu meydana çıxarmışdır. Cəlil Məmmədquluzadənin səyləri nəticəsində "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri vahid ədəbi cəbhədən çıxış etmiş, köhnəliyə, cəhalətə, fanatizmə, geriliyə qarşı bütün cəbhə boyu mübarizə aparmışdır.

"Molla Nəsrəddin" jurnalı İran Məşrutə hərəkatına, Azərbaycan milli istiqlal mübarizəsinə bir ordudan çox xidmət göstərmişdir. "Molla Nəsrəddin" jurnalı Azərbaycan ədəbiyyatında ən böyük istiqlal kitabıdır. Bütövlükdə "Molla Nəsrəddin" jurnalı Azərbaycanın tənqidçi realist və satirik yazıçılarının çoxcildlik külliyyatıdır. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin rəhbəri olmaqla bərabər, həm də mollanəsrəddinçilik təliminin yaradıcısıdır. Cəlil Məmmədquluzadəyə görə, mollanəsrəddinçilik - azərbaycançılıq, milli istiqlal ideyalarının, tənqidi realist və satirik ədəbiyyatın əsas hərəkətverici qüvvəsi demək idi. Ən çətin məqamlarda belə "Molla Nəsrəddin" jurnalı mövqeyindən dönməmiş, böyük qətiyyətlə mübarizəsini davam etdirmişdir. Hətta sovet hakimiyyəti illərində "Molla Nəsrəddin"in işinə Kreml səviyyəsində müdaxilələr olanda da Cəlil Məmmədquluzadə böyük cəsarət nümunəsi göstərərək 1927-ci ildə yazmışdı ki, "Molla Nəsrəddin" məcmuəsinin Moskvaya heç bir dəxli yoxdur. "Molla Nəsrəddin"i nə Moskva yaradıbdır, nə də Şura hökuməti yaradıbdır. Bu, bitərəf vərəqədir ki, iyirmi iki il bundan qabaq şahlar, sultanlar və krallar ilə söhbət etməyə adətkərdə olubdur".

"Molla Nəsrəddin" axıradək Azərbaycan idealına sədaqətlə xidmət etmişdir. Cəlil Məmmədquluzadənin əsərləri və "Molla Nəsrəddin" jurnalı azərbaycançılıq idealının lokomotividir. "Molla Nəsrəddin" jurnalı Azərbaycanın istiqlal qatarı, Cəlil Məmmədquluzadə milli istiqlal ədəbiyyatı və mətbuatının inkişafı magistrallarındakı böyük sükançısıdır. Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində ilk dəfə olaraq "Haradır Azərbaycan" sualını ictimai fikrin gündəminə Cəlil Məmmədquluzadə gətirmiş və ölkəsinin, əslində həm də milli oyanışı və istiqlalına xidmət etdiyi tarixi-coğrafi ərazinin xəritəsini cızmışdır. O, bütün yaradıcılığı boyu Vətən, Millət və Ana dili idealı uğrunda mübarizə aparmışdır.

Böyük demokrat ədibin azərbaycançılıq görüşləri həmişə onun cümhuriyyətçilik baxışları ilə üst-üstə düşmüşdür. Cəlil Məmmədquluzadə Azərbaycanda respublika-cümhuriyyət tipli müstəqil dövlətin yaradılmasını həyatının və sənətinin ən böyük qayəsi hesab etmişdir. Cəlil Məmmədquluzadənin "Anamın kitabı" (1920) dramı ədəbiyyatda azərbaycançılıq idealının manifestidir. "Anamın kitabı" əsərindəki Gülbaharın monoloqu bədii sözdə ifadə edilmiş azərbaycançılıq uvertürasıdır: "Qaldı bircə kitab: bu da Anamın kitabı!.. Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır Günün başına dolanırlar. Çünki bunlar hamısı qədim əzəl Gündən qopub ayrılmış parçalardır. Mən etiqad edirəm ki, mənim də qardaşlarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar. Çünki ay və ulduz Şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edərək, nə qədər canında nəfəs var, peşiman olacaq".

"Anamın kitabı"ndakı azərbaycançılıq idealları, Gülbaharın monoloqunda səslənən ümummilli çağırışlar bu gün və sabah üçün də aktual və müasirdir.

Azərbaycan ədəbiyyatında bir çox janrlar Cəlil Məmmədquluzadə tərəfindən yaradılmışdır. Cəlil Məmmədquluzadə kiçik hekayənin böyük yaradıcısıdır. Onun ustad qələmindən çıxmış məşhur "Poçt qutusu" hekayəsi Azərbaycan hekayəçiliyinin proqramıdır. "Poçt qutusu", "Usta Zeynal", "İranda hürriyyət", "Nigarançılıq", "Rus qızı", "Saqqallı uşaq" hekayələri Azərbaycan ədəbiyyatında hekayə janrında yaradılmış klassik şedevrlərdir.

Cəlil Məmmədquluzadənin novellavarı hekayələri dünya ədəbiyyatının da orijinal örnəkləri sayılmağa layiqdir. Cəlil Məmmədquluzadənin kiçik hekayələrində zamanın böyük mətləbləri məharətlə ifadə olunmuşdur. "Poçt qutusu" hekayəsindəki Novruzəlinin poçtxananı yox, divanxananı tanıması haqqındakı dialoqda, Usta Zeynalın evini təmir etdiyi Muğdusi Akopa verdiyi "xozeyin, niyə sizin padşahınız yoxdur" sualında, "Nigarançılıq" hekayəsindəki "həqiqət, dünyada bu nigarançılıqdan da pis şey yoxdur" etirafında fərdlərin yox, cəmiyyətin problemləri ifadə olunmuşdur. "İranda hürriyyət" hekayəsindəki İrandan ailəsini dolandırmaq üçün çörəkpulu qazanmaq naminə Qafqaz şəhərlərinə gəlmiş həmşərinin dilindən verilmiş aşağıdakı parçada diqqət mərkəzinə çəkilmiş mətləblər hekayənin yazıldığı dövrdə Arazın hər iki tayındakı siyasi proseslərin real mənzərəsini güzgüdə olduğu qədər təbiiliyi ilə əks etdirir: "Axı kim eşidibdi ki, o taydan bura hürriyyət gəlsin?! O taydan bu üzə həna gələr, səbzə, badam içi gələr, tütün, çay, tiryək... belə zadlar gələr. Yoxsa, vallah, mən ömrümdə bir dəfə də eşitməmişəm ki, hürriyyət gələ. Heç bu tərəflərdə hürriyyət alış-verişi eliyəni də mən eşitməmişəm".





Böyük demokrat ədibin uğrunda ardıcıl olaraq mübarizə apardığı tənqidi-realist ədəbiyyat, satira mətbuatı və milli istiqlal mübarizəsi onu Azərbaycan ədəbi-ictimai fikrinin ön cəbhəsinə gətirib çıxarmışdır. Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında tənqidi realizm ədəbi cərəyanının banisi, "Molla Nəsrəddin" ədəbi məktəbinin yaradıcısı və milli istiqlal hərəkatının əsas simalarından biri kimi tanınıb şöhrət qazanmışdır. O, Azərbaycanda yeni tipli realist-satirik ədəbiyyatın və demokratik mətbuatın əsasını qoymuşdur.

Cəlil Məmmədquluzadənin nəsr əsərləri, xüsusən dərin məzmuna malik kiçik hekayələri Azərbaycan ədəbiyyatının bu janrda yazılmış ilk tənqidi-realist örnəkləridir.

"Molla Nəsrəddin" jurnalının "Sizi deyib gəlmişəm" müraciəti yalnız millətin oyanışına deyil, həm də yeni ədəbiyyatın prinsiplərinin müəyyən edilməsinə çağırışın ifadəsi idi.

Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin rəhbəri olmaqla bərabər, həm də mollanəsrəddinçilik təliminin yaradıcısıdır. Cəlil Məmmədquluzadəyə görə, mollanəsrəddinçilik - azərbaycançılıq, milli istiqlal ideyalarının, tənqidi realist və satirik ədəbiyyatın əsas hərəkətverici qüvvəsi demək idi.

Cəlil Məmmədquluzadənin əsərləri və "Molla Nəsrəddin" jurnalı azərbaycançılıq idealının lokomotividir. "Molla Nəsrəddin" jurnalı Azərbaycanın istiqlal qatarı, Cəlil Məmmədquluzadə milli istiqlal ədəbiyyatı və mətbuatının inkişafı magistrallarındakı böyük sükançısıdır.

Yaxud "Zırrama" hekayəsindəki Qurbanqulu bəyin timsalında nadanlığın, boşboğazlığın "qanmır ki, qanmır" tipinin təqdimatı ilə Cəlil Məmmədquluzadə ictimai-mənəvi mühitin daxili çürüklüyünü dahiyanə şəkildə açıb göstərmişdir. Fikrimizcə, Cəlil Məmmədquluzadənin "Zırrama" anlayışı Çingiz Aytmatovun "manqurt" ifadəsi kimi yazıçının bədii kəşfi sayıla bilər. Manqurtluqda keçmişi, soykökü unutdurulmuş adamın faciəsi, zırramalıqda isə cahillik və avaraçılığın komediyası ifadə olunmuşdur.

Cəlil Məmmədquluzadənin dram əsərləri ilə Azərbaycan dramaturgiyasının tarixində yeni mərhələ yaradılmışdır. Ədibin dram əsərləri ideya-məzmunca olduğu kimi, janr baxımından da novatorluq nümunəsidir. Dram əsərlərində yaşadığı dövrün acı reallıqlarını məharətlə əks etdirən böyük yazıçı-dramaturq səhnədə sözün həqiqi mənasında "göz yaşları içərisində gülüş"ün məşəqqətlərini diqqət mərkəzinə çəkmiş, ibrətamiz nəticələrə gəlmişdir. Cəlil Məmmədquluzadənin dram əsərləri obrazların komediyası, dövrün faciəsindən ibarətdir. Böyük Mirzə Fətəli Axundzadənin dahiyanə komediyaları janr baxımından drama, Cəlil Məmmədquluzadənin komediyaları isə faciəyə yaxındır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının tragikomediya mərhələsini yaratmışdır. Onun pyesləri komediya ilə faciənin sintezini özündə əks etdirir. Faciə janrında yazılmış klassik əsərlərdən fərqli olaraq, Cəlil Məmmədquluzadənin dram əsərlərində baş qəhrəmanın ölümü yox, ictimai mühitin və kütlənin faciəsi açılıb göstərilmişdir. Yazıçı böyük məharətlə "Ölülər" əsərindəki Kefli İsgəndərin faciəsinin Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsindəki Fəxrəddinin faciəsindən daha dəhşətli olduğunu nəzərə çarpdırır. Cəlil Məmmədquluzadənin bütün yaradıcılığı üçün aktual olan "Anlamaq dərdi" fəlsəfəsi onun dram əsərlərində daha qabarıq şəkildə ifadə olunmuşdur. Bu baxımdan "Ölülər" əsəri diri ölülərin yası, Şeyx Nəsrullahın komediyası, kütlənin faciəsi, Kefli İsgəndərin mənəvi ölülük üzərində qələbəsi, mahiyyət etibarilə dirilik himnidir. Kefli İsgəndərin monoloqu zamana və insana ən böyük ittihamnamədir. Bu, ayrılıqda bir əsərdə yox, geniş mənada cəhalət dünyasından tarix kitabına qanla yazılmış səhifə, bütün dövrlərin Şeyx Nəsrullahlarına, kütlə psixologiyasına qarşı səslənən ittihamnamədir.

Böyük ədibin dramaturgiyası dövrün ən aktual, ağrılı və zəruri problemlərinə həsr olunmuşdur.

"Ölülər" - cəhalətə, ətalətə, mənəvi əsarətə, xurafata kəskin zərbə, milli-mənəvi oyanışa və ictimai-mədəni tərəqqiyə ən həyəcanlı çağırışdır.

"Kamança" Azərbaycan ədəbiyyatında Qarabağ münaqişəsinə həsr olunmuş birinci bədii əsərdir, vətən torpaqlarının müdafiəsi üçün hər cür fədakarlığa hazır olan Qəhrəman yüzbaşı kimi vətənpərvər azərbaycanlının həm də ən yüksək insani hislərə malik olduğunu təsvir edən dramatik bəyanatdır. Tragikomediya xüsusiyyətləri olan "Kamança" əsəri Azərbaycan ədəbiyyatında miniatür pyesin mükəmməl nümunəsidir.

Miniatür pyes janrı Cəlil Məmmədquluzadənin dramaturgiyaya gətirilərək vətəndaşlıq hüququ qazandırdığı kiçik səhnəciklərdən ibarətdir. "Çay dəstgahı" miniatür alleqorik pyes, əyləncəli uşaq dramıdır. Ədibin dramaturgiyasında bir pərdədən ibarət olub, konkret bir hadisəni və ya ideyanı əks etdirən kiçik pyeslər silsiləsi mövcuddur. "Oyunbazlar", "Lənət", "Lal" pyesləri miniatür pyes şəklində səhnəyə çıxarılmaq üçün yox, oxunmaq üçün yazılmış lezedramalardan ibarətdir. Cəlil Məmmədquluzadənin "Lal" pyesi Azərbaycan ədəbiyyatında pantomim miniatür pyesin bənzərsiz nümunəsidir.

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" tragikomediyası Azərbaycan ədəbiyyatında milli istiqlala, milli birlik və azərbaycançılıq ideallarına həsr olunmuş ən mükəmməl dram əsəridir. "Anamın kitabı" - milli-mənəvi özünüdərk, vətənçilik, milli birlik və müstəqillik dərsliyidir. "Anamın kitabı" - əsərdəki üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramıdır.

"Dəli yığıncağı" pyesində (1926) təqdim olunan "dəlilik" əslində şərti anlayış olub, mahiyyət etibarilə ruhi xəstəliyi deyil, ağıldan bəlanı və cəmiyyətdəki mənəvi-siyasi eybəcərliyi əks etdirir. Cəlil Məmmədquluzadə sətiraltı şəkildə yeni qurulmuş Şura Azərbaycanını "dəli yığıncağı" adlandırmışdır. Professor Əli Sultanlının "Ölülər"in məfkurəcə davamı" adlandırdığı "Dəli yığıncağı"nda İsgəndərin funksiyasını zorla, süni şəkildə gərgin vəziyyətlərə salınaraq həbsxanaya qatılmış Pırpız Sona obrazı yerinə yetirir. Mövzu və ideya etibarilə "Dəli yığıncağı"nın davamı kimi meydana çıxmış "Ər" pyesi (1930) ilə Cəlil Məmmədquluzadə ölülər və dəlilər aləminin məşhur trilogiyasını yaratmışdır. Böyük ədibin dram əsərləri son yüzillikdə Azərbaycan teatrlarında ən çox tamaşaya qoyulmuş əsərlərdir. Cəlil Məmmədquluzadə teatrı özünüdərketmə, mənəvi oyanış və ayıqlıq teatrı kimi hər zaman aktual və müasirdir.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin əsərləri ən böyük tirajlarla dəfələrlə nəşr olunmuş və xalqımızın mütaliəsində geniş yer tutan qiymətli ədəbi örnəklərdir. Yazıçının əsərləri Azərbaycan dilindən başqa rus, ingilis, fransız, alman, ispan, türk, ərəb, fars, urdu, macar, gürcü, özbək, türkmən və sair dillərdə kitab halında çap olunaraq dahi yaradıcısına dünya şöhrəti qazandırmışdır. Böyük ədibin həyatı və yaradıcılığına həsr edilmiş qiymətli tədqiqat əsərləri yazılıb nəşr olunmuş, dissertasiyalar müdafiə edilmişdir. Cəlil Məmmədquluzadənin müxtəlif vaxtlarda Azərbaycan dilində və xarici dillərdə çap olunmuş bədii əsərlərindən və yazıçının haqqında yazılmış elmi tədqiqat əsərlərindən mükəmməl bir kitabxana yaratmaq mümkündür.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin yaradıcılığına yüksək qiymət vermişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1994-cü ildə Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illik yubileyi mərasimində söylədiyi aşağıdakı fikirlərdə böyük demokrat ədibin yaradıcılığındakı milli dirçəliş və istiqlalçılıq ideyaları müasir dövrün çağırışları kimi nəzərə çarpdırılmışdır: "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə... Azərbaycan xalqının milli oyanışında əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlil Məmmədquluzadənin fəaliyyətinin rolu misilsizdir... Cəlil Məmmədquluzadənin yaradıcılığındakı Azərbaycanın bütün milli xüsusiyyətlərini, eyni zamanda ümumbəşəri dəyərləri əks etdirən fikirlər bizim milli ideologiyanın əsasıdır və həmin ideologiyanın yaranması üçün böyük bir vasitədir... Təsadüfi deyildir ki, onun yazılarındakı cümhuriyyət anlayışı bu gün bizim quracağımız demokratik, hüquqi dövlət prinsipləri ilə səsləşir... Cəlil Məmmədquluzadənin həyatı böyük təcrübə mənbəyidir, məktəbdir".

Ölkəmizdə Cəlil Məmmədquluzadənin parlaq adına və ölməz sənətinə böyük ehtiram bəslənilmişdir. Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərində ucaldılmış heykəli Azərbaycan monumental heykəltəraşlıq sənətinin qiymətli nümunəsidir. Respublikamızın paytaxtı Bakı şəhərində və Naxçıvanda yazıçının adını daşıyan küçələr və məktəblər onun xatirəsinə dərin ehtiramı ifadə edir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı respublikamızın əsas sənət məktəblərindən biri kimi fəaliyyətini uğurla davam etdirir. Ədibin anadan olmasının 100, 125, 140 illik yubileylərinin böyük sənət bayramı səviyyəsində qeyd edilməsi də qüdrətli sənətkara dövlət səviyyəsində bəslənilən böyük ehtiramın əyani ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görkəmli Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyi haqqındakı 17 yanvar 2019-cu il tarixli sərəncamı Azərbaycan dövlətində böyük demokrat ədibin ibrətamiz həyat yolu və zəngin bədii yaradıcılığına göstərilən yüksək ehtiramı, böyük diqqət və qayğını əməli surətdə əks etdirir. Prezident sərəncamında Cəlil Məmmədquluzadənin xidmətlərinə verilmiş yüksək qiymət onun böyük ideallarının həmişəyaşarlığını və müasirliyini parlaq surətdə əks etdirir.

*Müstəqil Azərbaycan Respublikası və xalqımız Cəlil Məmmədquluzadənin uğrunda dönmədən apardığı müstəqil dövlətçilik ənənələrini daha da inkişaf etdirib möhkəmləndirməklə ölməz sənətkarın adını və xatirəsini yaşatmağın nümunəsini göstərir.*

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın vitse-prezidenti,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

Sosial təhlil

Bir tanışımız var. Deyir ki, hər dəfə kəndə gedəndə qayıtmaq istəmir: "Təmiz hava, təbii ərzaq, öz ixtiyarında olan iş rejimi - bunları qoyub tüstü-dumanlı, səs-küylü, basırıq, qovhaqov şəhərə kim geri dönmək istər ki?!" Tanışımızın sözünə qüvvət olaraq onu da əlavə edək ki, bugünkü kəndimiz təkcə onun gətirdiyi arqumentlərlə cəlbedici deyil.

# Dolanışıq harada asandır

## Doğma kənddə, yoxsa yad şəhərdə





İndi kəndlərimizdə işıq, qaz, su, yol problemi, bazardan savayı kimsədən nə və nə qədər əkib-biçmək asılılığı, təftiş qorxusu, məmur müdaxiləsi yoxdur! Üstəlik indi kəndli qədər sözün yaxşı mənasında dili uzun, imkanları geniş istehsalçıya da rast gəlmək çətindir. Bunların üzərinə dövlətin kəndə və kəndliyə etdiyi digər sərfəli güzəştləri, maddi dəstəyi də gəlsək, onda tanışımızın şəhərə qayıtmaq istəməməsinə təəccüblənməyə qətiyyən yer qalmır. Necə qala bilər ki, əksər məhsulların istehsalına görə aldığı subsidiyalar, güzəştli qiymətlərlə verilən yanacaq, gübrə, toxum, texnika, damazlıq heyvan, azad edildiyi bütün növ vergilər və daha nələr, nələr hesabına kəndlinin bu gün şəhərdə "mənəm" deyən iş adamlarından, müxtəlif qurumlarda çalışan dövlət məmurlarından çox qazanmaq da olmasa, az qazanmamaq imkanı var və çox yaxşı haldır ki, bu imkandan istifadə edib varlanan kəndlilərin sayı sürətlə artır. Aran rayonlarında yaşayanlar bilməmiş deyillər - ötənilki mövsüm pambıqdan 40-60 min manat xalis qazanc götürən fermerlər oldu, özü də yüzlərlə. Digər sahələrdə, məsələn, baramaçılıqda, üzümçülükdə, taxılçılıqda, faraş tərəvəzçilik və meyvəçilikdə də qazanc pis deyil. Sadəcə, işləmək və bazarın nəbzini tutmaq lazımdır ki, dövlətin yaratdığı şəraitdən və verdiyi dəstəkdən yararlanıb güzəranını qurasan, daha bəziləri kimi doğma kənddəki torpağını, ev-eşiyini ya satıb, ya da atıb dolanışığı yad şəhərlərdə axtarmayasan.

Bəli, təəssüf ki, indi belə "kəndli"lərimiz də var və onların əksəriyyəti bütün cəhdlərinə baxmayaraq, şəhərin çoxsaylı problemlərinin sıxıntısından qurtula bilmir. Düzünü desək, heç qurtulmaq şansları da yoxdur. Haradan olacaq ki, əgər onlar geniş həyət-bacalarını dar-darısqal kirayə evlərə, dövlətdən sərfəli şərtlərlə ala biləcəyi təzə müasir texnikanı kreditlə götürdükləri köhnə, sınıq-salxaq maşına, gəlirli əkin-biçini, maldarlığı qazancı Allah ümidinə qalan "taksovatlığa", qara fəhləliyə, bir sözlə, rahat kənd həyatını əsəbi şəhər rejiminə qurban veriblərsə...

İndi taksi əlindən Bakıda tərpənmək olmur. Gedib görənlər deyirlər ki, digər şəhərlərimiz, rayon mərkəzlərimiz də bu sarıdan paytaxtdan geri qalmır. Hara baxırsan, hara gedirsən, "beli damalı" maşınlar qarşına çıxır, telefonda "ulduz"la hansı 3-4 rəqəmli nömrəni yığırsan "taksi xidməti" cavab verir. Saysız-hesabsız taksilər avtobus dayanacaqlarını, avtomobil duracaqlarını, yolları, səkiləri, yaşayış evlərinin və inzibati binaların qarşısını əməlli-başlı zəbt ediblər, həm də təkcə zəbt yox, iflic ediblər.

İnanmırıq ki, paytaxtda metronun "20 Yanvar" stansiyası ətrafına yolu düşməyən ola. Özümüz heç, amma kiminsə qonağının, yaxud hansısa turistin bu ərazidə baş verənlərin şahidi olmalarını istəməzdik. İstəməzdik ki, onların xüsusən son dövrlər adı hətta dünyanın ən yaraşıqlı şəhərləri ilə bir sırada çəkilən Bakı haqqında təəssüratları "20 Yanvar"da gördükləri ilə altüst olsun. Metronun bütün çıxışlarını ayrı-ayrı ərazilər, regionlar üzrə öz aralarında bölən həmin "didərgin kəndli" taksi sürücüləri gəlin görün, özlərinin dedikləri kimi, "bir tikə çörəkpulu" üçün nə oyunlardan çıxırlar. Biz qəsdən "nə əziyyət çəkirlər" yazmırıq. Çünki əziyyət çəkməkdən çox ətrafdakıların əsəbləri ilə oynayan "kəndli sürücülər" bu əzablı yolu özləri seçiblər. Adam nə qədər ... kim olmalıdır ki, gül kimi ev-eşiyini, bərəkətli torpağını, elini-obasını atıb bütün gününü metronun çıxışlarında camaatın qabağını kəsərək "bir nəfər" axtarmaqla keçirsin.

Amma nə olsun, soruşanda özlərindən savayı hamını borclu çıxarırlar. Guya onları bu vəziyyətə ehtiyac salıb. Yumşaq desək, düz danışmırlar. Əksəriyyətinin pay torpağı da var, həyətyanı sahəsi də. Sadəcə, tənbəllikdən düşüblər yollara. Fikirləşiblər ki, saatlarla "20 Yanvar"da, yaxud paytaxtın başqa məlum ərazilərində qışqıra-qışqıra müştəri axtarmaq əkib-biçməkdən, qoyun-quzuya baxmaqdan daha qazanclıdır.

Amma bu "qazanc"ın arxasında həm də paytaxtın imici durur axı... Adını çəkdiyimiz və çəkmədiyimiz ərazilərin təkcə sanitar vəziyyətinə nəzər salmaq kifayətdir ki, "rayon taksiləri"nin Bakını nə günə qoyduqları məlum olsun. Və qəribəsi də budur ki, onlara bu barədə "gözün üstə qaşın var" deyən yoxdur. Sanki yerli icra orqanları və nəqliyyata cavabdeh dövlət qurumları nümayəndələrinin neçə vaxtdır paytaxtın sözün bütün mənalarında başağrısına çevrilmiş bu vəziyyətdən xəbərləri yoxdur. Bəlkə də bu sayda kəndlinin doğma yurdunu atıb yad şəhərdə "taksovatlıq" etməsinin bir səbəbi elə onların bu cür lazımsız liberal mövqe nümayiş etdirmələridir. Vaxtında belələrinə qarşı qayda-qanun çərçivəsində tədbir görsəydilər, onlar da indi ruzilərini yollarda, küçələrdə yox, həmkəndliləri kimi, tarla və fermalarda qazanardılar.

Yaxşı, həmin məqam buraxıldı, bəzi kənd adamlarının səhv olaraq peşələrini dəyişməsinin müxtəlif üsullarla (məsələn, təbliğatla, izah etməklə, qanunların yol verdiyi inzibati tədbirlərlə) qarşısı alınmadı. Bəs onların paytaxtın və ölkənin digər şəhərlərinin küçələrdən yığıb seçdikləri fəaliyyət növü üçün hər cür demirik, heç olmasa zəruri şəraiti olan ərazilərə köçürülməməsinə nə ad qoyaq?!

Kimsə fikirləşə bilər ki, biz bu məsələnin üstünə çox gedirik və ümumiyyətlə, onun haqqında yazmaq istədiyimiz mövzuya aidliyi bir o qədər yoxdur. Bəlkə də belədir. Amma həm də belə deyil ona görə ki, bu, ilk baxışdan belə görünür. Kəndlinin, obrazlı desək, traktoru taksiyə dəyişməsi nə qədər təəssüf doğuran problemdirsə, onların şəhərlərimizin təkcə nəqliyyat sistemində yox, həmçinin abadlıq və səliqə-sahmanında yaratdıqları indiki durum bir o qədər ağrılıdır. Bununla belə, biz kəndi şəhərə qurban verənlərin hamısının taksi fəaliyyəti ilə məşğul olmaları iddiasından uzağıq. Nə çoxdur iri şəhərlərin, o cümlədən Bakının müxtəlif yerlərindəki işçi (camaat arasında tanınan məlum adı çəkməyi rəva bilmirik) bazarlarında saatlarla yox, günlərlə müştəri gözləyən kəndli-fəhlələr. Görünür, ümidlərini, deməli, həm də özlərinin və ailələrinin dolanışıqlarını təsadüfi cüzi qazanca bağlayan belələri üçün özgə qapısında qara fəhləlik etmək halal torpağını əkib-becərməkdən, mal-qaraya baxmaqdan daha "yaxşı"dır. Biz "yaxşı" sözünü təsadüfən dırnaqda yazmadıq. Yazıda bu işarə ilə işlədilən söz kinayə və eyhamdan savayı, həm də onun tam əksi mənasını vermək üçündür. Bu baxımdan bəzi kəndlilərin yaxşı ilə pisi, ağ ilə qaranı, öz ocağı ilə özgə qapısını seçə bilməmələri təəccüblə bərabər, təəssüf də doğurur.

Bəs nə və necə etməli ki, həmin o bəzi kənd adamının ayağı yad şəhərdən çəkilib doğma kəndə, yurda, torpağa dönsün? Bu yerdə qeyd edək ki, ötən əsrin 90-cı illərinə nisbətən indi belələrinin sayı elə də kritik həddə deyil. Kəndlərimizin kommunal-məişət infrastrukturunun yaxşılaşması, təsərrüfat işləri ilə məşğul olmaq üçün dövlət tərəfindən əlverişli şəraitin yaradılması, ümumilikdə aqrar sektora ən yüksək səviyyədə diqqətin artırılması, bu sahədə ardıcıl olaraq islahatların aparılması istər-istəməz əksər kəndlinin gözünü şəhərdən çəkir.

Bəzən isə əks proses gedir. İndi şəhərdə az-çox özünə sərmayə toplaya bilmiş iş adamları daha çox qazanmaq üçün kəndə üz tuturlar. Bu gün şəhərdə ad çıxarmış hansı sahibkarla maraqlansan, məlum olacaq ki, həm də aqrar biznesi var, özü də əməlli-başlı. Elə ona görə də bu gün kəndlərimizdə torpağın qiyməti 10-15 il əvvəlki kimi ucuz deyil, bahadır. Bu yerdə həmin illər hektarlarla torpağını satıb "taksovatlıq" etmək üçün köhnə maşın alanların peşmançılığını başa düşmək asandır. Asan olmayan nə isə varsa, o da hətta belə halda da güzəranlarını şəhərdə axtaranları anlamaqdır. Bu cür şəhər aşiqləri seçimlərinə bəraət qazandırmaq üçün nə qədər desən, bəhanə tapırlar - əkin-biçinin, heyvandarlığın sərfəli olmamasından torpaqların şəhər adamları tərəfindən tutulmasınadək.

Bax, "nəyi və necə etməli" sualına cavab vermək üçün onların əlindən həmin bəhanələri almaq lazımdır. Bilirik ki, axtaran üçün bəhanə tapmaq çətin deyil. Amma bütün hallarda hətta şəhərə meyilli olsa belə, kəndlinin umu-küsüsü qulaqardına vurulmamalıdır. Deyirsə ki, bu və digər sahə ilə məşğul olmağa ilkin vəsaiti yoxdur, ən azından onu istiqamətləndirmək gərəkdir. Söz düşmüşkən qeyd edək ki, ümumilikdə aqrar sektorun maliyyələşdirilməsini bir neçə bank olmayan kredit təşkilatının və Sahibkarlığın İnkişafı Fondunun boynuna qoymaq düzgün deyil. Bu işə kənd təsərrüfatında sığorta sistemini yoluna qoymaqla özəl bankları da cəlb etmək lazımdır, təbii ki, indiki görünməmiş faizləri ilə yox. Kommersiya banklarımızın bugünkü 25-30 faizlik kreditləri nəinki kəndlini, hətta bütünlükdə kənd təsərrüfatımızı müflis edər. Bu isə həm də o deməkdir ki, bir gözü şəhərdə qalan kəndlinin ilkin vəsait problemini dilə gətirməsində bəhanə qədər həqiqət payı da var.

Həqiqət payı həmçinin bəhanə axtarışında olan kəndlinin digər arqumentində - şəhərli iş adamlarının (bəzənsə özgə adla məmurların) aqrar bizneslərinin onlar üçün yaratdığı bəzi problemlərdə mövcuddur. Əgər çantasını yığıb hazırlamış kəndli bu köçün bir səbəbi kimi mal-qara saxlamaq üçün şəhərli iş adamlarının əlindən örüş yerinin qalmadığına eyham vurursa, bəhanə deyib bunu tam qəribçiliyə salmaq olmaz. Düzdür, qanunlarımız heç kimi sahibkarlıqla məşğul olmaq üçün ərazi seçimi sarıdan çərçivəyə salmır. Kim harada istəyirsə, orada da işini qura bilər. Bu baxımdan kiminsə hansısa kənddə biznes qurmasına qarşı çıxmaq düzgün olmazdı, xüsusən də həmin biznes dövlətin prioritet sahə elan etdiyi kənd təsərrüfatı məhsulları istehsalına yönəlibsə. Amma ortada bir insaf, ədalət də olmalıdır axı... Kim bilmir ki, şəhərli iş adamı ilə kəndli əkinçi, yaxud maldarın maddi imkanları eyni deyil və bərabərsizlik dövlətin məhsul istehsalçılarına etdiyi çoxsaylı güzəşt və verdiyi dəstəkdən birincilərin daha çox yararlanmasına səbəb olur?! Biz hələ bu tendensiyanın bəzi hallarda inhisarçılığa gətirib çıxardığını demirik. Ölkədə ara-sıra kənd təsərrüfatı məhsullarının qiymətlərində əsassız bahalaşmanın müşahidə olunmasının bir səbəbi də həmin o inhisarçılıq deyilmi?! Odur ki, bu sahədə şəhərli iş adamlarının müsbət işlərini saxlamaq şərti ilə kəndlinin xeyrinə tədbirlər görmək lazımdır, sözsüz ki, mövcud qanunlar çərçivəsində. Həmin tədbirlər kəndlinin bəhanəsini kəsmək adı ilə həyata keçirilsə belə, dövlətin aqrar sektorun qarşısına qoyduğu vəzifələrin icrası baxımından çox vacibdir.

Bunun üçünsə dövlətin həm iqtisadi təsir imkanları, həm də islahatlara köklənmiş siyasi iradəsi var. Tək Prezident İlham Əliyevin bu sahədə nümayiş etdirdiyi qətiyyət və ardıcıllıq kifayətdir ki, ölkənin mərkəzi və yerli icra orqanları aqrar sektorda qarşıya çıxan cari və qlobal məsələləri gecikmədən, özü də tərəddüdsüz, yuxarıdan göstəriş gözləmədən yoluna qoysunlar. İnsafən, Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyinə gənc, təşəbbüskar, qabaqcıl beynəlxalq təcrübəni mənimsəmiş kadrlar gətiriləndən sonra bu mərkəzi icra orqanının fəaliyyətində əməlli-başlı dönüş var. Hiss olunur ki, yeni rəhbərlik dövlət başçısının aqrar sektordan gözləntilərini reallaşdırmaq üçün ölkədə kənd təsərrüfatına, eləcə də kəndlinin özünə münasibəti yeni tələblər səviyyəsində dəyişmək istəyir və tədricən buna nail olur da. Prezidentin sərəncamı ilə ötən ilin mayında Kənd Təsərrüfatı Nazirliyinin yanında yaradılmış Aqrar Tədqiqatlar Mərkəzinin vəzifəsi və məqsədi də dolayısı yolla elə budur. Yüksək məhsuldarlığı, qida keyfiyyətini, davamlı ərzaq təhlükəsizliyini, təbii ehtiyatların və ətraf mühitin bütövlüyünü təmin etməklə innovativ kənd təsərrüfatı texnologiyalarını dəstəkləməklə və digər vacib işlərlə məşğul olan mərkəzin bir vəzifəsi də kənddən və kəndlidən gələn təklifləri, gileyləri eşidib onların təhlilini aparmaqdır. Bu baxımdan bəlkə indi 15-20 il əvvəlki qədər aktual görünməyən kəndlinin yaşayış yeri və peşəsini dəyişməyə meyilli olmasının kökləri dərindən araşdırılmalı və həmin köçün obyektiv səbəbləri varsa, aradan qaldırılmalıdır. Belə olarsa, həm kəndli ev-eşiyinə yığışıb bacardığı işin qulpundan yapışar, həm də şəhərlərimizin küçələrinə səliqə-sahman və bir də sözün hər mənasında dinclik gələr.

*Raqif MƏMMƏDOV,*
*"Azərbaycan"*

# Xalq-iqtidar birliyi ölkənin inkişafı üçün əsas şərtdir

Azərbaycan dövlətinin son illər nail olduğu nailiyyətlərin və uğurların təməlində, təbii ki, düşünülmüş siyasət, əmin-amanlıq, sabitlik dayanır. Bununla bərabər, iqtisadi sahədə aparılan islahatlar da mühüm yer tutur. Dövlət başçısının apardığı uğurlu siyasət nəticəsində bu gün neftdən asılılıq xeyli dərəcədə aşağı düşüb, ümumi daxili məhsulun böyük hissəsi isə qeyri-neft sektorunda yaranıb.
Ölkəmizdə aparılan islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Mötəbər beynəlxalq maliyyə qurumları öz proqnozlarını müəyyənləşdirərkən Azərbaycanın bundan sonra da uzun illər ərzində uğurlu inkişafını qeyd edirlər. Bu islahatlar, eyni zamanda, müxtəlif qurumların reytinqlərində də özünü göstərir.

## Kənd şəhərə yaxınlaşır - yaşayış daha da yaxşılaşır

Xalqın zəhməti, istedadı hesabına və düşünülmüş siyasət nəticəsində qısa müddət ərzində Azərbaycan böyük inkişaf yolu keçdiyini bu günlər bir daha təsdiq edir. Reallıqlar onu göstərir ki, dünya miqyasında Azərbaycan kimi sürətlə inkişaf edən ölkə azdır. Bu inkişafın nəticəsidir ki, Azərbaycan özünün müstəqil dövlət kimi varlığını nəinki Avropaya, dünyaya sübut etmək imkanına malikdir.

Uzağa getmək lazım deyil. Son illər ölkə rəhbərinin respublikanın ayrı-ayrı bölgələrinə səfərləri də bunu bir daha təsdiqləyir. Ucqar yaşayış məntəqələrinin də inkişaf etdirilib şəhərə yaxınlaşdırılmasında uğurlu sosial-mədəni inkişaf yolu keçilib. Yeni yollar salınıb, əhalinin maddi güzəranının yaxşılaşdırılması, torpaqlardan və digər mövcud ehtiyatlardan səmərəli istifadə etmək üçün lazımi layihələr reallaşdırılır. Sağlamlıq və mədəni həyatın təminatı günün aktual məsələləri kimi diqqət mərkəzində saxlanılır.

Azərbaycan Prezidentinin Beyləqan səfərində şahidi olduğumuz xalq-iqtidar səmimiyyəti isə bir daha onu təsdiqlədi ki, bu birliyi poza biləcək hər hansı qüvvə, yaxud ünsürlər nəinki baş qaldıra bilməz, heç onların mövcudluğuna imkan verilməz.

Telekanalların geniş yer ayırdığı həmin görüşlər xalqımızın öz müstəqil dövlətinə və ərazisinin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalan vətənə, eləcə də respublikamızı hərtərəfli inkişaf etdirən rəhbərinə dərin ehtiram, sadə, səmimi məhəbbətidir. Rəsmi, inzibati protokol qaydalarından kənarda əhali ilə dövlət başçısının "Azərbaycanım" mahnısının birlikdə ifası nəinki dünyagörmüş yaşlılarımızın, hətta yeni nəslin kövrələrək "Allah Sizi qorusun, cənab Prezident!" nidalarını səsləndirməsinə səbəb oldu.

"Sizə xidmət etməyə gəlmişəm" deyən dövlət başçısını öz balası kimi öpən ananın doğmasına etdiyi kimi, səmimi dualarına fikir verək: "Azərbaycanın fəxrisiniz. Səni bizə bəxş edən o kişiyə Allah rəhmət eləsin. Azərbaycanın gözəl oğlu, siyasətdə ən öndə duran balamız. Çox sağ ol. Sənin gəlişinə bütün nənələr qurban. Hər bir qüvvətli kişinin arxasında bir cəngavər qadın durur. Allah səni də, sənin arxanda dayanan Mehriban xanımı da qorusun. Hər ikinizə uğurlar arzulayıram... Nənələr, analar gecə-gündüz dua edirlər ki, qara qüvvələr Sizdən uzaq olsun..."

## Sevgi qayğıdan, məhəbbət sayğıdan doğur

Dövlət başçısına olan inamın qaynaqlandığı ünvanların sayı gündən-günə artmaqdadır. Avropalı diplomatları, ölkəmizə səfər edən əcnəbi turistləri və idman cəmiyyətinin aparıcı simalarını da heyran qoyan məhz xalq-hakimiyyət vəhdəti, amal və məqsəd birliyidir. Heç də əbəs yerə dünyanı iqtisadi, siyasi, humanitar burulğana düşmüş bir okeana, Azərbaycanı isə ortasında sabitlik, əmin-amanlıq, dinclik hökm sürən adaya bənzətmirlər. Doğrudan da, ölkəmizin inanılmaz dərəcədə inkişafını əsaslandıran bir sıra amillərin arasında xalq-iqtidar birliyinin əsas götürülməsi təsadüfi deyil.

Şəhid ailələrinə 11 min manat birdəfəlik ödəmələrin verilməsi prosesində yaranan problemin həlli ilə bağlı bu kateqoriyaya aid vətəndaşlarla görüşü və dövlət başçısının ahıl şəhid valideynlərinə göstərdiyi ehtiram, qayğı, onların vərəsələrinə verilən aylıq müavinətlərin 242 manatdan 300 manatadək artırılması, eləcə də minimum əməkhaqqının 130 manatdan 180 manatadək yüksəldilməsi ilə bağlı imzaladığı sərəncamlar ölkə vətəndaşının hər biri tərəfindən yüksək dəyərləndirilir.

"Real" televiziyasına müsahibəsində dövlət başçısı bu istiqamətdə atılan addımları dəyərləndirərkən vurğuladı ki, ölkəmizdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə analoqu olmayan bir yanaşma mövcuddur: "Köçkünlər üçün 100-dən çox şəhərcik tikilmişdir... Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilmişdir. Mən eşitməmişəm hansı ölkədəsə bu kateqoriyadan olan insanlara bu qədər dəstək göstərsin. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardım verilmişdir. Bu da dünya praktikasında analoqu olmayan bir yanaşmadır. Yəni bütün bunlar bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır".

Prezidentin şimal bölgəsində baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində tapşırıqlarının icrası ilə maraqlanmaq üçün Şamaxıya səfər edib evləri qəzalı vəziyyətə düşmüş sakinlərlə görüşü, onlara təskinlik verməsi, 92 yaşlı Saray nənə ilə uzun müddət xatirələrdən silinməyəcək maraqlı dialoqu xalqda bir daha əminlik yaratdı: dövlət və onun lideri hər zaman vətəndaşının yanındadır.

## Ölkədəki fikir rəngarəngliyi - demokratiyanın təzahürü

Hələ prezident seçkiləri öncəsi "Rəy" Monitorinq Mərkəzinin keçirdiyi sorğuda "İlham Əliyev sizin kimi insanların maraqlarına cavab verirmi" sualına respondentlərin 83 faizə yaxını "bəli" demişdi. Həmin cavab da məntiqlə bu fikri əsaslandırır: dövlət başçısı xalq tərəfindən sevilib və seçilib. "Xeyr, cavab vermir" cavabı rəyi soruşulanların cəmi 5 faizini təşkil edirdi. Bu da, əlbəttə, ölkədə demokratik cəmiyyətin inkişafı ilə əlaqədardır. Yəni insanlarin fikirlərini ifadə etməkdə azad və sərbəst olmalarının və səsvermə hüquqlarını bilmələrinin göstəricisi kimi dəyərləndirilirdi. Cavab verməyə tələsməyənlərin 4 faiz təşkil etməsi də təbii idi: ölkədə fikir yeknəsəqliyi yox, rəngarəngliyi var ki, bu da, əslində, elə demokratiyanın təzahürüdür. Qalan 8 faizin sorğuya cavab verməkdə çətinlik çəkmə səbəblərinə gəlincə, əlbəttə, rəyi soruşulanların heç də hamısının ictimai-siyasi proseslərdə fəal olmamasının nəticəsi idi.

Ölkəmizdə ictimai proseslər bu gün də müsbət istiqamətdə inkişaf edir. Baxmayaraq ki, sosial şəbəkələrdə bəzi antiazərbaycançı şəbəkənin vassalları erməni dəyirmanına su tökməyə çalışır. Azərbaycanda vətəndaş cəmiyyəti tam formalaşıb. Azad cəmiyyət mövcuddur. Bütün azadlıqlar təmin edilib. Bunlar isə uğurlu inkişafın əsasıdır. Dünyanın müxtəlif yerlərində qanlı toqquşmalar, müharibələr, böhranlar yaşanır. Dondurulan, yaxud diqqət yetirilməyən məhəlli və milli münaqişələr həll edilmir, əksinə, yeniləri yaradılır. Lakin ölkəmizdə sabitliklə, düşünülmüş siyasətlə inkişaf yolu seçilir. Azərbaycan bu gərgin məkanda nəinki sabitlik adasıdır, eyni zamanda, sabitləşdirici amildir. Azərbaycanın özünün yerləşdiyi bölgəyə çox müsbət təsiri var. Siyasi, iqtisadi, enerji, nəqliyyat təşəbbüsləri regional əməkdaşlığın əsasını təmin edir və burada Azərbaycanın rolu artır. Təbii, bütün bunlar xalqımızı sevindirir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*

Dövlət başçısına minnətdarlıq

# Avtomobil hədiyyə edilən əlillərin arasında xocalılılar da var

Əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Dövlət başçısının tapşırığı ilə ötən il avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi keçirilib. Ümumilikdə 136 nəfərə Neftçala Sənaye Parkında fəaliyyət göstərən "Azərmaş" MMC tərəfindən istehsal olunan "Khazar LX" avtomobilləri paylanılıb. Onlardan 110-u ölkənin ərazi bütövlüyünün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə Böyük Vətən müharibəsi və Çernobıl əlilləridir.

"Khazar LX" avtomobillərinin açarlarının sahibləri sırasında Xocalı rayonunun Kosalar kənd sakinləri, II qrup Qarabağ müharibəsi əlilləri Abdullayev Elman Eldar oğlu, Məmmədov Natiq Kamal oğlu və Əhmədov Vüqar Qiyas oğlu da var. Dövlət başçısının bu humanist addımından böyük sevinc və fərəh hissi keçirən avtomobil sahibləri öz təəssüratlarını belə bildirirlər.

**Elman Abdullayev:** "Ölkə Prezidenti cənab İlham Əliyev hər zaman məcburi köçkünləri, o cümlədən Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərini və şəhid ailələrini diqqət mərkəzində saxlayır, onların problemlərinin həlli üçün lazımi tədbirlər görür. Bizə göstərilən diqqət və qayğıya görə dövlətimizə və cənab Prezidentimizə minnətdarlıq edirik".

**Natiq Məmmədov:** "Biz vətən yolunda çəkdiyimiz əziyyətlərə görə qarşılıq gözləməsək də, dövlətimiz tərəfindən qiymətləndirildiyimiz üçün çox sevinirik. Əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı nəticəsində onların sosial vəziyyəti gündən-günə yaxşılaşır. Bizə hədiyyə edilən avtomobillər göstərilən diqqət və qayğının bariz nümunəsidir".

Vüqar Əhmədov: "Bizim ailənin avtomobilə ehtiyacı var idi. Avtomobilin verilməsi hər birimizi sevindirdi. Buna görə də ailə üzvlərim və öz adımdan Prezident İlham Əliyevə, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, işğal olunmuş torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmən tapdağından azad edəcəyik".

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Məzəm kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistana məxsus taktiki pilotsuz uçuş aparatı məhv edilib



ATƏT-in Minsk qrupu həmsədrinin Azərbaycana səfəri çərçivəsində Ermənistan tərəfi növbəti təxribat törədib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, fevralın 21-də günorta saatlarında cəbhənin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib.

Düşmən PUA-sı Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən dərhal aşkarlanaraq zərərsizləşdirilib.

# DTX-nin arxiv fondlarında saxlanılan tarixi əhəmiyyətli sertifikatların təqdim olunması ilə əlaqədar tədbir keçirilib

Bu il martın 28-də Azərbaycan təhlükəsizlik orqanlarının yaranmasının 100 illiyi tamam olur. Bu əlamətdar tarix münasibətilə keçirilən tədbirlər çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasındakı “Şöhrət” muzeyində İkinci Dünya müharibəsi zamanı Avropa Müqavimət Hərəkatında göstərdikləri xüsusi şücaətə görə vaxtilə Fransa və İtaliya hökumətləri və hərbi komandanlıqları tərəfindən “Vətənpərvərin sertifikatı” ilə təltif edilmiş azərbaycanlı partizanların vərəsələrinə DTX-nin arxiv fondlarında saxlanılan həmin sertifikatlar (şəhadətnamələr) təqdim olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev, Milli qəhrəmanlar, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez, İtaliyanın Azərbaycandakı konsulu xanım Anna Mariya Bianççi, DTX-nin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, İkinci Dünya müharibəsinin veteranları, azərbaycanlı partizanların övladları, “ASAN Könüllüləri” Təşkilatının üzvləri, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının nümayəndələri, akademiyanın müəllim və kursantları iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək abidəsi önünə əklil qoyublar. Qonaqlar “Şöhrət” muzeyində dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotostendlər və ekspozisiyalar ilə tanış olublar. Onlara ulu öndərin təhlükəsizlik orqanlarına və Azərbaycana rəhbərlik etdiyi, SSRİ kimi nəhəng bir dövlətin siyasi olimpində təmsil olunduğu, müstəqil respublikamızın memarı və qurucusu kimi fəaliyyət dövrünü əhatə edən arxiv materialları, orijinal tarixi sənədlər barədə ətraflı məlumat verilib.

Tədbir faşizmə qarşı mübarizədə, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəman Vətən övladlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb. Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

DTX-nin arxiv-uçot idarəsinin rəisi Ceyhun İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan milli atıcı diviziyalar Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Polşa, Çexoslovakiya, Yuqoslaviya, Fransa, İtaliya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb.

Bildirilib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz ulu öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 May - Qələbə Günü qeyd olunur.

Xüsusi vurğulanıb ki, İtaliya və Yuqoslaviyada partizan hərəkatında faşizmə qarşı mübarizə aparmış “Mixaylo” ləqəbli Mehdi Hüseynzadə ilə bağlı arxivlərdə saxlanılan materialları dahi rəhbər Heydər Əliyev hələ təhlükəsizlik orqanlarında işlədiyi dövrlərdə araşdırıb. Məhz ulu öndərin gərgin səyi və əməyi, qətiyyəti sayəsində toplanmış sənədlər keçmiş SSRİ-nin ali rəhbərliyinə təqdim edildikdən sonra Mehdi Hüseynzadənin partizan hərəkatında göstərdiyi şücaət və qəhrəmanlıqlar nəzərə alınaraq, 1957-ci ildə ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilib, onun haqqında bədii film çəkilib və əsərlər yazılıb. Ümummilli liderin respublikaya rəhbərliyi dövründə isə Bakıda Mehdi Hüseynzadənin möhtəşəm abidəsi ucaldılıb.

Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. Qələbə bayramı ərəfəsində dövlət başçısı müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Prezident İlham Əliyevin hər il imzaladığı sərəncamla 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına birdəfəlik maddi yardımlar verilib, bu qəbildən olan insanlara xüsusi Prezident təqaüdünün aylıq məbləği daha da artırılıb. Bütün bunlar bir daha göstərir ki, müharibə veteranlarına qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Məhz bunun bariz nümunəsidir ki, dövlət başçısı gənc nəslin Vətənə sədaqət və qəhrəmanlıq ruhunda tərbiyə edilməsində xüsusi əhəmiyyətini nəzərə alaraq, yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçı, əfsanəvi partizan Mehdi Hüseynzadənin anadan olmasının 100-cü ildönümünün qeyd olunması barədə ötən il sərəncam imzalayıb. Bu sərəncam xalqımız tərəfindən dövlətin təhlükəsizliyinin, Vətənin müdafiəsində və sərhədlərinin toxunulmazlığının keşiyində dayanan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan əsgəri üçün vətənpərvərlik nümunəsi, habelə şanlı qəhrəmanlıq tariximizə verilən ali qiymət kimi qəbul edilir.

C.İbrahimov qeyd edib ki, İkinci Dünya müharibəsi illərində ön cəbhədə faşizmə qarşı mərdliklə döyüşən azərbaycanlı əsgər və zabitlərin bir qismi müharibənin acı həqiqətlərini öz həyatlarında yaşamağa məcbur olublar. Bəzən qüvvələrin bərabər olmadığı qanlı döyüşlər zamanı alman ordusuna əsir düşənlər də olub. Lakin heç bir zaman düşmənə boyun əyməyən bir xalqın övladları kimi azərbaycanlıların əksəriyyəti sonradan müxtəlif əsir düşərgələrindən qaçaraq Avropanın ölkələrini əhatə edən silahlı Antifaşist Müqavimət Hərəkatına qoşulublar. Dili, dini, siyasi baxışları fərqli olan on minlərlə insanı birləşdirən bu hərəkat xalqların humanizm ideyaları və ümumbəşəri dəyərlər uğrunda mübarizəsində nadir tarixi nümunələrdəndir. Azərbaycanlı partizanlar müxtəlif millətlərin nümayəndələri ilə çiyin-çiyinə qəhrəmancasına vuruşaraq işğal olunmuş şəhər və kəndlərin, ölüm düşərgələrində saxlanılan əsirlərin azad edilməsində, faşist qoşunlarına məxsus strateji obyektlərin məhv edilməsində və digər döyüş əməliyyatlarında fəal iştirak ediblər. Həmin illərdə qəhrəmanlıqlar göstərmiş digər həmyerlimiz İtaliyanın ali hərbi mükafatı olan qızıl “Haribaldi ulduzu” və “Şöhrət” ordenlərinin kavaleri Məmməd Bağırov, partizanlar arasında “Armed Mişel” adı ilə məşhurlaşmış “Xarqo” təxəllüslü, Fransanın “Fəxri legion” ordeni, müxtəlif orden və medallarına layiq görülən Əhmədiyyə Cəbrayılov və yüzlərlə digər igid həmyerlilərimiz Avropa Antifaşist Müqavimət Hərəkatının ən tanınmış nümayəndələri hesab edilirlər. Qürurvericidir ki, qəhrəman azərbaycanlıların adları bu gün də həmin ölkələrdə hörmətlə xatırlanır və yad edilir.

Təəssüflə qeyd olunub ki, müharibə dövründə, eləcə də ondan sonrakı illərdə Avropa Antifaşist Müqavimət Hərəkatının əhatə etdiyi ölkələrin ali hökumət orqanları və hərbi komandanlıqları tərəfindən hərəkatda fəal iştirak etmiş azərbaycanlı partizanların şücaət və igidliklərini təsdiqləyən şəhadətnamələr (sertifikatlar) onlara təqdim olunması üçün Sovet İttifaqına göndərilsə də, bu əhəmiyyətli sənədlər uzun illər arxiv fondlarında gizlədilib. Müharibə illərində alman faşistlərinə əsir düşmüş, lakin qaçmağa nail olan və partizan hərəkatına qoşularaq fədakarlıq nümunələri göstərmiş bir çox həmyerlilərimiz Vətənə qayıtdıqdan sonra uzun illər incidilib, onlara sovet hakimiyyəti tərəfindən inamsızlıq və etimadsızlıq nümayiş etdirilib.

Bildirilib ki, bugünkü tədbirin məqsədi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla həyata keçirilən siyasətin mühüm tərkib hissəsi kimi, irs-varislik prinsipinə, milli yaddaşın bərpasına, o cümlədən Vətən uğrunda döyüşmüş həmvətənlərimizə və onların ailə üzvlərinə diqqət və qayğının növbəti nümunəsi olaraq, faşizmə qarşı Avropa Müqavimət Hərəkatında igidlik və rəşadət göstərmiş cəsur azərbaycanlı partizanlara vaxtilə İtaliya və Fransa hökumətləri tərəfindən verilmiş sertifikatlar onların övladlarına təqdim olunmasıdır. Uzun illərdən sonra bu çox mühüm tarixi və ictimai əhəmiyyət kəsb edən sənədlərin öz sahiblərinə çatdırılması həm də dövlətimiz tərəfindən tarixi ədalətin bərqərar edilməsinin daha bir bariz təcəssümüdür.

C.İbrahimov bildirib ki, hazırda Azərbaycan Respublikası müstəqil və suveren bir ölkə olmaqla həm yürütdüyü uğurlu siyasətə, həm də sürətli iqtisadi inkişaf tempinə görə dünya siyasi arenasında böyük hörmətə və nüfuza malikdir. Qətiyyətlə əminik ki, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə tezliklə Azərbaycanın ərazi bütövlüyü, eləcə də əzəli və tarixi torpaqları olan Qarabağda dövlətimizin beynəlxalq hüquqla təsbit edilmiş suverenliyi də təmin olunacaq, haqq-ədalət zəfər çalacaq.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı belə tədbirlərin vacibliyini vurğulayaraq qeyd edib ki, indiyədək elmi ictimaiyyətə bəlli olmayan bu tarixi sənədlərin təqdim olunması böyük ictimai hadisədir və çox təqdirəlayiqdir. Vətən tarixşünaslığında azərbaycanlıların partizanların müqavimət hərəkatında iştirakına dair kifayət qədər nəşrlər var. Muzeylərdə xalqımızın tarixi yaddaşına dair nadir sənədlər, materiallar saxlanılır. Həmin eksponatların böyük hissəsi azərbaycanlıların Avropa xalqlarının azadlığı uğrunda faşizmə qarşı müqavimət hərəkatında iştirakına şahidlik edib. Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında bu hərəkatın onlarla qəhrəman azərbaycanlı oğullarına məxsus sənədlər, fotoşəkillər və şəxsi əşyalar qorunur. Azərbaycana qarşı informasiya müharibəsi aparan qüvvələr tariximizin bu şanlı səhifəsini silməyə, qəhrəmanlarımızın adlarını ləkələməyə çalışırlar. Odur ki, tariximizin belə şərəfli səhifələrinin qəhrəmanlarının yaddaşlarda həkk olunması üçün əlimizdən gələni etməliyik.

Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez Avropa Müqavimət Hərəkatının iştirakçılarının, o cümlədən leytenant Bayandur Hacıyevin xatirəsinin yad olunduğu belə mühüm tədbirdə iştirakdan qürur hissi keçirdiyini bildirib. Qeyd edib ki, azərbaycanlı partizanın keçdiyi döyüş yolunun timsalında İkinci Dünya müharibəsi zamanı Fransada döyüşmüş, beləliklə, qələbəyə böyük töhfələr vermiş bütün qəhrəmanların xatirəsini yad etmək bizim əsas vəzifəmizdir. Bütün sosial təbəqələrdən, müxtəlif ölkələrdən olan vətəndaşlar Fransa Müqavimət Hərəkatında iştirak ediblər. Bu tədbir qəhrəmanlarımızın təbliği, ümumi yaddaşımız üçün çox vacibdir. Müqavimət hərəkatının iştirakçıları ölkələrimiz və xalqlarımız arasında ümumbəşəri dəyərlərin və sülhün qorunmasının rəmzləridirlər. Birgə dəyərlərə sadiq qalaraq iki ölkənin xalqlarının inkişafının möhkəm özəyini təşkil edən və keçmişdə çiyin-çiyinə mübarizə aparmış döyüşçülərə hörmətlə yanaşmaq hamımız, o cümlədən Fransa üçün böyük şərəfdir.

İtaliyanın Azərbaycandakı konsulu xanım Anna Mariya Bianççi diqqətə çatdırıb ki, bir vaxt keçmiş SSRİ-nin tərkibində olan, indi isə müstəqil dövlət olan Azərbaycandan yüzlərlə döyüşçü İtaliya müqavimət hərəkatında iştirak edib. Azərbaycanlıların Fransa və İtaliya müqavimət hərəkatlarında iştirakı geniş təbliğ olunmalıdır. Azərbaycan zəngin neft ehtiyatları və strateji mövqeyinə görə faşistlərin işğalçılıq siyasətinin mərkəzində yer alırdı. Hitler SSRİ-yə hücum etdiyi vaxtdan etibarən azərbaycanlılar və digər xalqlar faşistlərə qarşı vuruşmağa başlayıblar. Azərbaycanın və bu xalqın övladlarının müharibənin qazanılmasına töhfəsi böyükdür. Onların qəhrəmanlıqları barədə çoxsaylı hekayələr, nəşrlər mövcuddur.

Tədbirdə iştirakına görə məmnunluğunu bildirən Anna Mariya Bianççi belə görüşlərin Azərbaycan ilə İtaliya arasındakı dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycanlı partizan Bayandur Hacıyevin oğlu Nicat Hacıyev ailə üzvləri adından Prezident İlham Əliyevə, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyevə və bu işdə əməyi olan Xidmətin əməkdaşlarına minnətdarlığını bildirib. Qeyd edib ki, partizanların vərəsələri üçün arzuolunan araşdırma nəhayət, dövlətçiliyimizin keşiyində ayıq-sayıq dayanan DTX tərəfindən həyata keçirilib. O, Fransa və İtaliya xalqlarına da minnətdarlığını bildirərək atasının və digər azərbaycanlıların fədakarlığını, qəhrəmanlığını yüksək qiymətləndirilməsindən məmnunluğunu diqqətə çatdırıb.

O, təəssüf hissi ilə qeyd edib ki, məkrli qonşularımız öz çirkin niyyətlərindən əl çəkməyərək azərbaycanlıların qəhrəmanlıqlarını, fədakarlıqlarını min bir hiylə ilə ört-basdır etməyə çalışıblar. Lakin Azərbaycan övladları tarix boyu şöhrətə görə yox, məhz torpağa və xalqa görə vuruşduqlarını sübut ediblər. Mənə bu yaşımda atamı ikinci dəfə qəhrəman kimi görməyə kömək etdiyiniz üçün hər kəsə minnətdarlığımı bildirirəm.

Sonra Avropa Müqavimət Hərəkatında göstərdikləri xüsusi şücaətə görə “Vətənpərvərin sertifikatı” ilə təltif edilmiş azərbaycanlı partizanların övladlarına DTX-nin arxiv fondlarında saxlanılan sertifikatlar təqdim olunub. Sertifikatları general-polkovnik Mədət Quliyev, akademik Nailə Vəlixanlı, səfir Orelia Buşez və konsul Anna Mariya Bianççi azərbaycanlı partizanlar - Allahqulu Quliyevin, İbrahim İbrahimovun, Əbdürəhman Novruzovun, Feyzulla İsmayılovun, Bayandur Hacıyevin və Famil Məmmədovun övladlarına təqdim ediblər.

# “Azərişıq” ASC növbəti karvanı Xəzər rayonuna yola salıb





“Azərişıq” ASC 2019-cu ilin tədbirlər planı çərçivəsində Bakıətrafı kənd və qəsəbələrin elektrik təchizatı şəbəkəsinin yenidən qurulması işlərini davam etdirmək üçün daha bir yük karvanını yola salıb. Minlərlə dayaqlardan, yeni komplekt transformator məntəqələrindən, kilometrlərlə uzunluqda kabellərdən və digər zəruri avadanlıqlardan ibarət yükü “Azərişıq” ASC-nin mərkəzi təchizat anbarından götürən ağırtonnajlı yük avtomobilləri Bakının Xəzər rayonunun qəsəbələrinə istiqamət alıb.

Bu maşın karvanının apardığı avadanlıqlar və materiallarla rayonun Binə qəsəbəsinin yeni salınan məhəllələrinin və bəzi digər yaşayış məntəqələrinin elektrik təsərrüfatı yenilənəcək.

“Azərişıq” ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirib ki, maşın karvanının apardığı yükə 10 ədəd KTM (Komplekt transformator məntəqəsi), bir neçə min km. elektrik verilişi xətləri, 7 min ədəd dəmir-beton dayaqlar, SİP-kabellər və s. daxildir.

T.Mustafeyevin sözlərinə görə, “Azərişıq” ASC tərəfindən ölkə Prezidentinin göstərişi əsasında Azərbaycanın regionlarının, Bakı şəhəri və onun ətraf qəsəbə və kəndlərinin elektrik təsərrüfatında silsilə və kompleks yenidənqurma tədbirləri uğurla davam etdirilir.

“Biz bu barədə vaxtaşırı olaraq məlumatlar veririk. Əslində, Bakıətrafı kənd və qəsəbələrin elektrik təchizatı şəbəkəsi bir neçə il əvvəl tamamilə yenidən qurulub, nəticədə sakinlərin elektrik enerjisi ilə sutkanın 24 saatı boyu keyfiyyətli, dayanıqlı təchizatı təmin olunub. Lakin Bakıətrafı kənd və qəsəbələr sürətlə böyüyür, hər il minlərlə yeni fərdi evlər, müxtəlif obyektlər tikilir. Nəticədə bəzi ərazilərdə möcvud şəbəkələrdə yüklənmələr artır, yaxud yeni salınan yaşayış məhəllələrinin elektrik təchizatı şəbəkəsini qurmaq zərurəti yaranır. O cümlədən, Xəzər rayonu üzrə bir sıra ərazilərdə yenidənqurma işlərinə zərurət yaranıb. Hazırda bu rayon üzrə abonentlərin sayı 80 mindən yuxarıdır, onların 30 mindən çoxu təkcə Binə qəsəbəsinin payına düşür. Rayona göndərilən avadanlıqlar, materiallar hesabına Xəzər rayonunun elektrik enerjisi təchizatı daha da yaxşılaşdırılacaq, aparılan yenidənqurma işləri yüklənmələrin azalmasına və texniki itkilərin minimuma endirilməsinə səbəb olacaq”- deyə T.Mustafayev bildirib.

Xatırladaq ki, bu, 2019-cu ilin əvvəlindən bəri “Azərişıq” ASC tərəfindən genişmiqyaslı yenidənqurma işləri üçün yola salınan onuncu maşın karvanıdır. Bundan əvvəl Beyləqan, Ağstafa, Ağsu, Şamaxı, Qəbələ, Cəlilabad, Lənkəran, Sabirabad rayonlarına və Bakının Binəqədi rayonunun “Kənd Binəqədi”, Sulutəpə və Xocasən, habelə Biləcəri qəsəbələrinə belə karvanlar yola salınıb.

“Azərişıq” ASC ötən il Bakının Masazır, Məhəmmədi, Yeni Saray, Ceyranbatan və digər ətraf qəsəbələrində yenidənqurma işlərini yekunlaşdırıb. Nəticədə həmin qəsəbələrin sonradan salınan məhəllələrində yaşayan abonentlərin elektrik enerjisi ilə fasiləsiz təchizatı təmin olunub. “Azərişıq” ASC ölkənin regionlarında, ucqar dağlıq bölgələrində də elektrik təchizatı şəbəkəsinin yenidən qurulması işlərini davam etdirib. Bu işlərin 2019-cu il ərzində də fasiləsiz davam etdirilməsi nəzərdə tutulur. Qeyd edək ki, 2019-cu ilin tədbirlər planı tərtib olunub və həmin plan çərçivəsində işlər bu cür sistemli şəkildə həyata keçiriləcək.

*“Azərbaycan”*

## BİLDİRİŞ

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun tender komissiyası tərəfindən avtonəqliyyat vasitəsinin satın alınması barədə 2019-cu il 5 yanvar tarixli elan üzrə təklif göndərən iddiaçıların sayı üçdən az olduğu üçün “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən tenderin davamından imtina edilmişdir

***Tender komissiyası***

# Azərbaycanın dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması sahəsində tədbirlər uğurla davam etdirilir.

Son günlərdə 14 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində alınıb.

Belə ki, yanvarın 31-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Daşkənd-Bakı reysi ilə uçub gələn Özbəkistan vətəndaşları 1989-cu il təvəllüdlü Muzaffar Radjabovun və 1993-cü il təvəllüdlü Mukhira Abdurasulovanın sərhəd naryadına təqdim etdikləri sənədlərdə saxtalaşdırma əlamətləri aşkarlanıb. Ətraflı yoxlama zamanı şübhələr təsdiqini tapıb.

Fevralın 2-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bağdad-Bakı-Frankfurt reysi ilə tranzit gedən 1963-cü il təvəllüdlü Kassar Ahwood Attianın təqdim etdiyi İsveç pasportunun saxta olması aşkarlanıb. Şəxsin üzərinə baxış zamanı İraq vətəndaşı 1951-ci il təvəllüdlü Huda Esttaifan İssaya məxsus pasport aşkarlanıb.

Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Doha-Bakı reysi ilə uçub gələn Pakistan vətəndaşı 1975-ci il təvəllüdlü Laiq Xanın təqdim etdiyi AB4004112 nömrəli pasportun 1988-ci il təvəllüdlü Gopang Din Muhammada məxsus olması müəyyənləşdirilib. Şəxsin üzərinə baxış zamanı ona məxsus Pakistan sürücülük vəsiqəsi aşkarlanıb.

Fevralın 4-də “Xanoba” dövlət sərhədindən buraxılış məntəqəsində Rusiya Federasiyasından Azərbaycan Respublikasına gələn Ukrayna vətəndaşı 1974-cü il təvəllüdlü Bədəlova Diləfruzun sərhəd nəzarətinə təqdim etdiyi pasportunun saxtalaşdırılması müəyyən olunub.

Bundan iki gün sonra Heydər Əliyev Beynəlxalq Aeroportunda Moskva-Bakı reysi ilə uçub gələn Özbəkistan vətəndaşı 1979-cu il təvəllüdlü Bibigül Şoevanın pasportunda saxtalaşdırma əlamətləri aşkar edilib.

Fevralın 8-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Kiyev-Helsinki reysi ilə tranzit gedən Pakistan vətəndaşı 1996-cı il təvəllüdlü Abideen Zain Ulun sərhəd nəzarətinə təqdim etdiyi Portuqaliyaya məxsus daimi yaşayış kartının saxta olduğu müəyyən edilib.



Həmin gün Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Kiyev-Helsinki reysi ilə tranzit gedən Pakistan vətəndaşı 1988-ci il təvəllüdlü Sheikh Muhammad Avvaisin təqdim etdiyi İtaliyaya məxsus daimi yaşayış kartının saxta olduğu aşkarlanıb.

Fevralın 10-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Moskva-Bakı reysi ilə gələn Özbəkistan vətəndaşı 1978-ci il təvəllüdlü Murodova Dilovarın sərhəd nəzarətinə təqdim etdiyi pasportunun saxtalaşdırması müəyyənləşdirilib.

Fevralın 13-də “Samur” dövlət sərhədindən buraxılış məntəqəsində Rusiya Federasiyasından Azərbaycan Respublikasına gələn Özbəkistan vətəndaşı 1987-ci il təvəllüdlü Boynazarov Ozodun pasportunun saxtalaşdırılması aşkarlanıb.

Fevralın 14-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul reysi ilə uçub gedən Pakistan vətəndaşları 1985-ci il təvəllüdlü Salem Waqas və 1997-ci il təvəllüdlü Khadim Saadın sərhəd nəzarətinə təqdim etdikləri pasportlara vurulmuş Danimarkaya məxsus Şengen vizasının tam saxta olması müəyyənləşdirilib.

Fevralın 14-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-İstanbul-Vankuver reysi ilə uçub gedən Hindistan vətəndaşı 1998-ci il təvəllüdlü Akaşdeep Sinqhin pasportuna vurulmuş Kanadaya məxsus vizanın tam saxta olduğu aşkarlanıb.

Fevralın 15-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Frankfurt reysi ilə uçub gedən Türkiyə vətəndaşı 1990-cı il təvəllüdlü Durmaz Remzinin sərhəd nəzarətinə təqdim etdiyi Bolqarıstana məxsus pasportun saxta olmasına şübhə yaranıb və laboratoriya şəraitində yoxlanılan zaman təsdiqini tapıb.

Saxlanılmış şəxslər barəsində müvafiq tədbirlər görülüb.

* * *

Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində beş nəfər Şri-Lanka vətəndaşının dövlət sərhədini pozma cəhdinin qarşısı alınıb.

Fevralın 17-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Biləsuvar kəndinin ərazisindəki sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədini pozaraq Azərbaycan Respublikasından İran İslam Respublikasına keçməyə cəhd edərkən Şri-Lanka vətəndaşları 1991-ci il təvəllüdlü Micheal Fernando Romos, 1995-ci il təvəllüdlü Senrobert Roniksan, 1992-ci il təvəllüdlü Navaratnam Kacamuqan, 1994-cü il təvəllüdlü Anton Mariyadas Pilipraj və 1995-ci il təvəllüdlü Penad Mohanraj Mathusan sərhəd pozucusu qismində saxlanılıblar.

Saxlanılan şəxslərin 2018-ci il dekabrın 16-da rəsmi qaydada Birləşmiş Ərəb Əmirliklərindən Sarja-Bakı reysi ilə Azərbaycan Respublikasına gəlmələri müəyyən olunub. Araşdırma zamanı Şri-Lanka vətəndaşları dövlət sərhədini pozaraq İrana, oradan isə Türkiyəyə keçmək niyyətində olduqlarını bildiriblər.

Sərhəd pozucuları barəsində cinayət işi başlanılıb və barələrində həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri aparılır.

DSX dövlət sərhədinin təhlükəsizliyinin təmin edilməsi və qeyri-leqal miqrasiyaya qarşı mübarizə sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini davam etdirir.




# XX əsrin faciəsi - Xocalı soyqırımı








## Güllələnən kəndlər, şəhid olan Xocalı

Ağır və keşməkeşli günlər başlamışdı. Qarabağın kəndləri yavaş-yavaş güllə yarası alırdı. Doğrudur, bu yaralar hələlik ölümcül deyildi. Lakin sağalacağına da ümid az idi. 90-cı ilin qanlı şənbə günü baş verən faciələrdən sonra adamlarda olan adi quş tüfənglərini də yığmışdılar. Bir tərəf əlisilahlı, o biri isə əliyalın! Bir tərəf ürəkli, arxasında Qorbaçov dayanıb, o biri tərəfin isə haqq sözünü deməyə ixtiyarı çatmırdı. Desəydi də, fərqi yox idi. Səsi öz evindən, öz küçəsindən, öz kəndindən kənara çıxası deyildi.



Təmkin, yenə təmkin tələb olunurdu. Özümüzü aldada-aldada öz halal haqqımızdan aralı düşdük. Qarabağın kəndləri mühasirə vəziyyətində boğulurdu. Quyunun dibindəki Məlikməmməd kimi, “yandım” dedikcə də ipini bir qədər də uzadırdılar ki, nəhayətsizliyə düşsün. Ancaq Məlikməmməddən fərqli olaraq, xalqı sehrli qırxıncı qapı gözləmirdi. Bu qırxıncı qapının yolunu kəsənlər daha məkrli, daha vəhşi idilər. Meşəlinin, Cəmillinin yarasından qan axırdı. Kömək isə yox idi. Artıq dövlət səviyyəsində verilən başsağlıqlarına, matəm günləri elan olunmasına alışmışdıq. Əsl faciə bu idi ki, baş verənlərə tabe olmağa, az qala olacağa çarə yoxdur kimi fikirləri qəbul etməyə vərdiş edirdik. İlk qurban Meşəli kəndinin dinc əhalisi oldu. Doğrudur, bu vaxta qədər çox adam öldürülmüş, evlər dağıdılmışdı, lakin ilk kütləvi qırğın Meşəlidən başladı. Sonrakı qırğınlar daha amansız idi. Çünki bu qırğınlar erməni əli ilə yazılsa da, sovet dəsti-xətti aydın oxunurdu. Axı 1990-cı ilin 20 Yanvar “ibrət dərsi” var idi. Sovet ordusu, Bakını işğal edənlər şəhərə gündüz deyil, gecə girmişdilər. Gecənin pərdəsi qalın olur, qara olur. Tökülən qanları, törədilən vəhşilikləri gizlədə bilmək sehrinə malikdir gecələr.

366-cı motoatıcı polkun əsgərləri də erməni qardaşlarına dayaq duranda öz vərdişlərinə sadiq qaldılar. Malıbəyliyə gecə hücum etdilər. Adamları gecə öldürdülər, evləri gecə dağıtdılar. Kəndlərin yollarını ağır tanklar doğrayıb tökdü. Parça-parça etdi. Adamların ürəyi isə çoxdan parça-parça olmuşdu. Dörd ilin ağır dərsləri, məhrumiyyətləri, haqsızlıq, sahibsizlik parçalamışdı bu ürəkləri. Tankların keçdiyi yolları bəlkə də zaman nə vaxtsa sığallayacaq. Ancaq ürəklərdəki yaraları sağaltmağa heç kəsin gücü çatmaz. Malıbəyli camaatı gülləyə, top atəşinə ona görə tutulurdu ki, azərbaycanlı idilər. Azərbaycanlı olduqları üçün də qaçqın olmalı, ölməli, itməli idilər.

Adətən ölüm ya sürünə-sürünə, xəlvəti, ya da açıq-aşkar qəflətən gəlir. Xocalının ölümü bütün ölümlərdən fərqli idi. Addım-addım, ayaq üstə, bütün Qarabağa meydan oxuya-oxuya gəlirdi. Bu ölüm xeyir-duasını 1988-ci ildən almışdı. Bu ölüm 90-cı ilin qanlı şənbə günündən keçib gəlirdi. Bu ölüm haqsızlıqdan, faciələrdən baş alırdı.

Ölüm addım-addım irəliləyirdi. Özü də bu gəlişini heç kimdən gizlətmirdi. Oğuz eli isə yuxuda idi. Ölüm yaxşı bilirdi ki, Xocalı camaatının yavanlığı maymaq rəhbərliyin aldadıcı sözləri olub. Altı mindən çox sakini olan Xocalı ac-susuz duruş gətirirdi. Torpağına namusum deyib onu alınmaz qalaya çevirmək istəyirdi. Adamların bu inadkarlığı isə ölümü daha da qəzəbləndirirdi. Axı o, indi daha ürəkli idi. 366-cı motoatıcı polkun bütün texnikası, zabitləri, əsgərləri onun sərəncamında idi. “Arxalı köpək qurd basar” deyiblər. Boz qurdun harayına yetən yox idi. Xocalı camaatının ah-naləsi eşidilməz olmuşdu. Topların, raketlərin, mərmilərin səsi daha qüvvətli idi. Bu səsi batırmağa nə körpənin, nə qocanın, nə qadının gücü çatırdı.

Ölüm yol gəlirdi. Xocalı camaatı artıq yalvarmırdı. Onlar hiss edirdilər ki, soyqırımı başlayıb.

Ara-sıra eşitdiyim və həmişə də mənim üçün o qədər də aydın olmayan bir ifadənin mənasını o gün başa düşdüm, anladım. “Ölsəm də yadımdan çıxmaz”. O günə qədər fikirləşərdim ki, ölüm deyilən bir sonluqdan o yana heç nə yoxdur. Amma, sən demə, varmış. Bu ifadəni işlədən, dilimizə əmanət edən müdrik insanın da talan olmuş torpağı, itirdiyi əzizlərinin yaddan çıxmaz dağı varmış. Eynilə Xocalı kimi! Sağalmayan yaramız, üzümüzə deyil, ürəyimizə axan göz yaşımız, namusumuza düşən ləkə, ən nəhayət, soyqırımına məruz qalmış gözəl bir Qarabağ guşəsi.

Həmin soyqırımıda 613 nəfər şəhid olmuşdur. Onlardan 106 nəfəri qadın, 63 nəfəri 18 yaşına qədər olan uşaq və yeniyetmələr, 70 nəfəri isə əlsiz-ayaqsız qocalar idi. 8 ailə tamamilə məhv edilmiş, 25 nəfər uşaq hər iki valideynini, 130 nəfər uşaq isə valideynlərindən birini itirmişdi. 487 nəfər əlil olmuş, 150 nəfər itkin düşmüşdü.

Xocalı soyqırımı bizim tarixi və qan yaddaşımızdır. Qisas qiyamətə qala bilməz və qalmayacaq da!

***Rəfiqə SADIQOVA***

## Abidəyə çevrilmiş tarix




Qətlə yetirilmiş körpəsini qolları üstündə tutmuş ana... O, bu dünyanın ən böyük ağrısını, dərdini “danışır”. Təkcə bir xalqın deyil, bütövlükdə insanlığın faciəsi olan Xocalı soyqırımını haray çəkir... Baxışlarında hüzn də, fəryad da, işğala, işğalçılığa nifrət, müharibəyə etiraz da var. Bu abidələşmiş Ana XX əsrin ən dəhşətli faciələrindən birinin - Xocalı soyqırımının simvoludur.

“Ana fəryadı” adı verilmiş bu əsər heykəltəraşların təxəyyülündən yaranmadı. Müəlliflər heykəlin hazırlanmasında o dəhşətli hadisələri lentin yaddaşına köçürmüş, sonralar özü də şəhidlik mərtəbəsinə yüksəlmiş, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin çəkdiyi videomateriallardan istifadə etdilər. Heykəldə şəhid edilmiş körpəsini köksünə sıxaraq işğalçıların zülmündən qaçan ana əksini tapdı.

Xatırladaq ki, 1993-cü ildə burada başqa bir abidə qoyuldu. Həmin “Ana fəryadı” abidəsində erməni cəlladları tərəfindən öldürülmüş körpəsini başı üzərinə qaldırmış gənc xocalılı qadın əks olundu. Müəllifi heykəltəraş Elçin Muxtarov olan həmin abidədə ermənilərdən canını qurtarıb qaçan Xocalı qadınlarının ümumiləşdirilmiş obrazıdır. Əsərdə 1992-ci ilin 25-dən 26-na keçən qarlı-şaxtalı gecədə evindən çıxmağa məcbur olmuş, ayaqyalın, böyük əzab-əziyyətlə meşələrdən, çaylardan keçib gələn ana təsvir edildi. Xocalı qadınlarının timsalı olan ananın görkəmində həm fəryad, imdad, həm də ittiham vardı. Onunla eyni taleyi yaşamış qadınların təmsilçisi olan ana sanki bütün dünyanı ittiham edir, onlardan cavab istəyir.

Sonradan Xətai Rayon İcra Hakimiyyəti tərəfindən burada daha böyük abidə ucaldılması qərara alındı. Yeni heykəlin yaradılması üçün Aslan, Mahmud və Teymur Rüstəmovlara müraciət olundu. Beləliklə, abidənin hazırlanması işinə heykəltəraşlar ailəsi cəlb edildi. Üzərlərinə düşən işin çox məsuliyyətli və ağır olduğunu bilən heykəltəraşlar bir neçə eskiz çəkdilər. Müzakirələrdən sonra onlardan biri qəbul edildi. Heykəltəraşlar həmin eskiz üzərində işə başladılar. Heykəlin digər müəllifi Teymur Rüstəmov sonralar bildirirdi: “Bir kompozisiyada Xocalı gecəsində baş vermiş bütün faciələri və dəhşətləri əks etdirmək lazım idi, əlində ölmüş uşaq tutmuş qadın bu təsvirdə açar rolunu oynadı”. Tarixi əsərin ərsəyə gəlməsindən danışan heykəltəraş Mahmud Rüstəmov isə belə demişdi: “Təbii ki, bunu işləmək asan deyildi. Faciəni əks etdirən şəkillər ürəyimizi pərən-pərən edirdi. Çoxuna baxmaq mümkün deyildi. Bu, böyük ağrıdır, çox ağır tarixdir. Bunu nəinki xalq, bütün dünya bilməlidir ki, ermənilər bizə qarşı belə soyqırımı törədiblər. Biz çalışdıq ki, bu abidə ilə bütün məlumatları çatdıra bilək”.

### Bir günün şəhidləri...

2007-ci ilin sonu, 2008-ci ilin əvvəlində Bakı şəhərinin Xətai rayonunda, Şah İsmayıl metrosu yaxınlığında 25 min kvadratmetr ərazidə bərpa işləri görüldü və abidə kompleksi yenidən quruldu, 1993-cü ildə qoyulmuş “Ana fəryadı” heykəlinin yerində yenisi ucaldıldı. Abidə kompleksinin məzmununda elə ciddi dəyişiklik olmadı. Sadəcə birinci heykəldə ana öldürülmüş körpəsini başı üzərində qaldırıb, ikincidə isə qolları üstündə tutub.

2008-ci il fevralın 26-da - Xocalı faciəsinin ildönümü günü yeni abidənin açılışı oldu.

Aslan, Mahmud və Teymur Rüstəmovların həmmüəllifi olduqları tunc və qara qranitdən hazırlanan abidənin hündürlüyü 8,6 metr, heykəlin hündürlüyü isə 3,2 metrdir. Abidənin postamentində yerləşdirilmiş barelyeflərdə Xocalı faciəsi zamanı qətlə yetirilmiş 613 nəfərin adı həkk olunub. Soyqırımı zamanı qətlə yetirilənlərdən 169-u uşaq və qadınlardır. Xocalı faciəsində elə ailələr var ki, bir neçə üzvünü itirdi, 8 ailə isə tamamilə məhv edilmişdi. Onların doğum illəri, ayları, günləri fərqli olsa da, ölüm günləri birdir - 26 fevral 1992-ci il... Buna görə də lövhədə ölüm günləri qeyd olunmayıb.

### Xalqımızın ziyarət yeri...

1992-ci il fevralın 25-dən 26-na keçən gecə yer üzündən silinən şəhərin şəhid edilmiş, ağrılı bir tarixin şahidlərinə çevrilmiş sakinlərinin fəryadını əks etdirən bu abidə xalqımızın ziyarət yerlərindən biridir. Hər il fevralın 26-da - Xocalı soyqırımının anım günündə dövlət, hökumət, ictimaiyyət nümayəndələri, eləcə də minlərlə paytaxt sakini Xocalı Abidəsi Kompleksini ziyarət edir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecəyə qədər xalqımıza qarşı törədilən qətliamlar, onların səbəbləri və həmin gecə Xocalıda əhaliyə qarşı törədilən vəhşiliklər lənətlənir. “Ana fəryadı” Xocalı soyqırımının real təsvirini verir. İşğalçı qüvvələrin xocalılılara qarşı vəhşiliklərini, uşaqdan böyüyədək kimsəyə aman vermədiklərini göstərir.

Bu abidə təkcə xocalılıların yox, ümumiyyətlə, zaman-zaman ermənilərin həyata keçirdikləri terrorların, soyqırımlarının, sui-qəsdlərin qurbanı olmuş Azərbaycan övladlarının daşlaşmış haray səsləridir. “Ana fəryadı” Xocalı şəhərinin fəryadıdır. Ancaq kədərlə ona dikilən baxışlardan yalnız imdad diləmir, həm də Xocalıya, xocalılılara ədalət tələb edir.

Xocalının səsini dünyaya bəyan etmək hər bir azərbaycanlının mənəvi borcudur. 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində mülki azərbaycanlılara qarşı erməni silahlı birləşmələri tərəfindən törədilmiş soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində bu cür sənət əsərlərinin rolu isə danılmazdır.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

XX əsrin sonunda ermənilərin Xocalıda törətdiyi qanlı faciə insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Rusiyanın 366-cı motoatıcı alayı ilə birləşib Xocalı şəhərini odlara qalayaraq azərbaycanlılara qarşı soyqırımı törətdilər.

## Məkrli planın Xocalı dəhşətləri

### Bu ssenarinin müəllifi M.Qorbaçov, “oyunçu”ları isə erməni millətçiləri idi

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində, rəsmi rəqəmlərə görə, Xocalı əhalisindən 613 nəfəri öldürülmüş, 487-si şikəst olmuş, 1275-i dinc sakin olmaqla, qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərə məruz qalmışlar.

Bu qanlı faciə baş verən gün mən İran İslam Respublikasının Parsabad şəhərində idim. Fevral ayının 26-da axşam İran televiziyası törədilmiş vəhşiliyi xəbərlər proqramında göstərdi. Mən fars dilini bilmədiyim üçün hadisənin kimlər tərəfindən törədildiyini başa düşmədim. Müxtəlif mənbələrdən verilən məlumatlara görə, Xocalı faciəsini işiqlandırmaq üçün ermənilər 32 ölkədən 47 jurnalist dəvət etmişdilər.

Həmin jurnalistləri Xocalı faciəsinə başçılıq edən Yuri Zaviqarov təlimatlandırır, çəkilişlər aparmağa, qeydlər götürməyə şərait yaradırdı. Onlar dağıdılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər ki “azərbaycanlılar günahsız erməniləri qırdılar”. Ermənilər Xocalı ilə Azərbaycanı qan tökməkdə günahlandıran materialları təkrar-təkrar çap etdirirdilər.

Ermənilər “azərbaycanlılar Xocalını yandırıb getdilər” reportajını 49 dəfə dünya mətbuatında çap etdirdilər. Çox təəssüflə qeyd edirik ki, ermənilər hiyləgər, riyakar xisləti ilə bir çox dövlətləri öz yalanlarına inandırmağa çalışırdılar.

Bu hadisə məni bir qədər əvvəllərə apardı. 1988-ci ilin yanvar ayında Şuşa sanatoriyasında müalicə olunduğum zaman Ağdam şəhərindən olan əməkdar jurnalist Bəbir Hüseynovla taksi ilə xəstəxanada bir nəfərə baş çəkməyə gedirdik. Taksi sürücüsü bizə söylədi ki, yolda ermənilər daşnaklara mənsub bayraqlar asmışdılar. Ozamankı respublika rəhbərlərinin qəti tədbirlər görməməsi, səriştəsizliyi erməni millətçilərinin gündən-günə azğınlaşmasına şərait yaradırdı. Xankəndidə, Yerevanda antiazərbaycan və antitürk ruhlu mitinqlər genişlənirdi. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədi bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneələri aradan qaldırmaq idisə, digər tərəfdən, ümumiyyətlə Xocalını Yer üzündən birdəfəlik silmək idi. Çünki Xocalı elə bir yaşayış məskəni idi ki, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu məkan Xocalı əhalisinin tarixən məskunlaşdığı yerdir və qədim abidələri ilə tanınmışdı. Bu abidələr tarixə Xocalı-Gədəbəy mədəniyyətinin nümunələri kimi düşmüşdür. Xocalının yaxınlığında bizim e.ə.XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir.

Dünya tarixində Xocalı faciəsi tarixin yaddaşlarından heç vaxt silinməyən Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Holokost kimi dəhşətli faciələrdən heç də geri qalmır.

Təəssüflə qeyd edirik ki, yuxarıda adları çəkilən məkanlarda faciəni törədənlər cəzalandırıldığı halda, Xocalıda törədilmiş soyqırımının günahkarları, dövlət postlarını tutan Serj Sarkisyan, Seyran Ohanyan, sabiq prezident Robert Koçaryan və digərləri beynəlxalq məhkəmə qarşısına çıxarılmır.

1985-ci ilin əvvəllərində SSRİ-də hakimiyyəti zəbt edən M.Qorbaçov açıq şəkildə erməni separatizmini və ekspansiyasını dəstəkləyərək antiazərbaycan, antitürk siyasəti yeritdi. Ölkəmizin ərazi bütövlüyünə qəsd planı ermənilər tərəfindən əvvəlcədən hazırlanmışdı. SSRİ-yə rəhbərlik edən M.Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə yer alan ermənilər tərəfindən müdafiə olunan planın reallaşması üçün ciddi işlər görülürdü. Lakin planın praktiki mərhələyə keçməsi Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin SSRİ-də mühüm rəhbər postlardan birində olduğu zaman mümkünsüz idi, bu həqiqətlə ermənilər və onların himayədarları da birmənalı şəkildə barışırdı. Bu səbəbdən ermənilərin təhriki və diktəsi ilə hərəkət edən Qorbaçov ilk növbədə Heydər Əliyevin tutduğu vəzifədən uzaqlaşdırılmasına çalışırdı və təəssüf ki, istəyinə də nail oldu.

Mərhum şair Bəxtiyar Vahabzadənin təbirincə deyilsə, bu, Moskvada Azərbaycanın yeganə və ən böyük qalasının yıxılması demək idi. Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasının əsas səbəblərindən biri SSRİ siyasi rəhbərliyini ələ almış erməni lobbisinin təsir və təzyiqləri idisə, digər önəmli səbəb Mixail Qorbaçovun subyektiv hislərinin əsiri olması, ondan daha yaxşı idarəçilik qabiliyyətinə, səriştəyə malik bir şəxsin Kremldə olmasını həzm edə bilməməsi idi. Azərbaycanın böyük oğlunun Siyasi Bürodan uzaqlaşdırılmasından cəmi 15 gün sonra M.Qorbaçovun “xeyir-duası” ilə erməni millətçiləri Azərbaycana qarşı qəsd planlarının icrasına başladılar. 1987-ci ilin noyabrında M.Qorbaçovun məsləhətçisi olan qatı şovinist A.Aqambekyan Parisdə “Humanite” qəzetindəki bəyanatında bildirirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair artıq Moskvanın razılığı var.

O dövrdə Azərbaycana rəhbərlik edən şəxslər acizlik nümayiş etdirir, Moskvanın göstərişi ilə addımlar atırdılar. Beləliklə, ermənilər Dağlıq Qarabağın (4,4 min kv.km) hüdudlarından kənarda yerləşən, onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrini işğal etdilər.

Prezident İlham Əliyev deyir: “Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir. Xocalı soyqırımı haqqında həqiqətlərin ölkədə və respublikadan kənarda təbliğinə daim həssas yanaşmalıyıq. Amma yenə də deyirəm ki, hələ ki dünyada ikili standartlar siyasəti mövcuddur, erməni lobbisi, dünya erməniliyi və onların havadarları çalışırlar ki, erməniləri bu vəziyyətdən çıxarsınlar. Biz isə bundan sonra da çalışacağıq bütün dünya Xocalı haqqında həqiqəti bilsin...

Mən əminəm ki, gün gələcək, Xocalı faciəsini törədən, dinc əhaliyə qarşı qəddarlıq göstərən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər. O gün gələcəkdir”.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-dən başlayan “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində dövlət qurumları, müxtəlif təşkilat və ali təhsil müəssisələri Xocalı soyqırımına həsr olunan təqdimatlar keçirirlər.

Bir çox xarici ölkələrdə beynəlxalq təşkilatlarda “Xocalıya ədalət!” kampaniyası ilə bağlı silsilə tədbirlər təşkil edilmişdir. Almaniyanın Berlin və Hamburq, Belçikanın Brüssel şəhərlərində, ABŞ-ın Nevada, Texas, Massaçusetis, Nyu Cersi, Corciya ştatlarının nümayəndələr palatasında Xocalıda çox ağır cinayət törədilməsi faktı tanınmış və qətnamə qəbul olunmuşdur.

Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ətrafında sıx birləşərək inanır ki, işğal olunmuş torpaqlarımız azad ediləcəkdir. O gün isə uzaq deyil...

***Oqtay ƏLƏKBƏROV, coğrafiyaşünas, tədqiqatçı***



# DÜNYA



# London və Brüssel ayrılma prosesinin son mərhələsində

## Brexit sazişi dəyişdirilə bilər




Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxmasına (Brexit) bir ay bir həftə vaxt qalır. Gələn ayın 29-da London və Brüssel bir-birinə "əlvida" deməlidir. Lakin tərəflər necə ayrılacaqlarını hələ də müəyyənləşdirməyiblər. Bu il yanvarın ortalarında Birləşmiş Krallığın parlamenti Brexit üzrə saziş layihəsini qətiyyətlə rədd etmişdir. 432 parlamentar Londonun Aİ rəhbərliyi ilə ötən ilin noyabrında razılaşdırdığı sənədin əleyhinə çıxmışdır.

Britaniya qanunvericilik orqanının mövqeyi prosesin dalana dirənməsinə gətirib çıxarmışdı. Əsas problem Birləşmiş Krallığın tərkib hissəsi olan Şimali İrlandiya ilə İrlandiya Respublikası arasında sərhədin Brexitdən sonra 2020-ci ilin axırınadək davam edəcək keçid dövründə şəffaf qalıb-qalmaması idi. Plana görə, Britaniya martın 29-da Aİ-dən çıxacaq, amma Şimali İrlandiya keçid dövründə Aİ-nin Gömrük İttifaqında və vahid bazarında qalacaq. Britaniyalı qanunvericilər isə belə bir yanaşmanın ölkənin suverenliyinə xələl gətirdiyini bildirərək saziş layihəsini dəyişdirməyi tələb edirdilər.

Lakin Aİ rəhbərliyi Brexit şərtlərinə yenidən baxmağı lüzum görmürdü. Birliyin üzvü olan bəzi ölkələr sazişsiz Brexitə hazırlaşır, bəziləri isə prosesin müddətini uzatmağı və Londonla əlavə danışıqlar keçirməyi təklif edirdi. Nəhayət, London təmsilçiləri ilə yenidən görüşmək təklifi qəbul olundu və srağagün Böyük Britaniyanın Baş naziri Tereza Meylə Avropa Komissiyasının (AK) sədri Jan-Klod Yunker Brüsseldə bir araya gəldilər.

Görüşün yekunlarına dair qəbul olunmuş birgə bəyanatda deyilir ki, iki lider danışıqların konstruktiv keçdiyini ifadə etmiş və nümayəndə heyətlərini Brexit prosesini reallaşdırmaq üçün imkanlar axtarıb tapmağa çağırmışdır. Mey və Yunker əldə olunmuş irəliləyişi qarşıdakı günlərdə yenidən dəyərləndirmək qərarına gəlmişlər. AK-ın sədri və Böyük Britaniya hökumətinin başçısı cari ayın axırınadək yeni danışıqlar keçirmək barədə razılaşma əldə etmişlər. Eyni zamanda Mey və Yunker İrlandiya adasında "sərt sərhəd"in peyda olmasına imkan verməyəcəklərini, Avropa və Britaniya daxili bazarlarının toxunulmazlığına hörmət etmək öhdəliklərini bir daha təsdiqləmişlər.

Birgə bəyanatdan aydın olur ki, tərəflər Britaniya parlamenti Brexit sazişinin layihəsini rədd etdikdən sonra ilk dəfə bu sənədə düzəlişlər etməyin mümkün olması qənaətindədir. Bəyanatda qeyd olunur ki, Mey və Yunker Britaniya və Aİ-nin mövqelərinə uyğun olaraq iki tərəf arasında gələcək münasibətlər haqqında siyasi bəyannaməyə əlavə və düzəlişlər daxil edilməsinin mümkün olub-olmaması məsələsini müzakirə etmişlər.

Bu ifadələr Meylə Yunker arasında cari ayın 7-də keçirilmiş görüşün yekunlarına görə qəbul olunmuş birgə bəyanatdakı ifadələrdən xeyli fərqlənir. O vaxt bəyanatda vurğulanmışdı ki, Aİ Brexit sazişinə yenidən baxmayacaq. Srağagün İspaniyanın xarici işlər naziri Jozep Borrel "Bloomberg" agentliyinə müsahibəsində bildirmişdir ki, Britaniya ilə Aİ arasında gələcək münasibətlər haqqında birgə siyasi bəyannamənin yeni mətni üzərində iş gedir. O vurğulamışdır ki, Brexit müqaviləsinə yenidən baxılmayacaq, amma ona yeni izah vermək, yaxud əlavələr daxil etmək mümkün olacaq.

Göründüyü kimi, London və Brüssel ayrılmanı nizamlı şəkildə reallaşdırmaq xətti götürmüşdür. Lakin bu hələ o demək deyil ki, Brexit prosesini başa çatdırmaq üçün qarşıya çıxmış bütün maneələr aradan qaldırılmışdır. Qısa müddət ərzində tərəfləri qane edən razılaşmalar əldə edilməli, yenilənmiş saziş layihəsi həm Britaniya parlamentində təsdiqlənməli, həm də Aİ-nin üzvü olan bütün ölkələr tərəfindən ratifikasiya olunmalıdır.

Özü də sazişsiz Brexit nə Londonu, nə də Brüsseli qane edir. Çünki Britaniya və Aİ prosesin şərtləri barədə razılaşa bilməsələr, "sərt" Brexit qaçılmaz olacaq. Hadisələrin bu yöndə inkişafı Britaniyanın eyni vaxtda Aİ Gömrük İttifaqında və Avropa vahid bazarında üzvlüyünün dayanmasını, Avropa bazarında satılan Britaniya mallarına gömrük rüsumlarının tətbiqini nəzərdə tutur. Yaxın perspektivdə sazişsiz Brexit Britaniya ilə materik arasında nəqliyyatın fəaliyyətini çətinləşdirə, bəzi əmtəə kateqoriyalarının qıtlığına gətirib çıxara, Birləşmiş Krallıqla Aİ ölkələri arasında ticarət üçün maneələr yarada bilər.

Bütün hallarda Brexit prosesi son dərəcə həssas mərhələyə daxil olur. London və Brüssel hadisələrin gedişinin arzuolunan razılaşmalarla nəticələnməsinə nail olmaq əzmindədir. Buna baxmayaraq, qarşıdakı mərhələnin rəvan keçəcəyini gözləmək lazım gəlmir. Belə ki, bir tərəfdən, London və Brüssel ayrı-ayrılıqda özlərinə daha çox sərf edən saziş əldə etməyə çalışır, digər tərəfdən, Britaniyada müxalifətçi düşərgə Tereza Mey hökumətini iqtidardan kənarlaşdırmaq üçün Brexitdən yaxşı fürsət görmür. Ona görə də indidən gözləmək olar ki, yaxın həftələrdə dumanlı Albionda gərgin siyasi ab-hava hökm sürəcək.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## Tramp: "KXDR-ə qarşı sanksiyalar hələ ki qüvvədə qalacaq"



"Pxenyan Koreya yarımadasının nüvəsizləşdirilməsi istiqamətində ciddi addımlar atmayanadək ABŞ-ın KXDR-ə qarşı sanksiyaları qüvvədə qalacaq". Bu barədə Prezident Donald Tramp məlumat vermişdir.

Trampın dediyinə görə, sanksiyaları ləğv etməyə "şad olardı", lakin KXDR "əhəmiyyətli bir iş görməyənədək" məhdudlaşdırıcı tədbirlər tam həcmdə saxlanılacaq. Amerika lideri əlavə etmişdir ki, onun fikrincə, KXDR hökuməti "nə isə etmək istəyir". Tramp ümidvar olduğunu bildirmişdir ki, onun Şimali Koreya lideri Kim Çen İnlə ikinci görüşü nəticə verəcək və sonuncu olmayacaq.

## Banqladeşdə yanğın zamanı 81 nəfər həlak oldu



Banqladeşin paytaxtı Dəkkədə yaşayış evində baş vermiş partlayış və yanğın nəticəsində 81 nəfər həlak olmuşdur. Bu barədə yerli xilasetmə xidmətinin nümayəndəsi Mahfuz Rivenə istinadən "Bangladesh Observer" qəzeti xəbər verir.

Yanğınsöndürmə və mülki müdafiə xidmətinin direktoru Zülfiqar Rəhmanın dediyinə görə, hadisə yerində dağıntılar altında hələ onlarca adam ola bilər. Onların sağ qalmaq şansları isə çox deyil.

Hadisə zamanı azı 46 nəfər yaralanmışdır. Onların 5-i ağır yanıq xəsarəti almışdır və vəziyyətləri kritikdir.

Yanğının böyük sahəni bürüməsi binada kimyəvi anbarın olması ilə izah edilir. Güman olunur ki, yanğının mənbəyi qaz balonudur.

Partlayış "Hazi Wahed Mansion" (Chawkbazar) adlı beşmərtəbəli binanın birinci mərtəbəsində baş vermiş və yanğın tezliklə qonşu tikililəri bürümüşdür.

## ABŞ-ın müttəfiqləri Suriyada amerikalı hərbçiləri əvəz etmək istəmirlər



Avropalı müttəfiqlər Suriyada amerikalı hərbçiləri əvəzləmək xahişindən imtina etmişlər. Bu barədə "The Washington Post" qəzeti xəbər verir.

Məlumata görə, Ağ ev Böyük Britaniya, Fransa və Almaniyadan Türkiyə-Suriya sərhədində 30 kilometr enində hərbisizləşdirilmiş zonada müşahidə məntəqələri yaratmağı xahiş etmişdir. Hər üç ölkə Vaşinqtona yekdilliklə bildirmişdir ki, ABŞ öz qoşunlarını çıxarsa, onlar Suriyada qalmayacaqlar.

Qeyd olunur ki, ABŞ-la yanaşı, Böyük Britaniya və Fransa da Suriyada hərbi kontingent yerləşdirmişdir. Onlar koalisiyanın tərkibində YPG terrorçu qruplaşmasını silahla təchiz edir, ekstremistlərə təlim verirdilər. Məmurların, qanunvericilərin və ABŞ administrasiyasının yüksək vəzifəli nümayəndələrinin fikrincə, müttəfiqlərin imtinası ABŞ Prezidenti Donald Trampı qoşunları Suriyadan çıxarmaq qərarına yenidən baxmağa vadar etməlidir.

## Fransada qrip epidemiyası 2800 nəfərin həyatına son qoyub

Fransada H3N2 qripinin epidemiyası 2800 adamın həyatına son qoymuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Fransa Səhiyyə Nazirliyinin məlumatına görə, təkcə son iki həftə ərzində qrip simptomları olan 25 min nəfər təcili yardım xidmətinə müraciət etmiş və 4370 nəfər xəstəxanalarda yerləşdirilmişdir. H3N2 qripindən 2800 nəfər vəfat etmişdir. Onların 87 faizi 75 yaşdan yuxarı adamlardır.

Xatırladaq ki, 2015-ci ildə H3N2 qripi Fransada 18 min adamın həyatına son qoymuşdur.

## Qadınlar ilk dəfə açıq kosmosa çıxacaqlar



Tarixdə ilk dəfə iki qadının açıq kosmosa çıxması 2019-cu ilə planlaşdırılmışdır. Bu barədə amerikalı astronavt Kristina Kuk məlumat vermişdir.

Kuk keçirdiyi mətbuat konfransında demişdir: "Belə başa düşürəm ki, hazırda mən Enn Makkleynlə birgə kosmosa çıxışa təyin edilmişik. Biz heyətin hər bir üzvü ilə istənilən tapşırığı yerinə yetirməyə hazırıq". Bundan əvvəl qadınlardan ibarət heyət açıq kosmosa çıxmamışdır.

Dünən rusiyalı Aleksey Ovçinin, amerikalılar Nik Heyq və Kristina Kuk "Soyuz MC-12" gəmisində uçuş ərəfəsində imtahanları verdikdən sonra Beynəlxalq Kosmik Stansiyanın (BKS) əsas heyəti kimi uçuşa icazə almışlar. Onlar BKS-də 204 gün keçirməlidirlər. Heyət martın 14-də Baykonur kosmodromundan orbitə yollanacaq.

Xatırladaq ki, hazırda rusiyalı Oleq Kononenko, kanadalı David Sen-Jak və amerikalı Enn Makkleyn BKS-də işləyirlər.

## Rusiya orbital radiasiya nəzarəti sistemi yaratdı



Rusiyanın orbital qruplaşmasında Günəş və kosmik radiasiyaya nəzarət sistemi yaradılmışdır. Bu barədə "Roskosmos" dövlət konserni məlumat vermişdir.

Məlumatda deyilir ki, Rusiya yerətrafı məkanda müxtəlif orbitlərdə radiasiya nəzarəti sistemi yaratmışdır. Dozimetrlər bütün kosmik aparatlarda - aşağı orbitallı "Meteor-M", orta orbitallı "QLONASS" və geostasionar "Elektro-L"də yerləşdirilmişdir.

Dozimetrlər Avropa İttifaqının kosmik radiasiyanın canlı və cansız materiallara və Yer atmosferinə təsirinin tədqiqi layihəsinin reallaşdırılmasına kömək edəcək.

Kosmosda radiasiyanın əsas mənbələri Günəş və qalaktikanın mərkəzindən olan yüklənmiş zərrəciklərdir. Beynəlxalq Kosmik Stansiyasının Rusiya tərəfindən olan uçuş rəhbəri Vladimir Solovyovun dediyinə görə, kosmik və Günəş şüalanması eyni dərəcədə təhlükəlidir. Onların hər ikisindən müdafiə olunmaq lazımdır.

# Maraqlar yenidən toqquşdu

## Bu mənzərə təhlükəsizlik konfransında bir daha müşahidə olundu

Keçən bazar günü Münxendə başa çatmış sayca 55-ci təhlükəsizlik konfransı beynəlxalq təhlükəsizlik sistemində açıq-aşkar nəzərə çarpan çatları "müalicə etmək" üçün platforma kimi düşünülürdü. Forumda təmsilçilik səviyyəsi və iştirakçıların rekord sayı (35 dövlət və hökumət başçısı, 50 xarici işlər naziri, 30 müdafiə naziri, 600 ekspert) belə bir təsəvvür yaradırdı ki, dağıla-dağıla gedən dünya qaydasının bərpası istiqamətində hansısa təşəbbüs irəli sürüləcək. Təəssüf ki, konfransa bəslənən cüzi ümid belə özünü doğrultmadı.




Üç gün davam etmiş konfransda aktual beynəlxalq problemlərə münasibətdə ayrı-ayrı dövlətlərin maraqlarının toqquşduğu müşahidə edildi. Dünya liderləri planetdə yaranmış mürəkkəb vəziyyət və ənənəvi təhlükəsizlik sistemlərinin böhran keçirməsini nəzərə alaraq yeni əməkdaşlıq prinsipləri təklif etmədilər. Əvəzində aparıcı dövlətlərin təmsilçiləri bir-birini ittiham etməklə kifayətləndilər.

Diqqəti belə bir məqam cəlb etməyə bilməzdi ki, hazırkı beynəlxalq siyasətə ton verən ABŞ rəhbərliyi Tramp administrasiyasının əsas üzvlərinin Münxen konfransına qatılmaması ilə foruma elə bir maraq göstərmirdi: Almaniyaya nə Prezidentin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton, nə də dövlət katibi Mayk Pompeo gəlmişdilər, hərçənd onlar yaxında - Polşada idilər.

Konfransın ilk günü beynəlxalq təhlükəsizliyin ən aktual probleminə - silahlara nəzarət sistemində böhrana həsr olunmuşdu. Ortamənzilli və yaxınmənzilli raketlər müqaviləsinin (OYRM) qüvvədən düşməsindən sonra dünyanın gələcəyi əsas müzakirə mövzusu idi. ABŞ OYRM-dən çıxdıqdan və ardınca Rusiya analoji qərar qəbul etdikdən sonra müqaviləni xilas etmək yolları çoxdandır Avropa ictimaiyyətinin diqqət mərkəzindədir. Məsələnin həlli istiqamətində məhz Münxendə hansısa addım atılması gözlənilirdi. Çoxlarına elə gəlirdi ki, forum iştirakçılarının çıxışları geniş əks-səda doğuracaq, çünki hesab olunurdu ki, ABŞ, Çin və Rusiya arasında dünya miqyasında artan rəqabət konfransın işində əksini tapacaq. Lakin gözlənilən kimi olmadı. Elə bil ki, dünyada təhlükəsizlik, silahlara nəzarət kimi ciddi problem yoxdur. Ona görə də sadəcə olaraq NATO-nun baş katibi Yens Stoltenberqlə Rusiyanın xarici işlər naziri Sergey Lavrov arasında danışıqlar keçirildi və dialoq nəticəsiz qaldı. Stoltenberq bəyan etdi ki, Lavrovla görüş tərəflərin mövqelərini yaxınlaşdırmağa kömək etmədi.

Almaniyanın xarici işlər naziri Hayko Maas tərəflər arasında dialoq üçün yeni platforma təklif etdi. O bildirdi ki, Berlin bu ilin aprelində BMT Təhlükəsizlik Şurasına sədrliyi qəbul edən kimi silahlara nəzarətin gücləndirilməsi məsələsini qaldıracaq: "OYRM böhranı göstərir ki, biz nüvə silahına və silahlara nəzarətə daha qlobal şəkildə yanaşmalıyıq. Yeni silah sistemlərinin texnoloji inkişafının təhlükəsizlik arxitekturamıza təhlükə yaratmamasının qayğısına birlikdə qalmalıyıq". Maas onu da qeyd etdi ki, "müqaviləni qoruyub saxlamaq üçün amerikalılar, avropalılar və ruslar arasında daha çox dialoq aparmaq lazımdır". Nazirin fikrincə, silahlara nəzarət barədə müzakirələrə "digər iştirakçıları, ilk növbədə Çini də cəlb etməliyik". Hərçənd Pekinin bu cür müzakirələrə qatılmaq həvəsi yoxdur. Çin nümayəndəsi, Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü Yan Szeçi ümumi sözlərdən o tərəfə getməyib dünya problemlərinə çoxtərəfli yanaşmaya Pekinin sadiq qaldığını bəyan etdi. Xatırlatmaq yerinə düşər ki, belə bir mövqe gözlənilən idi. OYRM yer bazalı qanadlı və ballistik raketlərin ləğvini nəzərdə tutur. Dəniz və hava bazalı raket potensialına malik ABŞ və Rusiyadan fərqli olaraq, Çinin raket cəbbəxanası əsasən yer bazalı raketlərdən ibarətdir. Odur ki, Pekinin könüllü şəkildə tərk-silah olacağını gözləmək lazım gəlmir. Üstəlik, OYRM-in Çinə dəxli yoxdur, çünki bu saziş çoxtərəfli yox, ikitərəflidir, ABŞ-la keçmiş SSRİ arasında bağlanmışdır.

Ümumiyyətlə, təhlükəsizlik konfransının iştirakçıları çıxışlarını tənqid üstündə kökləmişdilər. Məsələn, Rusiyanı kəskin tənqid edən Böyük Britaniyanın müdafiə naziri Qevin Uilyamson Rusiyanın xarici işlər naziri Sergey Lavrovdan "müharibə naziri" ləqəbi aldı. Forumun evsahibi, Almaniya Kansleri Angela Merkel də tənqidsiz ötüşmədi. Emosiyalarını gizlədə bilməyən Merkel həm Rusiyanı, həm də ABŞ-ı tənqid atəşinə tutdu. Kansler Moskvanı Ukraynada hərəkətlərinə görə pislədi. Bununla belə, Almaniya lideri ixtilaflara baxmayaraq, Rusiya ilə münasibətləri kəsməyin əleyhinə, onunla dialoqa tərəfdar çıxdı. ABŞ alman avtomobillərinə gömrük rüsumu qoymaqla hədələdiyinə görə Merkelin tənqidinə məruz qaldı. Kanslerin fikrincə, Vaşinqtonun bu hərəkəti Almaniyanın milli təhlükəsizliyini təhdid edir.

ABŞ-ın vitse-prezidenti Mayk Pensin forumda çıxışı daha çox İranı "yıxıb-sürümək"lə yadda qaldı. O bildirdi ki, İran Yaxın Şərqdə sülhə, hər şeydən əvvəl, İsrailə təhlükədir. Pens avropalıları ABŞ-a qoşulub Tehranla bağlanmış nüvə sazişindən çıxmağa çağırdı. "Hərəkət etmək vaxtıdır" deyən vitse-prezidentin sözləri bəzi iştirakçılarda belə bir qənaət yaratdı ki, ABŞ İrana qarşı güc tətbiqini istisna etmir.

Dövrün aktual problemlərindən fərqli olaraq, konfrans iştirakçıları Yaxın Şərqdə vəziyyətə, xüsusilə Suriya münaqişəsinə münasibətdə prinsipial mövqe ortaya qoydular. ABŞ tələb edir ki, hərbçilərini Suriyadan çıxarandan sonra hökumət qoşunları Fəratın şərqinə girməsin, çünki bu, bölgədə sabitliyin bərqərar olmasına kömək etməz. Rusiya hesab edir ki, amerikalı hərbçilərin yerini məhz Suriya ordusu tutmalıdır. Moskvaya görə, Suriyanın şimal-şərqində vəziyyətin nizama salınması kürdlərlə Dəməşq arasında dialoqdan keçir. Ankara isə belə bir qəti fikirdədir ki, YPG terrorçu təşkilatı Suriyanın şimal-şərqindən çıxarılmalı və Fəratın şərqində yaradılacaq təhlükəsizlik zonasına məhz Türkiyə nəzarət etməlidir, çünki Türkiyəyə və onun xalqına təhlükə uzun illərdir Suriyanın həmin bölgəsindən qaynaqlanır.

Beləcə Münxendə təhlükəsizlik konfransı beynəlxalq təhlükəsizliyə təhdidlərin müzakirəsini kənarda saxlayan forum kimi tarixə düşdü. Forumun yekunları müxtəlif cür dəyərləndirilir. Rusiya diplomatiyasının başçısı Sergey Lavrovun fikrincə, Rusiyaya qulaq asmağa başladılar. Yəni ki, Münxen konfransının gedişi Moskvanı qane edib. "The New York Times" qəzeti isə yazır ki, konfrans Vaşinqtonla onun müttəfiqləri arasında bir çox beynəlxalq məsələlərdə dərin fikir ayrılığı olduğunu nümayiş etdirdi və Qərb Rusiya ilə Çinin bundan sui-istifadə edəcəyindən ehtiyatlanır. Qəzet qeyd edir ki, avropalılar Vaşinqtonun dəyişəcəyinə daha inanmırlar. Məqalədə başqa bir məqam da vurğulanır: Avropa İttifaqı rəsmilərinin fikrincə, Tramp ənənəvi müttəfiqlərini iqtisadiyyat sahəsində rəqib kimi qəbul edir və hesab edir ki, lider rolu ABŞ-a şərtlərini diktə etmək haqqı verir. Ona görə avropalılar Tramp administrasiyasından sonra da ABŞ-la münasibətlərin heç vaxt əvvəlki kimi olmayacağını ehtimal edirlər.

***A.MEHDİYEV,***
***"Azərbaycan"***

# Azercell

## abunəçilərinin nəzərinə:

15 mart 2019-cu il tarixdən etibarən, Rominqdə İnternet Paketlərindən istifadə imkanı mövcud olan ölkə və operator şəbəkələrinin sayı artırılır. Belə ki, həmin tarixdən etibarən BƏƏ və Çində səfərdə olan "Azercell" abunəçiləri hal-hazırda rominq xidməti çərçivəsində təqdim edilən internet paketlərindən istifadə edə biləcəklər. Rominq zamanı internetdən istifadə üçün 1GB=19,90 AZN və 400 MB=9,90 AZN həcmli internet paketlərindən yararlanmaq mümkündür. Beləliklə, "Azercell" abunəçiləri yuxarıda göstərilən hər iki ölkədə rominq zamanı, yüksək internet xərcləri ilə qarşılaşmadan daha endirimli qiymətlər və istifadə həcmini nəzarətdə saxlamağı asanlaşdıran müvafiq həcmli mobil internet paketlərindən yararlanmaq imkanı əldə edəcəklər.

22 mart 2019-cu il tarixdən etibarən həm fakturalı, həm də fakturasız (SimSim) xətt sistemlərinə aid nömrələrdə BƏƏ və Çində rominq zamanı mobil internet istifadəsinə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək və rominq üçün nəzərdə tutulan mobil internet paket mövcud olmadığı halda, BƏƏ-də 1 MB=9,90 AZN, Çində 1 MB=6 AZN tarifi ilə hesablanacaq.

**Qeyd:** *Abunəçilər göstərilən dəyişikliklər, rominq xidmətinin aktivləşməsi, dayandırılması, Rominqdə Mobil İnternet Paketlərinin sifarişi, istifadəsi və digər şərtlər barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*


*Təkrar*

## Göyçay Rayon İcra Hakimiyyəti
## *açıq tenderə dəvət edir*

**Tender 4 LOT üzrə keçirilir:**

**LOT 1.** Göyçay şəhərində abadlıq işlərinin görülməsi

**LOT 2.** Göyçay şəhərində asfalt örtüyünün əsaslı təmiri işlərinin görülməsi

**LOT 3.** Göyçay şəhərində mənzillərin təmiri işlərinin görülməsi

**LOT 4.** Göyçay Rayon İcra Hakimiyyətinin sair xərclər üzrə işlərin görülməsi

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 150 manat məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Göyçay rayonu, M.Ə.Rəsulzadə küçəsi, 130 (Əlaqələndirici şəxs: Kərimov Kamran İlqar oğlu, telefon: (051) 408-76-76) ünvanından ala bilərlər.

**VÖEN: 6000043011**
**N/N: 2511331**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK CREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 mart 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 01 aprel 2019-cu il saat 15:00-a qədər Göyçay rayonu M.Ə.Rəsulzadə küçəsi 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 03 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2019-cu ildə (221320) - "Cari təmir" maddəsi üzrə uşaq bağçası-körpələr evinin təmiri və (282230) - "Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri" maddəsi üzrə uşaq bağçası-körpələr evinin əsaslı təmiri işlərinin satın alınması ilə əlaqədar
## *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.**

**LOT 1** - "Cari təmir" maddəsi üzrə uşaq bağçası-körpələr evinin təmiri

**LOT 2** - "Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri" maddəsi üzrə uşaq bağçası-körpələr evinin əsaslı təmiri

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun yuxarıda qeyd olunan lotlar üzrə öz yazılı tender təkliflərini imzalanmış və möhürlənmiş şəkildə ikiqat zərfdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər. Əlaqələndirici şəxs: Rəhimdil Qılınc oğlu Əhmədov, telefon: (018) 655 14 48

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab № AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142340**
**VÖEN: 2900054881**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının son bir ildə analoji işlər üzrə təcrübəsi və potensial imkanı haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədlər (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 02 aprel 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə 11 aprel 2019-cu il saat 17:00-a qədər Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinə təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12 aprel 2019-cu il saat 15:00-da Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9 ünvanda yerləşən Sumqayıt Şəhər İcra Hakimiyyətinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti
## Şamaxı Suvarma Sistemləri İdarəsi
## *açıq tender elan edir*

**Tender 1(bir) LOT üzrə keçirilir.**

Maddələr üzrə 1. 221320 ehtiyat hissələri
2. 221320 inşaat materialları
3. 223200 ehtiyat hissələri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən LOT üzrə öz tender təkliflərini möhürlənmiş, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi vasitəsilə həyata keçiriləcəkdir.

İştirak haqqı LOT üzrə 120 (bir yüz iyirmi) manat ödənilməlidir.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Şamaxı rayonu, Dədə Qorqud küçəsi ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Əlixan Babayev
Əlaqə tel: 051 578-76-56
**Təşkilat: Şamaxı Suvarma Sistemləri İdarəsi**
**VÖEN: 8400088001**
**Bank: DXA**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: 85 NABZ01336010000003003944**
**S.W.I.F.T.BIK: CTRE AZ 22**
**H/h: AZ14CTRE00000000000002352701**
**Müəssisə təsnifat kodu: 142319**
**Büdcə səviyyə kodu: 3**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *müəssisənin nizamnaməsi;*
- *vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatın surəti;*
- *bank arayışı, rekvizitlərlə birlikdə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tenderdə təklif təminatı (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən qüvvədə olmalıdır).*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 15 mart 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər. Tender təklifi və bank zəmanətinin son qəbul tarixi isə 02 aprel 2019-cu il saat 17:00-a müəyyən edilmişdir.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 03 aprel 2019-cu il tarixdə saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmayacaq.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

*Təkrar*

## Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksi tədbirlərin keçirilməsinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

**LOT-1** 01 iyun 2019-cu il - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar tədbirlərin keçirilməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 200 manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Sona Vəlixanlı 1 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Cavadov İlqar Əziz oğlu, tel:492-46-34.

**Kapital Bank Səbail filialı**
**Kodu: 200059**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AİİBAZ2X**
**"Yaşıl Teatr" Bakı Konsert Kompleksi**
**H/H: AZ05AIIB33070019443501623105**
**VÖEN: 1700779931**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 15 mart 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə 29 mart 2019-cu il saat 17:00-a qədər "Yaşıl Teatr" Bakı Konsert Kompleksinə (ünvan: Sona Vəlixanlı küç. 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 01 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### Gədəbəy Rayon İcra Hakimiyyəti avadanlıqların və inventarların kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (022) 326-01-47 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.
Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 05 mart 2019-cu il saat 15:00-a kimi qəbul olunur.

**Ünvan: Gədəbəy rayonu, M.C.Paşayev küçəsi-3.**

***Tender komissiyası***


## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi veteran jurnalist Məzahir Süleymanzadəyə həyat yoldaşı
**GÜLNARƏ SÜLEYMANZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkət rəhbərliyi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı
**PAKİZƏ PAŞAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İsmayıllı rayonundan Mirdaməd Sadıqov "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı
**PAKİZƏ PAŞAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Habil Məmmədova anası
**TAMARA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Dövlət Universitetinin rektorluğu Kitabşünaslıq və nəşriyyat işi kafedrasının professoru
**BAYRAM ALLAHVERDİYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Cəlilabaddan Namiq Zeynalov Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun əməkdaşları Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü
**RAUF VƏLİ OĞLU HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin kollektivi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Asəf Hacıyev AMEA-nın müxbir üzvü, professor
**RAUF HÜSEYNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı
**ŞƏRQİYYƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı
**PAKİZƏ PAŞAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8956
Sifariş 594
Qiyməti 40 qəpik